AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

Beynəlxalq münasibətlər
kafedrası

B.M.Abdullayev

S.M.İmanova

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

(metodik vəsait)

Azərbaycan Respublikası təhsil nazirinin 27.09. 2010-cu il tarixli 1265 nömrəli əmri ilə qrif verilmişdir.

- 14664 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2010

Metodik vəsait Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq münasibətlər kafedrasında hazırlanmışdır.

**Redaktor:** **t.e.n. R.M.Qurbanov**

**Rəyçilər:** **prof. Ə.Abdullayev**

**dos. Z.Bayramov**

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası "Sosial-siyasi elmlər" bölməsinin 08 iyul 2010 -cu il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (9 saylı protokol).

**B.M.Abdullayev, S.M.İmanova.**
**Azərbaycanin xarici siyasəti (metodik vəsait). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010.**

*© Abdullayev B.M., İmanova S.M., 2010*
*© "İqtisad Universiteti" Nəşriyyatı, 2010.*

*Metodik vəsait Azərbaycan Dövlət İqtisad Universitetinin 80 illik yubileyinə həsr edilir.*

## Giriş

Fənnin predmeti və əsas problemləri. Onun tədrisinin məqsədi və başlıca vəzifələri. Azərbaycanın XX yüzillikdəki xarici siyasətinin dövrləşdirilməsi məsələləri. Fənnə dair başlıca qaynaqlar və ədəbiyyat.

## 1-ci mövzu
## Azərbaycan Xalq Cümhuriyyəti (AXC) diplomatiyasının ilk addımları

AXC-nin elanı. «İstiqlal Bəyannaməsi» və AXC-nin xarici siyasətinin əsas vəzifələri, istiqamətləri, prinsipləri. AXC Xarici İşlər nazirliyinin (XİN) fəaliyyətinin təşkili. Azərbaycan dövlətinin de-fakto tanınması prosesi. Xarici dövlətlərin Azərbaycandakı diplomatik nümayəndəliklərinin fəaliyyətə başlaması.

Azərbaycan-Osmanlı münasibətləri: orta əsrlərin hərbi-siyasi qarşıdurmasından müttəfiqliyə doğru. Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq (Batumi) müqaviləsi (4.VI.1918) və ona əlavə sazişlər. (Müqavilənin bağlanmasının səbəbləri; onun 4-cü maddəsi. Müqaviləyə əlavə «Azərbaycanın Türkiyədən hərbi müdaxilə istəməsi» şərhədi). AXC-nin ilk beynəlxalq müqaviləsinə dair baxışlar. Müqavilənin gerçəkləşdirilməsi sahəsində ilkin tədbirlər.

Azərbaycanın xarici siyasət xəttinə dair mövqelər və mübahisələr: «İlhaqçılar»la (Osmanlı hərbçiləri və klerikallar) Milli Şura arasında qarşıdurma. «İyun böhranı»nın aradan qaldırılması.

Azərbaycan-Osmanlı yaxınlaşması və Almaniyanın mövqeyi: Qafqazın nüfuz dairələrinə bölünməsi haqqında gizli alman-türk müqaviləsi (İstanbul, 27.IV.1918). Almaniyanın Bakı nefti ilə bağlı planları. Alman-gürcü müqaviləsi (28.V.1918), Almaniyanın Gürcüstandakı nümayəndəsi fon Kressin İstanbul danışıqları (17.VI.1918), Alman Ali Baş Komandanlığının xüsusi müşavirəsi (Spa, 2-3.VII.1918) və Bakı nefti məsələsi. Almaniyanın «Böyük siyasi səhvi» - Brest/Litovsk müqaviləsinə əlavə («Bakı sazişi», 27.VIII.1918). Almaniya-Osmanlı protokolu (23.IX.1918).

Dördlər İttifaqı ilə Qafqaz dövlətlərinin İstanbul konfransı məsələsi və Azərbaycan. Konfransın alınmamasının səbəbləri. İngilispərəst Sentrokaspi (Mərkəzi Xəzər) diktaturasının süqutu. Bakının azad edilməsi (15.IX.1918) və onun siyasi əhəmiyyəti.

Ə.Topçubaşının İstanbul missiyası: diplomatik görüşlər və danışıqlar (X-XI.1918). Onun Antanta ölkələrinin İstanbuldakı Fəxri nümayəndələrinə Memorandumu. Mərkəz dövlətlərinin paytaxtlarına diplomatik missiya göndərilməsi ideyası.

Mudros müqaviləsinin (30.X.1918) Azərbaycan üçün nəticələri. Barışığın Azərbaycana aid maddələrinə Ə.Topçubaşının etiraz notası. Azərbaycan hökumətinin təmsilçiləri ilə ingilis generalı Tomson arasındakı Ənzəli danışıqları (XI.1918). Tomsonun bəyannaməsi. AXC diplomatiyası Antanta (ingilis) "idarəçiliyi" şəraitində.

## 2-ci mövzu
## Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda diplomatik mübarizə

Rusiyanın Qafqazdakı ermənipərəst siyasəti: Türkmənçay müqaviləsindən fevral inqilabınadək (Paskeviçdən Sazonova qədər).

Ermənilərin Türkiyənin şərq vilayətləri, Şimali və Cənubi Azərbaycan hesabına «Böyük Ermənistanın bərpası»na yönələn səylərinin qüvvətlənməsi. Kəndli deputatların Umumqafqaz qurultayında (Tiflis, 1917) və Ümummilli erməni konfransında

(Tiflis, 1917) Azərbaycana qarşı irəli sürülən əsassız ərazi iddiaları. Ermənilərin Azərbaycanda yürütdükləri «yandırılmış torpaq» və «etnik təmizləmə» - türk/müsəlman soyqırımı siyasəti. Dağlıq Qarabağın müstəqilliyinin elanı (VI.1918). Andranikin «Naxçıvan yürüşü». Onun tərəfindən «paytaxtı» Gorus olan Zəngəzur "qubernatorluğu"nun yaradılmasının elanı.

Azərbaycan diplomatiyasının ermənilərin ərazi iddialarını, hərbi təcavüzünü və türk-müsəlman soyqırımı siyasətini dəf etmək sahəsindəki fəaliyyəti: Ermənilərin Azərbaycan torpaqlarına «tarixi və etnoqrafik hüquqları»nın əsassızlığı. Azərbaycan və Ermənistan arasındakı ərazi-sərhəd məsələlərinin Batum konfransındakı müzakirəsi. Azərbaycan Milli Şurası tərəfindən (29.V.1918) İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsinə dair. Osmanlı dövlətindən hərbi yardım istənilməsi. Azərbaycana Osmanlı hərbi yardımının siyasi nəticələri. Gözlənilən İstanbul konfransı ərəfəsindəki müzakirələrdə ərazi-sərhəd məsələləri ətrafında ermənilərlə mübahisələr.

Azərbaycanın Naxçıvan mahalında Araz-Türk Respublikasının yaradılması ərazi bütövlüyümüzün təminatının yollarından biri kimi. İngilislərin Cənub-Qərbi Azərbaycana (Qarabağ - Zəngəzur - Naxçıvan mahallarına) dair mövqeyindəki ziddiyyətlərin - «ikili standart»ın aradan qaldırılmasına yönələn diplomatik səylər: AXC-nin Ermənistanda diplomatik nümayəndəliyinin açılması (I.1919). M.Mirbağırovun Naxçıvan bölgəsinə səfəri və ingilis general-qubernatoru ilə danışıqları (II.1919). AXC Naxçıvan, Qarabağ general-qubernatorluqlarının təşkili (I-II.1919) və bununla bağlı Ermənistanla «diplomatiya müharibəsi».

Andranikin zərərsizləşdirilməsinə dair hərbi-diplomatik səciyyəli tədbirlər. Azərbaycanın ərazi bütövlüyünü pozmağa çalışan Andranik-Denikin cütlüyünün planlarına qarşı səylər. İngilislərin dəstəyi ilə Naxçıvandakı "erməni idarəçiliyi" (V-VII.1919). Azərbaycanın İrəvandakı diplomatik nümayəndəliyinin (M.Təkinski, Ə.Haqverdiyev, M.Mirbabayev, T.Makinski) Cənub-Qərbi Azərbaycanın erməni təcavüzündən müdafiəsi və



qaçqınlar probleminin həlli sahəsindəki fəaliyyəti. Məmməd Xan Təkinski görkəmli diplomat kimi.

Azərbaycan diplomatiyasının 1919-cu ilin yayı üçün əldə etdiyi nəticələr: «Böyük Ermənistan» uğurundakı fitnə-fəsadların Paris konfransındakı davamına qarşı uğurlu mübarizə. Naxçıvanda «erməni idarəçiliyi»nə son qoyulması (VII.1919). General-qubernator X.Sultanovun «Qarabağ problemi»nin həllinə dair baxışları (təklifləri). Dağlıq Qarabağın erməni əhalisi nümayəndələrinin VII qurultayı tərəfindən AXC hökumətinin tanınması (VIII.1919).

Naxçıvan bölgəsi və çevrəsində "Bitərəf zona" / Amerika general-qubernatorluğu yaradılması məsələsi: Haskelin layihələri. AXC hökumətinin mövqeyi. Ermənilərin ABŞ (Haskel) vasitəsilə bölgəni ələ keçirmək planlarının iflası. ABŞ-ın vasitəçiliyi ilə bağlanan Ermənistan-Azərbaycan sazişi (Tiflis, 23.XI.1919): Saziş ərəfəsi ikitərəfli danışıqlar. Tərəflərin ərazi-sərhəd məsələlərinin tənzimlənməsinə dair təklifləri. Sazişin şərtləri və Azərbaycan üçün mənfi nəticələri. Azərbaycan-Ermənistan konfransı (Bakı, 14-21.XII.1919) və onun uğursuzluğu.

Türkiyənin Anadolu ilə Azərbaycanı birləşdirən strateji koridorun (Qarabağ-Zəngəzur-Naxçıvanın) təhlükəsizliyinin təminatına dair tədbirləri (1919-cu ilin sonu - 1920-ci ilin əvvəli).

1920-ci ilin əvvəlində Ermənistanın Azərbaycana hərbi təcavüzünün güclənməsi. Dövlətlərarası "notalar savaşı". Qarabağda Rusiya və Ermənistan tərəfindən təşkil olunan erməni qiyamı. Azərbaycan ordusunun Əsgəran qələbəsinin siyasi nəticələri. Zəngəzurdakı erməni silahlı qüvvələrinin sıxışdırılması. 1920-ci ilin apreli üçün Azərbaycanın ərazi bütövlüyünün təmin olunması.

## 3-cü mövzu
## Azərbaycan Paris (Versal) Sülh konfransında

Sülh konfransına qatılma prosesi: Azərbaycan diplomatiyasının konfransdakı məqsədləri. Konfransa hazırlıq tədbirləri. Nümayəndə heyətinin tərkibi, Onun konfransa qatılmasının əngəllənməsinin dəf olunması sahəsindəki səylər.

Azərbaycan istiqlalının (dövlətçiliyinin) tanınması naminə mübarizə. Konfransdakı ilkin diplomatik addımlar - İngiltərə təmsilçisi L.Malletlə (23.V.1919) və ABŞ nümayəndəsi Q.Morqentau (28.V.1919) ilə görüşlər. Azərbaycan Sülh nümayəndəliyinin ABŞ prezidenti V.Vilson tərəfindən qəbulu (28.V.1919). Nümayəndəliyin qaldırdığı məsələlər və irəli sürdüyü tələblər. V.Vilsonun mövqeyi. «Parisdəki Sülh konfransına Qafqaz Azərbaycanı Sülb nümayəndəliyinin tələbləri» sənədi (Memorandumu).

«Yeddilər»in Bəyannaməsi (17.VI.1919), «Üçlər»in notası (23.VI.1919) və Azərbaycanın tələbləri.

Qatı «bölünməz Rusiya»çılara (Fransa, İtaliya) bu məsələdə görüntü yaradanlar (İngiltərə, ABŞ) arasındakı fikir ayrılıqlarından faydalanmaq cəhdləri.

«Böyük Ermənistan» uğrundakı fitnə-fəsadların konfransdakı davamına qarşı mübarizə: Ermənistanın Sülh konfransından tələbləri Azərbaycana qarşı ərazi iddiaları. Ermənistan nümayəndə heyətinin konfransa Memorandumu və böyük dövlətlərin başçılarından L.Corcla (İngiltərə) Orlando və Nittinin (İtaliya) mövqeləri. Ermənilərin ərazi iddialarının Azərbaycan diplomatiyası tərəfindən dəf olunması. Ə.Topçubaşının Sülh konfransının sədrinə və müttəfiqlərin nümayəndələrinə etiraz notası (16/19.VIII.1919). Ə.Topçubaşının «Paris məktubları».

İranın AXC-yə ərazi iddiaları və onların dəf olunması: M.Ə.Rəsulzadənin AXC XİN-i M.H.Hacinskiyə diplomatik məktubları (2 və 6.IX.1918). Fars diplomatiyasının Sülh



konfransına Memorandumu – İranın «öz tarixi torpaqları»nı (Şimali Azərbaycanı) «geri qaytarmaq» cəhdləri. İranın konfransdan tələbləri və onlara dair «dəlilləri». Ə.Topçubaşının İran təmsilçiləri ilə görüşləri. Orta Şərqdə geosiyasi maraqları toqquşan Qərb dövlətlərinin İranın tələblərini rədd etmələri.

Azərbaycan dövlətçiliyinin (istiqlalının) Sülh konfransının Ali Şurası tərəfindən de-fakto tanınması prosesi: Dövlətlərarası ikitərəfli münasibətlərin və Avropa ilə ABŞ-da Azərbaycan lobbilərinin yaradılması səyləri. ABŞ konqresmen-vəkili V.Çendlerlə əlaqələr. Amerikadakı müvəkkilimiz, V.Gendlerin Ə.Topçubaşıya məktub-hesabatları (18.X.1 və 10.XI.1919) və məlumat-təklifləri. Ə.Topçubaşının ona cavab məktubları (7.X.1919 və s.), tapşırıq-tövsiyələri. ABŞ Sülh nümayəndəliyinin üzvlərindən (Morqentau, Bukler) bəhrələnmək cəhdləri.

AXC-nin tanınması işində təbliğatın rolu və yeri məsələləri. Avropa ölkələri və ABŞ-dakı təbliğat fəaliyyətinin əsas vəzifələri və istiqamətləri. AXC XİN-in Xüsusi Təşviqat Şöbəsinin təşkili. Avropa mətbuatı vasitəsi ilə Azərbaycanın təbliğatı. Cenevrədə Azərbaycan Mərkəzinin yaradılması təklifi. Ə.Topçubaşı Qərbdəki təbliğat işimizi axsadan subyektiv səbəblər haqqında. Qərb dövlətləri ilə iqtisadi-ticarət əlaqələrinin qurulması məsələləri. Fransa-Qafqaz Komitəsinin işində iştirak. «Güney Qafqaz respublikaları və Fransa» konfransı (4.X.1919) və AXC diplomatlarının fəaliyyəti. Fransanın sənaye-ticarət dairələri təmsilçilərinin Bakıya missiyası (X.1919) və ikitərəfli əməkdaşlıq. İtaliyanın xüsusi iqtisadi nümayəndə heyətinin Bakıya səfəri. İngiltərənin «Kosmos» şirkəti ilə ilkin saziş.

ABŞ biznesmeni – AXC Sülh nümayəndəliyinin maliyyə işləri üzrə məsləhətçisi M.Robinovla imzalanan müqavilə (IX.1919). M.Robinovun ABŞ ilə Azərbaycan arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə dair tədbirləri: Ə.Topçubaşi - M.Robinov yazışmaları (XI.1919) və onlarda qaldırılan məsələlər. Amerika-Qafqaz Kommersiya Palatasının təşkilinin Azərbaycanın ABŞ ilə iqtisadi-ticarət əlaqələrində rolu.

Ə.Topçubaşi Qərb dövlətləri ilə iqtisadi-ticarət əlaqələrinin qurulması sahəsində Azərbaycanda yol verilən nöqsanlar və onların aradan qaldırılmasına dair tədbirlər haqqında (AXC Baş nazirinə 8-9.VII.1919-cu il tarixli, 8 saylı məktub). Azərbaycanın dövlət başçısının müstəqilliyimizin tanınmasının gerçəkləşdirilməsi üçün zəruri saydığı həlledici məsələ və məqamlar.

1919-cu ilin payızında beynəlxalq şəraitdəki köklü dəyişikliklər dönüş səciyyəli proseslər və onların AXC-nin tanınmasına təsiri. L.Corcun İngiltərə parlamentinin icmalar palatasındakı nitqi (17.XI.1919) və qənaətləri. Fransız Koloniyaları Liqası siyasət və xarici əlaqələr bölməsinin qətnaməsi və onun sədri P.Burdarinin Ə.Topçubaşıya məktubu (17.XI.1919). İngiltərə diplomatiyasının Rusiya ilə əlaqədar nəzərə aldığı amillər (məqamlar). L.Corcun ABŞ dövlət katibinin müavini Polkla görüşündə (XI 1919) yeni yaranan dövlətlərin (AXC-nin də) tanınması məsələsinin müzakirəsi. İngiltərə Baş naziri əleyhinə erməni təbliğatı - Azərbaycanın timsalında «Kiçik Türkiyə» yaratmaq ittihamı. Antanta dövlətləri Baş nazirlərinin görüşü (London,XII.1919) və ingilis parlamentarisi Makinderin Qafqaza missiyasının «Üçlü blok» (AXC+GR+Denikin) təklifinin uğursuzluğu. Ə.Topçubaşının Denikinlə bağlı AXC hökumətinə tövsiyələri.

AXC-nin Millətlər Cəmiyyətinə qəbulu sahəsində göstərilən səylər (xüsusi Memorandum – XII.1919). Sülh konfransı Ali Şuranın Ke d'Orse müşavirəsindəki (10-11.I.1920) müzakirələr və təkliflər. AXC-nin de-fakto tanınmasına dair tarixi qərar (11.1.1920) və digər böyük dövlətlərin mövqeləri. ABŞ-ın mövqeyinə dair mülahizələr. Müttəfiqlər tərəfindən tanınan (19.1.1920) Ermənistana ABŞ-ın «de-fakto bəyanilmə hədiyyəsi» (23. IV. 1920).

Azərbaycanın de-fakto tanınmasına dair qərarın Ə.Topçubaşıya təqdim olunması (15.1.1920). Sülh konfransı Ali Şurasının yüksək səviyyəli toplantısı (19.1.1920) və «Transqafqaz respublikalarına yardım haqqında» Memorandumla əlaqədar mübahisələr. Ə.Topçubaşının DR-in də de-fakto tanınmasına dair təklifi. AXC hökumətinin Sülh konfransının Ali Şurasına rəsmi Memorandumu.

AXC-nin Paris Sülh konfransındakı nümayəndəliyinin fəaliyyətinin nəticələri. AXC hökumətinin Sülh nümayəndəliyinin ləğvi və Qərbi Avropa dövlətlərində, ABŞ-da səfirliklərin yaradılması barədə qərarı (5.III.1920). AXC Sülh nümayəndəliyi üzvlərinin taleyi.

## 4-cü mövzu
## Azərbaycan-Rusiya münasibətləri və Aprel işğalı

AXC-nin süqutunu şərtləndirən xarici amillər: Rusiyanın işğalçılıq siyasəti və hərbi təcavüzü. "Böyük Ermənistanın bərpası" sahəsindəki diplomatik-hərbi cəhdlər. Qərb dövlətlərinin ikili siyasəti. Türkiyənin yardım göstərə bilməməsi.

AXC-Denikin Rusiyası münasibətləri: L.Biçeraxovun qurama «Qafqaz-Xəzər hökuməti» Azərbaycanda Denikin siyasətinin əsas aləti kimi. Rusiyanın Dağlılar Respublikası ilə AXC arasında ərazi-sərhəd mübahisələri yaratmaq cəhdləri. Azərbaycan əleyhinə Denikin-Andranik hərbi əməkdaşlığı.

AXC hökumətinin Denikin təhlükəsini dəf etmək sahəsindəki diplomatik tədbirləri: Dağlılar Respublikası ilə ilkin saziş (25.IX.1918) və müqavilə (28.XI.1919). Gürcüstanla hərbi-müdafiə müqaviləsi (16.VI.1919). Denikin-Azərbaycan sazişinin hazırlanmasına dair danışıqlarda (VIII.1919) toxunulan problemlər, gəlinən nəticələr və çıxarılan qərarlar. Paris Sülh konfransında Denikin diplomatiyası ilə çəkişmələr. Denikinin Azərbaycan və Gürcüstana iqtisadi blokada elan etməsi (19.XI.1919). Qafqazın siyasi problemlərinin həllinə Antanta-Denikin yanaşmasındakı fərqli məqamlar. Azərbaycan istiqlalının Denikin tərəfindən gecikmiş tanınması (11.1920). Onun təmsilçisi Kovalyovun Bakıya uğursuz missiyası. Denikinin

istefası (4.VI.1920) və AXC – «Könüllü Ordu» münasibətlərinin sona yetməsi.

AXC-Sovet Rusiyası münasibətləri: Leninin Bakı nefti ilə bağlı Stalinə teleqramı (30.VI.1918). Bolşevik Rusiyasının Qafqazdakı zərbə qüvvəsi sayılan Bakı Kommunasının antiazərbaycan siyasəti və onun ləğvi. Sovet Rusiyası ilə İran arasında Azərbaycana qarşı siyasi diplomatik sövdələşmə cəhdləri (VII.1918). Azərbaycan diplomatiyasının Sovet Rusiyası ilə bərabərhüquqlu münasibətlər qurmaq səyləri. M.Ə.Rəsulzadənin AXC hökumətinə İstanbuldan yolladığı məktublarda və parlamentin açılışındakı nitqində (7.XII. 1918) qaldırdığı məsələlər.

Sovet Rusiyasının Bakının azad edilməsi ilə bağlı rahatsızlığı. Brest-Lilovsk müqaviləsinə Əlavə («Bakı sazişi», 27.VIII. 1918). Sovet Rusiyasının Xalq Xarici İşlər komissarı (XXİK) G.Çiçerinin Almaniya (21.IX.1918) və Osmanlı (10.X.1918) hökumətlərinə notaları. Orlovun iqtisadi missiyası. Bolşevik Rusiyasının Azərbaycandakı plasdarmının – Muğan Sovet Respublikasının (IV-VII.1919) ləğvi.

Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına dair ideoloji-hərbi hazırlıq tədbirləri: N.Nərimanovun N.Yusifbəyliyə məktubu (16.VII.1919), Qafqazın fəhlə və kəndlilərinə müraciəti (20.VII.1919). G.Çiçerinlə N.Nərimanovun Azərbaycan, Dağıstan və Gürcüstanın fəhlə-kəndlilərinə müraciəti (4.X.1919). Sinfi-ideoloji bazanın (AK(b)P-nin) yaradılması və onun MK-nın AXC-nin Sovet Rusiyası tərəfindən tanınması əleyhinə Moskvaya müraciəti (17.11.1920).

Yenidən işğalı ərəfəsində Azərbaycanın beynəlxalq durumu: G.Çiçerinin Azərbaycanı Rusiyadaxili hərbi qarşıdurmaya qatmaq cəhdləri. Çiçerinlə Xoyski arasında notalar mübadiləsi. Leninin Bakının alınmasına dair Qafqaz Cəbhəsinin İnqilabi-Hərbi Şurasına əmr-teleqramı (17.III.1920). Sovet Rusiyası və ermənilərin Azərbaycan dövlətçiliyinə qarşı növbəti qəsdi – Qarabağ qiyamının yatırılması (III.1920). Sovet Rusiyası Qafqaz cəbhəsi komandanlığının «Bakıya hücum və Azərbaycanın azad edilməsi haqqında» 490 saylı (Petrovsk, 21.IV. 1920) direktiv. 5969/C saylı (Rostov, 23.IV.1920) direktiv və 52 saylı əmr (Dərbənd, 25.IV.1920). Bakı bolşevikləri təmsilçilərinin (A.Mikoyan) XI ordu hissələrinə «dəvət missiyası». Ermənistanın Azərbaycana «barışıq» təklifi (26.IV.1920).

AXC hökumətində Sovet Rusiyası ilə münasibətlərə dair iki xətt (M.H.Hacınski və Yusifbəyli-Xoyski). Azərbaycanın Rusiya tərəfindən yenidən işğalı. Azərbaycan İnqilab Komitəsinin beynəlmiləl hərbi «yardım» üçün Sovet Rusiyasına müraciəti (28.IV.1920). AXC parlamentinin hakimiyyətin təhvili ilə bağlı şərtləri. İşğalın ilkin siyasi nəticələri.

Böyük-qonşu dövlətlərin Azərbaycan dövlətçiliyinin itirilməsi təhlükəsi və süqutuna münasibəti: Sovet Rusiyası tərəfindən işğal olunması təhlükəsi ilə əlaqədar Azərbaycanın Qərbin yardımına ehtiyacı. Müttəfiqlərin Qafqaza (Azərbaycana) hərbi yardım göstərilməsi məsələsinə münasibətlərindəki fərqli yanaşmalar. AXC Sülh nümayəndəliyinin Antanta Ali Şurasının London və San-Remo konfranslarına (sessiyalarına) qatılmasındakı maraq və istəklər. London sessiyasının (II-III.1920) «Rusiyada Müttəfiqlərin siyasəti» Memorandumu (24.11.1920) və AXC diplomatiyasının mövqeyi. London konfransında «türk məsələsi», «Batum problemi» və Azərbaycanın maraqları. Müttəfiqlərin təmsilçilərinin Paris müşavirəsindəki (13,15-16.IV.1920) müzakirələr və Ə.Topçubaşının nəzər nöqtəsi. Antanta Ali Şurasının San-Remo konfransında (İtaliya, 1920.IV.1920) diplomatik çəkişmələr və onların Azərbaycan üçün nəticələri.

Azərbaycan istiqlalının itirilməsinin Antanta dövlətləri tərəfindən sükutla qarşılanmasının səbəbləri. Parçalanmaq və istiqlalını itirmək təhlükəsi ilə üzləşən Türkiyənin Azərbaycan dövlətçiliyinin süqutu ilə razılaşmağa məcbur olması. AXC-nin süqutunda «türk amili»nin roluna dair baxış və mövqelər. Gürcüstanın Azərbaycan dövlətçiliyinin itirilməsi ilə bağlı

rahatsızlığı və AXC rəhbərliyinə ittihamları. AXC-nin süqutunun İranı qane etməsi.

* * *

AXC xarici siyasətinin uğurları və dərsləri. Azərbaycan diplomatiyasının çoxəsrlik tarixi təcrübəsinin (habelə AXC-nin xarici siyasətinin uğurları və dərslərinin) öyrənilməsinin əhəmiyyət və nəzərə alınması məsələləri.

AXC dövrünün görkəmli diplomatları (Ə.Topçubaşı, M.Ə.Rəsulzadə, F.Xoyski, M.Cəfərov, M.Təkinski, A.Ziyadxan, Y.V.Çəmənzəminli, X.Xasməmmədov və b.).

AXC-nin Xarici İşlər nazirləri: M.H.Hacınski (28.V.-6.X.1918), Ə.Topçubaşı (6.X-26.XII.1918), F.Xoyski (26.XII.1918-14.III.1919; 24.XII.1919-27.IV.1920), M.Y.Cəfərov (14.III-22.XII.1919).

## 5-ci mövzu
## Formal müstəqillik dövründə Azərbaycanın beynəlxalq durumu
*(aprel 1920 – dekabr 1922-ci illər)*

«Müstəqil» Sovet Azərbaycanının «xarici siyasəti»nin ideoloji əsasları, prinsipləri və antimilli mahiyyəti. Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığının (XXİK) təşkili (N.Nərimanov, M.D.Hüseynov, L.Andreev).

Beynəlxalq konfranslarda Güney Qafqazdakı geostrateji maraqlar və Azərbaycan nefti uğrunda dövlətlərarası çəkişmələr: Azərbaycan neftinin beynəlxalq siyasətdəki rolu. London konfransında (21.II-14.III.-1921) İngiltərənin Ankara hökumətinə - Türkiyənin Bakı nefti ilə birlikdə bütün Cənubi Qafqazı öz protektoratına götürməsi barədəki təklifi.

Avropa maliyyə-iqtisadi (əslində neft) konfransı (Genuya, 10.IV-19.V.1922): Bakı nefti imtiyazı-konfransın əsl məqsədi kimi. Azərbaycanın konfransa dəvət olunmasına dair fərqli baxışlar. Rusiyanın Qərbə qarşı Sovet respublikalarının blokunu yaratmaq xətti. N.Nərimanovun Sovet nümayəndəliyinin tərkibinə daxil edilməsində (11.II.1922) məqsədlər. Konfransda Sovet respublikalarının mənafelərinin müdafiəsi hüququnun RSFSR-ə verilməsinə dair Moskva protokolu (22.11.1922). Azərbaycan SSR-RSFSR «ittifaqı»na dair sənədin K.Çiçerin tərəfindən konfransa təqdimatı. Amerikan «Standart Oyl» (A.S.Berford) ilə ingilis-holland «Royal Datç» (H.Diterdinq) şirkətləri arasında Bakı nefti uğrunda çəkişmə. Fransa-Belçika neft sindikatının (Pineu) maraqları.

Sovet-alman müqaviləsi (Rapallo, 16.IV.1922) beynəlxalq neft mübarizəsində dönüş mərhələlərindən biridir. Sovet Rusiyasının ikili oyunu və təklifləri. «Standart Oyl»un bolşeviklərlə «Royal Datç»ın yaxınlaşmasını pozması. Konfransın Azərbaycan üçün nəticələri. N.Nərimanovun konfransa dair hesabatı və «Genuya xatirələri». Genuyasonrası-Haaqaərəfəsi neft mücadiləsi. Haaqa konfransında (15.VI-20.VII.1922) Bakı nefti ilə bağlı müzakirələr: M.Litvinovun bəyanatı. Şirkətlərarası («Standart Oyl», «Royal Datç», Fransa-Belçika) ixtilaflar. Sovet təkliflərindən imtina edilməsi. Azərbaycan nefti uğrunda İngiltərə-Amerika rəqabətinin güclənməsi.

Azərbaycan SSR-in RSFSR ilə münasibətlərinin xarakteri. Sovet Rusiyasının «Şərq siyasəti»nin gerçəkləşdirilməsində Azərbaycanın rolu. Azərbaycanın «xarici siyasəti»nin Rusiya tərəfindən müəyyənləşdirilən məqsəd və vəzifələri: Gürcüstan və Ermənistandakı ictimai quruluşların dəyişdirilməsində Sovet Rusiyasına yardımçı olması; Rusiyanın "Şərq siyasəti"ndə vasitəyə (alətə) çevrilən Azərbaycanın "müsəlman Şərqinə pəncərə" açması; Qərblə iqtisadi-maliyyə qarşıdurmasında Rusiyaya üstünlük (fayda) qazandırması. Şərq xalqlarının I qurultayı (Bakı, IX. 1920).

Rusiyanın Azərbaycan dövlətçiliyini və onun müstəqil xarici siyasətini ləğv etmək xətti. Azərbaycanın beynəlxalq aləmdə və dünya siyasətində təcrid edilməsi siyasəti. Onun qonşu və böyük dövlətlərlə əlaqələrinin əngəllənməsi. Diplomatik nümayəndəliklərinin tədricən bağlanması. Azərbaycan SSR ilə

RSFSR arasında hərbi-iqtisadi ittifaqa dair müqavilə (30.IX.1920). Azərbaycan SSR-in Sovet Rusiyasındakı səlahiyyətli nümayəndəliyinin (B.Şahtaxtinski, Ə.Şirvani) fəaliyyəti. Moskva (16.ID.1921) - Qars (13.-X.1921) müqavilələri və Azərbaycan. Sovet Rusiyası - inqilabi Türkiyə-sovet Azərbaycanı ittifaqı məsələsi. Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyəti məsələsinə dair dövlətlərarası razılaşma.

Formal siyasi müstəqillik şəraitində Azərbaycanın qonşu dövlətlərlə münasibətlərindəki problemlər: Azərbaycan-Türkiyə münasibətlərindəki yeni məqamlar. Azərbaycanın Naxçıvan bölgəsindəki Türkiyə silahlı qüvvələri ilə Rusiyanın XI ordusunun hissələri arasındakı münasibətlərin xarakteri və Azərbaycan «rəhbərliyi»nin mövqeyi. Azərbaycanın Türkiyəyə iqtisadi-maliyyə yardımı. Türkiyə diplomatiyası (B.Sami, Y.Kamal, Ə.F.Cebesoy və b.) Azərbaycanın ərazi bütövlüyü uğrundakı çəkişmələrdə. İ.Əbilovun Türkiyədəki diplomatik fəaliyyəti. Ankara hökumətinin Türkiyə ilə Qafqaz respublikaları arasında ikitərəfli müqavilələrin bağlanması təklifinə Azərbaycanın soyuq münasibəti.

Azərbaycan SSR-in İran tərəfindən tanınması (30.V. 1920). Ş.M.Xiyabaninin başçılıq etdiyi "Azadıstan" Milli hökumətinin (VJ-IX. 1920) beynəlxalq əks-sədası və xarici siyasət məsələlərindəki mövqeyi. Azərbaycanın İrandakı diplomatik nümayəndəliyinin (XI.1921) və konsulluqlarının (IV.1922) bağlanması. Güney Qafqaz respublikalarının İrandakı səlahiyyətli nümayəndəliyinin (Ə.Şirvani) təşkili. Azərbaycan-İran münasibətlərindəki əsas problemlər. Rusiya-İran müqaviləsi (26.11.1921) və Azərbaycan SSR.

Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını davam etdirməsi. Azərbaycan XXİK-i ilə Ermənistan XİN-i arasında «notalar savaşı». Sovet diplomatlarının (Çiçerin, Qaraxanyan) tərəflərə "diplomatik tövsiyələri" (IV-VII.1920). AXC-nin Ermənistandakı diplomatik nümayəndəliyinin bağlanması (V.192Q). AK(b)P MK Bürosunun iclaslarında (13 və



15.VII.1920) "Naxçıvan məsələsi"nin müzakirəsi. Azərbaycanın sovet rəhbərliyinin Naxçıvan və digər ərazilərdən imtinası qərarı.

Ermənistan ilə Sovet Rusiyası arasında barışıq-ilkin saziş (10.VIII.1920) və Azərbaycanın ərazi bütövlüyünə qəsd cəhdləri. Müvəqqəti sazişin Antanta diplomatları arasında yaratdığı rahatsızlığın səbəbləri. Rusiyanın vasitəçiliyi ilə Azərbaycan-Ermənistan konfransının keçirilməsinə dair müzakirələr (V-VII.1920). Azərbaycan SSR nümayəndə heyətinin (Dövlətyan - sədr, Mikoyan, Lominadze) İrəvana diplomatik missiyası (VIII.1920).

Rusiyanın Azərbaycan torpaqlarını Ermənistana "bağışlamasına" siyasi-diplomatik hazırlıq: Q.Orconikidzenin "...məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər" tezisi. AK(b)P MK və RK(b)P MK Qafqaz bürolarının birgə 4, 9, 30 noyabr 1920-ci il və Bakı Sovetinin 1 dekabr 1920-ci il tarixli iclasları. «Nərimanovun Bəyanatı» (1.XII1920). RSFSR ilə Sovet Ermənistanı arasındakı hərbi-siyasi sazişin (2.XII.1920) üçüncü maddəsi – Azərbaycanın ərazi bütövlüyünə qəsd.

Zəngəzurun bir (qərb və ya yuxarı) hissəsinin itirilməsi - Ermənistana verilməsi prosesi: Mahalın ermənilərə keçməsinə şərait yaradan beynəlxalq amillər. Bölgə ermənilərinin Tatev «qurultayı» «Azad Sünik hökumətinin qurulması» {25.XII.1920). Rusiya və ermənilərin «Kürdüstan məsələsi» oyunu. Azərbaycanın «qonşu və dost xalqa» - Ermənistana maliyyə yanacaq yardımı. Daşnakların «Aqarak qurultayı» (7.VI.1921). İkinci Tatev «qurultayı» və «Sünik hökuməti»nin Njdenin "Dağlıq Ermənistan hökuməti» («Yeni Ermənistan hökuməti») ilə «əvəzlənməsi» (26.IV.1921). İran ermənilərinin ona yardımı. Zəngəzurun bir (qərb və ya dağlıq) hissəsinin Ermənistana birləşdirilməsinin başa çatması (VII.1921). Aşağı və ya Şərqi (Aran) Zəngəzuru da qəsb etmək cəhdləri. Ermənistanın azərbaycanlı qaçqınların qayıtmalarını əngəlləməsi. Xaricdəki ermənilərin bölgədə məskunlaşdırılması.

14664

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI

Ermənistan inqilab Komitəsinin «Qaçqınlar haqqında» qərarı. (1921). Azərbaycan Sovetləri II qurultayının (IV.1922) Azərbaycan hökumətinə sorğusu.

20-ci illərin əvvəllərindəki beynəlxalq konfrans və müqavilələrdə Naxçıvan məsələsi: Ermənistanın Qərbdən «üz döndərməsi» görüntüsü . Türkiyəyə meyllənərək çağırışları. Gümrü (Aleksandropol) müqaviləsi (2.XII.1920) və Azərbaycanın Naxçıvan mahalının ərazi mənsubiyyəti məsələsi (2, 10 və 12-ci maddələr). Türkiyə Şərq cəbhəsi-Türk Qırmızı dəstəsinin Naxçıvan İnqilab Komitəsi ilə münasibətlərindəki gərginlik. Ermənistan İnqilab Komitəsinin Naxçıvana dair bəyanatları (26 və 28.XII.1920). Ankara hökumətinin XİN-i (Bəkir Səmi bəy) ilə RSFSR XXİK-i (Çiçerin) arasındakı danışıqlarda (VII-VIII.I920) Naxçıvan məsələsinin müzakirəsi. Atatürk: «Naxçıvan-türk qapısıdır».

Ankara hökumətinin Moskvaya yeni diplomatik (Y.Kamal, Ə.F.Cebesoy, R.Nur) missiyası (II-III.1921). Moskva konfransında-siyasi komissiyada Azərbaycanın torpaq bütövlüyü (Naxçıvan mahalının ərazi mənsubiyyəti) məsələsi ətrafında türk-rus diplomatik çəkişməsi. «Dostluq və qardaşlıq haqqında» RSFSR-Türkiyə (Moskva, 16.III.1921) müqaviləsinin 3-cü maddəsi və I(V) əlavəsi. Moskva və Qars konfransları arasındakı dövrdə Ankara-Moskva-Bakı-Tbilisi-Yerevan diplomatik yazışmaları və notalar mübadiləsi.

Türkiyə və Güney Qafqaz «respublikaları»nın Rusiyanın iştirakı ilə keçirilən Qars konfransı (26.IX-13.X.1921): Azərbaycan SSR-nin konfransdakı nümayəndəliyi (B.Şahtaxtinski və b.). Türkiyə diplomatiyasının Qafqaz «respublikaları» ilə ayrılıqda müqavilələr bağlanmasına dair layihəsi. Güney Qafqaz «respublika»larının Türkiyəyə Memorandumu. Naxçıvan bölgəsinin ərazi mənsubiyyətinə dair yeni mübahisələr və müzakirələr. Qars müqaviləsinin (13.X.1921-ci il) 5, 14, 20-ci maddələri və 3-cü əlavəsi.



Ermənistanın və erməni diasporasının Moskva-Qars müqavilələrinə münasibətindəki fərqli baxışlar.

Millətlər Cəmiyyətinin ermənilərlə bağlı qətnaməsi (VI. 1921). Erməni nümayəndəlikləri və «Ermənistan-Amerika Komitəsi» təmsilçilərinin Hardinq və Brianla görüşü – Türkiyə və Rusiya ermənistanlarının azad edilməsinə dair müzakirələr. Atatürk: «...Erməni məsələsi ən düzgün həllini Qars müqaviləsində tapmışdır». Qars müqaviləsinin təsdiqi məsələsi ətrafında diplomatik çəkişmə. M.Frunze və İ.Əbilovun Atatürklə (25.XII.1921 və 4.I.1922), İ.Əbilovun Türkiyə XİN-i Y.Kamal ilə (26.1.1922) söhbətləri. Müzakirə və çəkişmələrin başlıca predmeti. Güney Qafqaz "respublikaları" – Türkiyə konfransı (II.1922). Konfransdakı Azərbaycan təmsilçiləri: B.Şahtaxtinski və T.Əliyev. Qars müqaviləsinin Azərbaycan SSR tərəfindən təsdiqlənməsi (3.III.1922).

Dağlıq Qarabağın ərazi mənsubiyyətinə dair təkliflər. Məsələnin RK(b)P MK Qafqaz bürosunun plenumunda (4 və 5.VII.1921) müzakirəsi.

Azərbaycan-Gürcüstan münasibətlərinin səciyyəsi. Qarşılıqlı əlaqələrdəki əsas problemlər. Sovetləşdirilməmiş Gürcüstanla münasibətlərin xarakteri. Gürcüstanın sovetləşdirilməsində Azərbaycandan istifadə olunması. Gürcüstan respublikasına müharibə elanı. Ərazi-sərhəd mübahisələri. Ağstafa müqaviləsi (12.VI.1920). Rusiya tərəfindən yenidən işğal olunan Gürcüstanla Azərbaycanın əlaqələri.

## 6-cı mövzu
## Azərbaycan diasporası və siyasi mühacirətinin dövlətçiliyimizin bərpası uğrunda mübarizəsi
*( 20-80-ci illər )*

XX yüzillikdə Azərbaycan diasporası və siyasi mühacirətinin formalaşması mərhələləri. Siyasi mühacirətin təşkilatlanması: Azərbaycan Qurtuluş Komitəsi (1920); Müsavat partiyası-

nın Xarici Ölkələr Bürosu (1922); Azərbaycan Milli Mərkəzi (1924) və s.

20-30-cu illərdə Azərbaycan dövlətçiliyinin bərpası uğrunda siyasi-diplomatik mübarizə və Ümumqafqaz-rus mühacirəti ilə, əməkdaşlıq: Ə.Topçubaşının Spa konfransının (6-16.VII.1920) sədrinə müraciəti. AXC Sülh nümayəndəliyinin Millətlər Cəmiyyətinin rəhbərliyinə Bəyanatı (Paris, 8.IX.1920). Ə.Topçubaşının Millətlər Cəmiyyətinin Ali Məclisində - Assambleyasında (Cenevrə, XI.1920) iştirakı. Qafqazın devrilmiş respublikalarının səlahiyyətli təmsilçilərinin Qafqaz konfederasiyasının təşkilinə dair müzakirələri (8.V, 10.VI, 7.XI.1921). 10 iyun 1921-ci il Bəyannaməsi.

Rusiya və Qafqaz respublikaları təmsilçilərinin ilk yığıncağı (7.VII.1921). Qafqaz respublikaları təmsilçilərinin Fransa prezidenti R.Puankareyə müraciəti (29.I və 23.II.1922). Rus Ümumqafqaz müraciətinin Genuya konfransına dair mövqeyi və ona qatılmaq cəhdləri. Qafqaz respublikaları təmsilçiləri Şurasının toplantılarında (19.1, 9.II, 3.IV, 19.IV, 1922). Genuya konfransı ilə bağlı müzakirələr. Şuranın Genuya konfransındakı Fransa nümayəndəliyi və Puankare üçün məlumatı. Ə.Topçubaşının Genuya konfransına müraciət-notası. Onun Haaqa və Lozanna (20.XI.1922-24.VII.1923) konfranslarına müraciəti. «Qafqaz mühacirləri təşkilatı»na («Qafqaz Birliyi»nə) Azərbaycan mühacirətindəki fərqli baxışlar.

Türkiyədəki siyasi mühacirlərə təzyiqlər məsələsinə dair. Mühacirət daxili (İstanbul-Avropa) ixtilaflar. Azərbaycan istiqlalının itirilməsi ilə bağlı qarşılıqlı ittihamlar.

Milli dövlətlərin yenidən təsisi naminə müştərək antibolşevik mübarizə - «Prometey»in fəaliyyətinin əsas istiqaməti kimi. Onun Varşava qurultayının (31.V-I.VI.1936) qərarı və Millətlər Cəmiyyətinə müraciəti. SSRİ-nin MC üzvlüyünə qəbulu ilə bağlı onun XVIII ümumi toplantısının rəisi S.Lamasa etiraz notası. «Prometey» Birliyi ilə rus siyasi mühacirləri (Kerenski, Milyukov) arasında ixtilaflar. Rusiya



siyasi mühacirətinin Praqa konfransının (1931) qeyri-rusların milli müstəqilliyinə qərəzli yanaşması.

«Qafqaz Konfederasiyası Şurası»na aparan yollar: Ümumqafqaz mühacirətinin ilk birliyi – «Qafqaz Şurası» (Paris, 1921). «Üç + bir» prinsipi ilə yaradılan (1927) Qafqaz respublikaları (Azərbaycan, Gürcüstan, Şimali Qafqaz) və Polşadan ibarət Qafqaz İstiqlal Komitəsi (QİK). Azərbaycanın QİK-dəki təmsilçiləri (M.Ə.Rəsulzadə, M.Y.Mehdiyev). Ümumqafqaz mühacirətinin birliyini əngəlləyən erməniləri QİK-ə cəlb etmək cəhdləri. Qafqaz Konfederasiyası Misaqının (Paktı – Andlaşmasının) imzalanması (Brüssel, 14.VII.1934). Paktın məqsədləri ilə bağlı QİK-in Bəyannaməsi və onun proqram tələbləri. QİK-in konfransı (14-23.II.1935) tərəfindən Qafqaz Konfederasiyası Şurası (QKŞ) yaradılmasının elanı. Konfransın "Qafqaz məsələsi və Rusiya" sənədi. QKŞ-nın vəzifələri. Azərbaycanın QKŞ-dəki səlahiyyətli nümayəndəsi (M.Ə.Rəsulzadə). Ermənilərin QKŞ-yə qatılması (1940).

Faşist Almaniyasının rəhbərliyi ilə Azərbaycanın gələcəyinə dair müzakirələr. Azərbaycanın müstəqilliyinin Almaniya tərəfindən tanınması istiqamətində iş. Azərbaycan legionlarının formalaşdırılması ilə bağlı Almaniya XİN-ə müraciət (XI.1941). Qafqazlı mühacirlərin Şulenburqla Berlin («Adloniada») görüşü (V.1942). Azərbaycanın müstəqilliyinin Almaniya tərəfindən tanınmasına dair danışıqların (X-XI.1942) nəticəsizliyi. Berlində Rozenberqin iştirakı ilə keçirilən Ümumazərbaycan («Kayzerhof») qurultayı (6-9.XI.1943) və onun yekun sənədi. Qurultayda «Milli Birlik Məclisi»nin (F.Düdənginski) təşkili. Berlində Azərbaycan parlamentinin seçilməsi və «Mühacir Azərbaycan hökuməti»nin təşkili (1943, payız – F.Düdənginski).

Dörd Qafqaz Cümhuriyyətinin Qafqazın konfederativ dövlət şəklində qurulacağına dair Almaniya XİN-ə diplomatik notası (22.VIII.1944). «Qafqaz Silahlı Gücü» hərbi birləşməsi (XII.1944). Türkiyə-Almaniya münasibətlərinin müharibə

vəziyyətinə keçməsinin (22.II.1945) Azərbaycan mühacirətinin fəaliyyətinə təsiri. Qafqaz cümhuriyyətlərinin Almaniya tərəfindən gecikmiş tanınması (17.III.1945).

«Azərbaycan Kültür Dərnəyi»nin təşkili (Ankara, 1949). «Amerikan Komitəsi» və rus mühacirətinin onun himayəsi ilə keçirdiyi Füssen (I.1951), Ştutqart (VIII.1951) konfransları, «Rusiya Millətlərinin Qurtuluş Şurası» (RMQŞ) və Azərbaycan mühacirəti. «Visbaden konfransı (2-8.XI.1951) məsələsi». Onun müştərək deklarasiyası (C.Hacıbəyli və Ə.Şeyxülislamov tərəfindən imzalanan) ətrafında azərbaycanlı mühacirlərarası mübahisələr – «Mətbuat müharibəsi». Visbaden anlaşmasının beynəlxalq səviyyədə boykotu cəhdləri.

Qafqaz-Şərqi Avropa və Türküstan siyasi mühacirlərinin Münxen toplantısı (XI.1951) və onun qərarı. Rus və qeyri-rus mühacir təşkilatlarının Münxen toplantısında (X.1952) «Bolşevik Əleyhdarları Koordinasiya Mərkəzi»nin (BƏKM), Mühacir Parlamenti Koordinasiyası Şurasının təşkili. BƏKM-də ixtilaflar. Qafqaz mühacir təşkilatlarının Ümumqafqaz konfransı (Münxen, 11-16.XII.1952). M.Ə.Rəsulzadənin «Ümumi Qafqasiya siyasətinin ana xətləri» mövzusunda çıxışı. Konfransda "Qafqaz İstiqlal Komitəsi – «Ümumqafqaz Mərkəzi»nin yaradılması. BƏKM-də parçalanma (VII.1953) və Paris bloku («Sovetlər Birliyi Millətlərinin Qurtuluş Cəmiyyəti»). M.Ə.Rəsulzadənin ABŞ-a rəsmi səfəri (1953) və Azərbaycan istiqlalının 35-ci ildönümü münasibəti ilə xalqımıza müraciəti.

Azərbaycan siyasi mühacirətinin Sovetlər Birliyindəki «mülayimləşmə» və «yenidənqurma»dan bəhrələnmək səyləri: Azərbaycan Kültür Dərnəyinin fəaliyyəti. Mühacirətin dünya birliyinin diqqətini Azərbaycanın problemlərinə cəlb etmək cəhdləri. Paris Blokunun fəaliyyətində iştirakın zəifləməsi. Onun X konfransının (Münxen, X.1973) qərarı. Milli Mərkəz Başqanlarının (Azərbaycan – Ə.V.Yurdsevər) islam dövlətləri XİN-lərinin konfransına (İstanbul, 1976) müraciətnaməsi.



Azərbaycan Kültür Dərnəyinin İslam Konfransı Təşkilatı (İKT) Kasablanka zirvə toplantısına (I.1986) teleqramı.

Güney Azərbaycan mühacirəti İran islam inqilabından sonrakı dövrdə. Sovet-Türkiyə münasibətlərinin rəvanlaşmasının Azərbaycan siyasi mühacirətinin fəaliyyətinə təsiri. SSRİ-də milli hərəkatını başlanması (80-ci illərin ikinci yarısı) və Azərbaycan siyasi mühacirəti. Ermənilərin Türkiyə və Azərbaycan əleyhinə ideoloji-siyasi təbliğatına («erməni genosidi» və s.) qarşı mübarizə.

## 7-ci mövzu
## Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması

Azərbaycanın müstəqilliyinin bərpa olunması (1991, 18 oktyabr) və dünya dövlətləri tərəfindən tanınması; BMT üzvlüyünə qəbul olunması (2 mart 1992) və beynəlxalq münasibətlərin subyektinə çevrilməsi; Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması və müstəqil xarici siyasət yürütməsini çətinləşdirən daxili və xarici faktorlar; Azərbaycanın geosiyasi, geoiqtisadi və geostrateji mövqeləri və bunların onun beynəlxalq aləmlə əlaqələrinə təsiri Azərbaycanın strateji inkişaf seçimi və bunun ölkənin beynəlxalq vəziyyətinə təsiri; Azərbaycanın enerji siyasəti və Qərbə inteqrasiya meylləri; Azərbaycanın Şərq-Qərb əlaqələrindəki əlverişli mövqeyi və bundan istifadə cəhdləri Azərbaycanın qlobal iqtisadi, siyasi, təhlükəsizlik problemləri və beynəlxalq təşkilatlarla bu istiqamətdə həyata keçirdiyi siyasət.

## 8-ci mövzu
## Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması və inkişafı

Azərbaycanın xarici siyasətinin əsas vəzifələri və onun reallaşdırılması yolları; xarici siyasətin əsas xüsusiyyətləri və onun xarakteristikası; xarici siyasətin mahiyyəti və prinsipləri; xarici siyasət və beynəlxalq hüquq; Azərbaycanın xarici

siyasətinin əsas mərhələləri və onu səciyyələndirən cəhətləri; xarici siyasətin konstitusiya təminatı, beynəlxalq münasibətlərin reallıqları və ondan yararlanma yolları; Azərbaycanın xarici siyasəti, BMT Nizamnaməsi, ATƏT-in əsas prinsipləri digər beynəlxalq hüquq normaları; Azərbaycanın xarici siyasətinin Heydər Əliyev konsepsiyası və onun həyata keçirilməsi.

Azərbaycanın xarici siyasət istiqamətlərini şərtləndirən amillər; xarici siyasətin əsas istiqamətləri və onların həyata keçirilməsi (Rusiya və MDB ölkələri; Cənubi Qafqazın qonşu dövlətləri; Türkiyə, İran və digər İslam ölkələri; Qərbin aparıcı dövlətləri və ABŞ; Cənub-Şərqi Asiya ölkələri; beynəlxalq və regional təşkilatlar; xüsusi istiqamət kimi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli; Azərbaycanın enerji siyasəti və yeni neft strategiyasının reallaşdırılması; terrorizmə qarşı beynəlxalq mübarizədə iştirak və s.

Xarici siyasət prioritetlərinin müəyyən edilməsi yolları və vasitələri; xarici siyasət prioritetlərinə təsir göstərən amillər; xarici siyasət prioritetlərinin müəyyən edilməsi, açıqlanması və həyata keçirilməsi; xarici siyasət prioritetləri ilə beynəlxalq münasibətlərin reallıqları arasındakı bağlılıq və əlaqə; Azərbaycanın müasir xarici siyasət prioritetləri; daxili və xarici resursların ölkənin ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının və təhlükəsizliyinin təmin edilməsinə yönəldilməsi; xarici aləmin təsir gücünə malik olan bütün aktorları ilə tərəfdaşlıq münasibətlərinin qurulması; ölkənin regional inteqrasiya proseslərində iştirakı və bundan milli maraqlar naminə maksimum istifadə edilməsi; dünyada baş verən transmilli qloballaşma, demokratikləşmə və inteqrasiya proseslərində iştirak; yeni neft strategiyasının həyata keçirilməsi və onun təhlükəsizliyinin təmin olunması; ölkənin iqtisadi təhlükəsizliyinin, manatın sabitliyinin təmin olunması; ərzaq, ekologiya, informasiya, ideoloji və s. asılılığın aradan qaldırılması; Qərbin qabaqcıl və inkişaf etmiş strukturlarına inteqrasiya (iqtisadi, siyasi, təhlükəsizlik, informasiya və s.



sahələrdə); dünya azərbaycanlılarının mənəvi birliyinin təmin edilməsi və qorunması.

Xarici siyasətin daxili və xarici resursları) maddi resurslar – coğrafi, demoqrafik, iqtisadi, hərbi; qeyri-maddi resurslar – siyasi, sosial, reputasiya (imic), ideoloji, mədəni, informasiya, elmi-texniki və təhsil; xarici resurslar - dövlətlərlə, təşkilatlarla münasibətlər, beynəlxalq ictimai rəyə çıxış və ona təsir imkanları, diaspora ilə işin səviyyəsi; xarici siyasət mexanizmlərinin müəyyən edilməsi və həyata keçirilməsi; vəzifələrin, məqsədlərin və onu həll etməyin düzgün strategiyasının və taktikasının hazırlanması; dünya siyasətinin mövcud vəziyyətinin və tendensiyalarının düzgün müəyyənləşdirilməsi və praktik siyasət yürüdülməsi; beynəlxalq maraqlar sisteminə adekvat yanaşma və milli maraqların düzgün qoyulması; xarici siyasət mexanizmlərinin yaradılması və fəaliyyətinin təmin olunması; rəsmi strukturlar – Prezident, Parlament, Xarici İşlər Nazirliyi, digər rəsmi strukturların xarici siyasət fəaliyyətində iştirakı və ümumi koordinasiyası; xarici ölkələrdə diplomatik nümayəndəliklərin və ölkə daxilində xarici nümayəndəliklərin fəaliyyətinin düzgün yönəldilməsi və idarə olunması; xarici və milli institutların, siyasi, ictimai təşkilatların, kütləvi-informasiya vasitələrinin, milli elitanın, milli, dini və vətəndaş cəmiyyəti institutlarının imkanlarından xarici siyasət vəzifələrinin reallaşdırılması işində istifadə edilməsi və s.

## 9-cu mövzu
## Azərbaycanın və Şimali, Mərkəzi və Cənubi Amerika ölkələri

Şimali, Mərkəzi və Cənubi Amerika ölkələri dünya siyasətində; Amerika ölkələrinin əhali, ərazi və digər geosiyasi xarakteristikası.

ABŞ dünyada baş verən siyasi, iqtisadi və hərbi proseslərə təsiretmə gücünə malik, qüdrətli super dövlət kimi; Azərbaycanın ABŞ-la sıx əməkdaşlığını zəruri edən amillər; ABŞ-ın Qafqazda, o cümlədən Azərbaycandakı maraqları və onun reallaş-

dırılması yolları) ABŞ-ın Azərbaycanın müstəqilliyini tanıması (25 dekabr 1991); ABŞ-ın Dövlət katibi Ceyms Beykerin Bakıya səfəri (12 fevral 1992); iki dövlət arasında diplomatik münasibətlərin yaranması; ABŞ-ın Azərbaycanla sıx əlaqələr qurmağa cəhdlər etməsi; ATƏM-in Helsinki sammiti ərəfəsində ABŞ prezidenti birinci C.Buşun Azərbaycan prezidentinə məktubu (iyul 1992); ABŞ-da erməni lobbisinin antiazərbaycan fəaliyyəti və ABŞ Konqresi tərəfindən Azərbaycanın əleyhinə yönəlmiş "Azadlığı müdafiə aktı"na "907-ci düzəliş"in qəbul edilməsi (dekabr 1992); Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin ABŞ prezidenti B.Klintona məktubu (yanvar 1993); ABŞ və Rusiya prezidentlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeləri, ATƏM-in Minsk Konfransının çağırılmasına verilən dəstək (yanvar 1993).

Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlməsindən sonra Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanması (iyun 1993); hər iki dövlət arasında yüksək səviyyəli görüşlər, danışıqlar (1994); «Əsrin müqaviləsi»ndə ABŞ şirkətlərinin rolu; ABŞ-ın təşəbbüsü ilə Budapeştdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü (1994-cü ilin sonu); ATƏM-in Budapeşt sammitində Azərbaycanın mənafeyinə uyğun qərarın qəbul edilməsində ABŞ-ın rolu; faşizmin məhv edilməsinin 50 illiyi ilə əlaqədar Moskva və Parisdə (may 1995) və BMT-nin 50 illiyi ilə bağlı ABŞ-da keçirilən yubiley tədbirlərində (oktyabr 1995) Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ dövlət və hökumət rəhbərləri ilə yüksək səviyyəli danışıqları; ABŞ-Azərbaycan münasibətlərində həlledici dönüş (1996-cı il); yüksək səviyyəli görüşlərin davam etdirilməsi; «Azadlığı Müdafiə aktı»na «907-ci düzəliş»in ləğvi istiqamətində birgə mübarizə; ABŞ konqresmeni C.Vilsonun təşəbbüsü ilə Konqresdə «Azərbaycana bir-başa humanitar yardım göstərilməsi haqqında» Qanun layihəsinin bəyənilməsi və ABŞ prezidenti tərəfindən təsdiqlənməsi (yanvar 1996); ABŞ Konqresinin Nümayəndələr Palatası tərəfindən Azərbaycana qarşı «Porter əlavəsi» adlı sənəd layihəsinin qəbul edilməsi və Senat tərəfindən həmin layihənin rədd edilməsi (iyun-iyul 1996); ABŞ-ın Dövlət Departamenti tərəfindən qondarma «Dağlıq Qarabağ Respublikasında keçirilən prezident seçkisinin pislənilməsi və Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi (oktyabr 1996); Azərbaycanda ABŞ Ticarət Palatasının açılışı (dekabr 1996); «Dan ulduzu» və «Əşrəfi» neft yataqlarının istismarı ilə bağlı bağlanan müqavilələrdə ABŞ-ın «Amoko» və «Yunokal» şirkətlərinin iştirakı; ATƏT-in Lissabon sammitində Azərbaycanın mənafeyinə uyğun qərarların qəbul edilməsində ABŞ-ın rolu (dekabr 1996).

ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələyə - strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyması (1997); Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri (27 iyul - 7 avqust 1997); çoxsaylı görüşlərin, danışıqların və çıxışların Amerika ictimaiyyətinə göstərdiyi müsbət təsir; Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlıq münasibətlərinin əsas bazasını təşkil edən və şərtləndirən enerji sahəsində əməkdaşlıq; ABŞ-ın «Şevron», «Ekson», «Mobil» və «Amoko» şirkətləri ilə yeni neft müqavilələrinin imzalanması (avqust 1997); Amerika-Azərbaycan Ticarət Palatasının yaradılması; ABŞ prezidenti C.Buşun Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı səyləri; Ki-Vest danışıqları (2001-ci il); ABŞ-ın Azərbaycanda mövqelərinin möhkəmlənməsinə Rusiyanın qısqanclığı; 11 sentyabr 2001-ci ildə ABŞ-da törədilmiş terror hadisələrinin Azərbaycan-ABŞ münasibətlərinə təsiri; beynəlxalq terrorizmə qarşı ABŞ-Azərbaycan əməkdaşlığı; «907-ci düzəliş»in ləğv olunması istiqamətindəki səylərin davam etdirilməsi; beynəlxalq konfrans və tədbirlərdə Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ prezidenti C.Buşla görüşlərinin Azərbaycan ilə ABŞ arasında münasibətlərin daha da inkişafına müsbət təsiri; Azərbaycan ilə ABŞ arasındakı münasibətlərin hazırkı durumu və strateji tərəfdaşlıq əlaqələrinin əsas istiqamətləri.

Kanadanın Azərbaycanın müstəqilliyini tanıması və iki ölkə arasında diplomatik əlaqələrin qurulması; II Dünya müharibəsinin qurtarmasının 50 illiyi münasibətilə (Fransa) keçirilən toplantıda Azərbaycan Prezidenti H.Əliyevin Kanadanın baş naziri Jan Kretyen ilə görüşü (8 may 1995); Kanadada Azərbaycan səfirliyinin fəaliyyətə başlaması (1 sentyabr 2004); beynəlxalq təşkilatlarda Kanada ilə əməkdaşlıq; Kanadanın Azərbaycanla münasibətlərə göstərdiyi maraq və bu istiqamətdə həyata keçirilən tədbirlər.

Mərkəzi və Cənubi Amerika ölkələri ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulması; beynəlxalq səviyyəli konfrans və tədbirlərdə Azərbaycanın dövlət və hökumət rəhbərlərinin Mərkəzi və Cənubi Amerika ölkələrinin dövlət və hökumət rəhbərləri ilə görüşləri; beynəlxalq təşkilatlarda əməkdaşlıq; Mərkəzi və Cənubi Amerika ölkələrinin Azərbaycanla əməkdaşlığa meyl göstərməsi və bu istiqamətdə göstərdiyi cəhdlər.

## 10-cu mövzu
## Azərbaycan və Avropa ölkələri

Avropa qitəsi müasir dünya siyasətində; ərazisi, əhalisi və digər geosiyasi xarakteristikası; Qərbi və Şərqi Avropa ölkələri və Azərbaycanın xarici siyasəti; Avropa ölkələrinin vahid xarici siyasət xətti və müasir beynəlxalq münasibətlərdə iştirakı; Azərbaycanın Qərbi Avropa ölkələri ilə əlaqələri Azərbaycanın xarici siyasətində Qərbi Avropa dövlətləri ilə münasibətlərin əhəmiyyəti və əsas xarakterik xüsusiyyətləri.

Azərbaycan-Fransa münasibətlərini şərtləndirən əsas amillər; Fransanın Azərbaycanın müstəqilliyini tanıması (3 yanvar 1992); diplomatik münasibətlərin yaranması (21 fevral 1992); 1991-1993-cü illərdə ikitərəfli münasibətlərdə əməli addımların olmaması; Azərbaycan-Fransa münasibətlərinə erməni lobbisinin mənfi təsiri Heydər Əliyevin Azərbaycanda



hakimiyyətə gəlişindən sonra Fransa ilə münasibətlərin inkişafında yeni mərhələnin başlanması; Azərbaycan Prezidentinin Fransaya rəsmi səfəri (21-23 dekabr 1993), «Dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşma haqqında» müqavilənin imzalanması; Fransada Azərbaycan haqqında formalaşdırılmış ictimai rəyin dəyişdirilməsi istiqamətində mühüm addımlar; iki dövlət arasında bağlanmış müqavilə və sazişlər; Azərbaycan «Paris Xartiyası»nın üzvü kimi; Fransada Azərbaycan səfirliyinin açılması (20 oktyabr 1994); Fransada Azərbaycan haqqında informasiya blokadasının yarılması; Azərbaycan ilə Fransa arasındakı münasibətlərin yüksələn xətt üzrə inkişafı; hər iki ölkə prezidentlərinin çoxsaylı görüşlərinin ikitərəfli münasibətlərin inkişafına müsbət təsiri; Azərbaycan-Fransa texniki-iqtisadi əməkdaşlığı; Azərbaycana investisiya qoyma imkanları; Paris beynəlxalq konfransı (dekabr 1995); Bakıda keçirilən «Xəzərneftqaz» sərgilərində Fransa şirkətlərinin rolu; Fransanın «Elf-Akiten» şirkəti «Şahdəniz» neft yatağının istismarında iştirakçı kimi; Fransa ilə Azərbaycan arasında mədəni əməkdaşlıq; «Mədəni əlaqələr haqqında birgə Bəyannamə» (14 yanvar 1997); Azərbaycanın ərazi bütövlüyünün saxlanması məsələsində Fransanın mövqeyi; Fransanın ATƏT-in həmsədrlərindən biri kimi Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasındakı fəaliyyəti; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya ilk rəsmi səfəri (22-23 yanvar 2004) və iki ölkə arasındakı ikitərəfli əlaqələrin inkişaf perspektivləri; Fransa ilə Azərbaycan arasındakı münasibətlərin mövcud durumu.

Böyük Britaniyanın dünya siyasətinin formalaşmasındakı rolu, siyasi və iqtisadi təsiretmə gücü; Böyük Britaniyanın Qafqazdakı maraqları; Böyük Britaniyanı Azərbaycanla əməkdaşlığa cəlb edən amillər; Böyük Britaniyanın Azərbaycanın müstəqilliyini tanıması (31 dekabr 1991) və diplomatik münasibətlərin qurulması (11 mart 1992); 1992-1993-cü illərdə Böyük Britaniyanın bir sıra hökumət və iş

adamlarının Azərbaycana səfərləri; Böyük Britaniyanın baş naziri Marqaret Tetçerin Bakıya səfəri (7-8 sentyabr 1992); Böyük Britaniya ilə Azərbaycan arasında münasibətlərin inkişafında yeni mərhələnin başlanması (1993-cü ilin ikinci yarısı); Prezident H.Əliyevin Böyük Britaniyaya rəsmi səfəri (22-24 fevral 1994); iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin əsasının qoyulması və bu əməkdaşlığın hüquqi-normativ bazasının yaradılması; Londonda Azərbaycan səfirliyinin açılması (30 mart 1994); dövlət və hökumət rəhbərlərinin intensiv görüşləri; İngiltərə parlamentinin Azərbaycan qrupunun fəaliyyəti (1994); Azərbaycan Prezidenti H.Əliyevin 1995-ci ildəki Londona yeni səfərinin iki ölkə arasındakı əməkdaşlığın güclənməsinə təsiri; iqtisadi-mədəni sahədə əməkdaşlıq; «Əsrin müqaviləsi»ndə Böyük Britaniya şirkətlərinin iştirakı; Londonda «Azərbaycanda investisiya imkanları» mövzusunda beynəlxalq konfransın keçirilməsi (23 noyabr - 3 dekabr 1995); Azərbaycanın dünyaya inteqrasiya olunmasında Böyük Britaniyanın rolu; İngiltərə xarici işlər naziri M.Rifkindin Bakıya səfəri (3-4 yanvar 1996); «Xəzərneftqaz» sərgilərində ingilis şirkətlərinin iştirakı; Londonda Azərbaycan mədəniyyəti mərkəzinin yaradılması (sentyabr 1997); Azərbaycan Prezidenti Heydər Əliyevin Böyük Britaniyaya səfərlərinin (1997-2001) ikitərəfli əlaqələrin inkişafına müsbət təsiri; parlamentlərarası əlaqələr; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Böyük Britaniyanın mövqeyi; iqtisadi-siyasi əməkdaşlığın daha da güclənməsi; Azərbaycan ilə Böyük Britaniya arasındakı münasibətlərin hazırkı durumu.

Almaniyanın dünya siyasətində yeri və rolu; Almaniya ilə Azərbaycanı bir-biri ilə sıx əməkdaşlığa cəlb edən amillər; Almaniyanın Azərbaycanın müstəqilliyini tanıması (12 dekabr 1991) və diplomatik münasibətlərin yaradılması (20 fevral 1992); Almaniya-Azərbaycan münasibətləri yeni müstəvidə (1993-cü ilin ikinci yarısından sonrakı dövr; Almaniyanın



Azərbaycanda səfirliyinin fəaliyyətə başlaması (1993-cü il); Azərbaycan-Almaniya texniki-iqtisadi əlaqələrinin güclənməsi; birgə Azərbaycan-Almaniya müəssisələrinin yaranması və fəaliyyəti; Ermənistan-Azərbaycan münaqişəsinə Almaniyanın ədalətli mövqeyi; beynəlxalq və regional təşkilatlarda birgə əməkdaşlıq; AFR-də türk və Azərbaycan diasporasının lobbiçilik fəaliyyəti; Almaniyanın Azərbaycana humanitar yardımı; AFR XİN-i K.Kinkelin Bakı səfəri (21-22 dekabr 1995-ci il); Azərbaycan Prezidenti Heydər Əliyevin Almaniyaya rəsmi səfəri (1-4 iyul 1996) zamanı ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün zəruri hüquqi-siyasi sənədlərin imzalanması; parlamentlərarası əlaqələr; Bundestaqın Almaniya-Qafqaz qrupu; İqtisadi-mədəni əməkdaşlığın getdikcə güclənməsi; Almaniyadakı Azərbaycan Mədəniyyət Mərkəzləri Konfederasiyasının yaradılması; Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfərinin (24-26 avqust 2004) ikitərəfli əlaqələrin daha da inkişafına təsiri; Almaniya ilə Azərbaycan arasındakı münasibətlərin hazırkı durumu.

İtaliya-Azərbaycan münasibətlərini şərtləndirən amillər; İtaliya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (8 may 1992); İtaliya şirkətlərinin Azərbaycandakı fəaliyyəti; Azərbaycan Prezidenti Heydər Əliyevin İtaliyaya rəsmi səfəri (25-28 sentyabr 1997) və hər iki dövlət arasında ikitərəfli münasibətləri tənzimləyən hüquqi-normativ sənədlərin imzalanması; iqtisadi-mədəni əməkdaşlıq; neft kontraktlarında İtaliya şirkətinin iştirakı; Azərbaycanın xarici ticarət əməliyyatlarında İtaliyanın yeri; parlamentlərarası əlaqələr; ARDNŞ ilə İtaliyanın «Eni» korporasiyası arasında yeni neft müqaviləsinin imzalanması; İtaliyada Azərbaycan səfirliyinin açılması (2003); İtaliya-Azərbaycan münasibətlərinin hazırkı durumu.

Azərbaycan-Yunanıstan münasibətlərini şərtləndirən amillər; Yunanıstanın Azərbaycanın müstəqilliyini tanıması və iki ölkə arasında diplomatik münasibətlərin qurulması;

Yunanıstanın Azərbaycanda səfirliyinin açılması (1993); iki ölkə arasında mədəniyyət mübadiləsi proqramının həyata keçirilməsi (1994); Nyu-Yorkda BMT-nin 50 illiyi münasibətilə keçirilən toplantıda Azərbaycan Prezidenti H.Əliyevin Yunanıstanın prezidenti Konstantinos Stefanopoulosla görüşü (21 oktyabr 1995); Yunanıstanın xarici işlər naziri Teodoros Panqalosun Azərbaycana rəsmi səfərinin (11 aprel 1997) ikitərəfli münasibətlərin inkişafına müsbət təsiri; Yunanıstan prezidenti Konstantinos Stefanopoulosun Azərbaycana rəsmi səfəri (21-22 iyun 2004) və Azərbaycanla Yunanıstan arasında ikitərəfli münasibətlərin gücləndirilməsi üçün bir sıra müqavilələrin imzalanması; Bakı-Ərzurum qaz kəmərinin Azərbaycan-Yunanıstan münasibətlərinə təsiri; Bakı Slavyan Universitetində «Müasir yunan dili və mədəniyyəti mərkəzi»nin açılması (iyun 2004); Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstanda keçirilən yay Olimpiadasının açılışında iştirakı və Yunanıstanın dövlət və hökumət rəhbərləri ilə görüşü.

Azərbaycan-Belçika əməkdaşlığını şərtləndirən əsas amillər (bir sıra mühüm beynəlxalq və regional təşkilatların mənzil-qərargahının Belçikada yerləşməsi, Belçikanın dünyaya geniş informasiya çıxışına malik olması və s.); Belçika ilə Azərbaycan arasında diplomatik münasibətlərin yaradılması (19 fevral 1992); Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra iki ölkə arasındakı münasibətlərdə canlanma; NATO ilə «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmaq üçün Azərbaycan Prezidenti Heydər Əliyevin Belçikaya səfərləri (3-5 may 1994, 17-18 iyun 1995, 22-23 aprel 1996); Azərbaycanda Belçika səfirliyinin, Belçikada isə Azərbaycan səfirliyinin fəaliyyətə başlaması (fevral-mart 1995); Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının dəvəti ilə Brüsselə səfəri zamanı Belçika Krallığının baş naziri Gi Verhofstadla görüşü və iki ölkə arasında bir sıra sənədlərin imzalanması (18 may 2004); Azərbaycanla Belçika arasındakı münasibətlərin hazırkı durumu.



Azərbaycanın Avstriya ilə münasibətlərini şərtləndirən əsas amillər (Avstriyada bir sıra beynəlxalq təşkilatların mənzil-qərargahlarının yerləşməsi və s.); Azərbaycanın Avropaya inteqrasiya prosesində Avstriyanın rolu; Avstriya ilə diplomatik münasibətlərin qurulması (20 fevral 1992); Azərbaycan Prezidenti H.Əliyevin Avstriyaya səfərləri; Azərbaycan-Avstriya münasibətlərinin hazırkı durumu.

Azərbaycanla Norveç arasında əməkdaşlığı şərtləndirən amillər; Azərbaycanla Norveç arasında diplomatik münasibətlərin qurulması (5 iyun 1992); Norveçin neft hasilatı sahəsindəki uğurları və bu ölkəni təmsil edən neft şirkətlərinin Azərbaycandakı fəaliyyəti; «Əsrin müqaviləsi»ndə Norveç şirkətlərinin payı; Norveçin yüksək səviyyəli nümayəndə heyətinin Bakıya səfərləri (1992-1994); iki ölkə arasında energetika sahəsində əmək-daşlıq haqqında memorandumun imzalanması (noyabr 1994) və Norveç-Azərbaycan münasibətlərində canlanma; Azərbaycan Prezidenti Heydər Əliyevin Norveçə səfəri (24-26 aprel 1996); Azərbaycan-Norveç texniki-iqtisadi əməkdaşlığının inkişafı; ARDNŞ ilə Norveçin «Statoyl» neft şirkəti arasında yeni sazişin imzalanması (25 aprel 1996); iqtisadi-siyasi əməkdaşlığın daha da güclənməsi; Azərbaycan ilə Norveç arasındakı münasibətlərin hazırkı durumu.

Azərbaycanla İsveç arasında əməkdaşlığı şərtləndirən amillər; Azərbaycanla İsveç arasında diplomatik münasibətlərin qurulması; İsveçin maliyyə naziri, federal müşavir Kaspar Vellinqin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri (9 may 1997); İsveçin Azərbaycan qaçqın və köçkünlərinə humanitar yardımı; Beynəlxalq konfrans və tədbirlərdə dövlət və hökumət rəhbərlərinin görüşləri.

Kopenhagendə BMT-nin keçirdiyi «Sosial inkişaf naminə» Ümumdünya konqresində Azərbaycan Prezidenti H.Əliyevin Danimarka kraliçası II Marqaret ilə görüşü (11 mart 1995); Danimarkanın xarici işlər naziri Pyer Stiq Mollerin Bakıya rəsmi səfəri (23 avqust 2004); Danimarkanın

Azərbaycan qaçqınlarına yardımı (son 711 ərzində 14 milyon dollar həcmində).

Azərbaycanla Finlandiya arasında əməkdaşlığı şərtləndirən amillər; Finlandiyanın ATƏT-in Minsk qrupunun üzvü kimi fəaliyyəti Azərbaycan Prezidenti H.Əliyevin ABŞ-da keçirilən beynəlxalq tədbirdə Finlandiya prezidenti Mahti Axtisari ilə görüşü (22 oktyabr 1995); Finlandiya xarici işlər naziri Erkki Tuotioyyanin Bakıya səfəri (4 oktyabr 2004) və ikitərəfli əlaqələrin inkişaf perspektivləri.

Azərbaycanın İspaniya və Portuqaliya ilə münasibətlərini şərtləndirən amillər; İspaniya (11 fevral 1992) və Portuqaliya (4 avqust 1992) ilə diplomatik münasibətlərin qurulması; ATƏT-in Lissabon sammitində Azərbaycan Prezidenti Heydər Əliyevin Portuqaliya prezidenti ilə görüşlər; Beynəlxalq konfrans və tədbirlərdə İspaniya və Portuqaliya rəhbərləri ilə Azərbaycan prezidentinin görüşləri.

Mərkəzi və Şərqi Avropa dövlətləri ilə Azərbaycan arasındakı münasibətləri şərtləndirən amillər; Şərqi Avropa dövlətlərinin Azərbaycanla birgə uzun müddət eyni siyasi-ideoloji-iqtisadi sistemə mənsub olması, müstəqillik əldə etdikdən sonra həm bu dövlətlərin, həm də Azərbaycanın oxşar problemlərlə üzləşməsi, Avropaya inteqrasiya prosesində Mərkəzi və Şərqi Avropa dövlətlərinin təcrübəsindən istifadə və s.; diplomatik münasibətlərin yaranması (Polşa – 21 fevral 1992, Bolqarıstan – 5 iyun 1992, Rumıniya – 21 iyun 1992, Macarıstan – 27 noyabr 1992, Çexiya – 29 yanvar 1993, Slovakiya – 23 noyabr 1993, Xorvatiya – 26 yanvar 1995, Bosniya və Hersoqovina – 9 fevral 1995, Makedoniya – 28 iyun 1995, Serbiya – 21 avqust 1997); Mərkəzi və Şərqi Avropa dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərin qurulması; Bolqarıstan, Rumıniya və Polşa ilə hüquqi-normativ bazaya malik ikitərəfli əlaqələr; «TRASEKA», «Şərq-Qərb», «İpək yolu» kimi beynəlxalq layihələrdə, beynəlxalq və regional təşkilatlar çərçivəsində birgə əməkdaşlıq; Mərkəzi və Şərqi Avropa dövlətlərinin QİƏT, GUÖAM və s. regional təşkilatlara marağı.



Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk Avropa dövləti kimi; Rumıniya prezidentinin Azərbaycana səfərləri (27 mart 1996, 30 iyun – 1 iyul 1998); Rumıniyanın Xəzər neftinin istismarı və nəqli işinə qatılmaq cəhdi; Azərbaycan Prezidenti İ.Əliyevin Rumıniyaya rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ kimi (12-13 oktyabr 2004).

Bolqarıstan prezidenti P.Stoyanovun Azərbaycana rəsmi səfəri (2-3 dekabr 1999); ikitərəfli əməkdaşlığın hüquqi tənzimlənməsi istiqamətində bir sıra sənədlərin imzalanması; Bolqarıstan prezidenti Georgi Pirvanovun Azərbaycana rəsmi səfəri (7 oktyabr 2004) və Bolqarıstan-Azərbaycan münasibətlərinin genişlənməsi.

Azərbaycan Prezidenti İ.Əliyevin Slovakiyaya səfəri zamanı Slovakiya prezidenti Rudolf Şusterlə görüşü və ikitərəfli əlaqələrin inkişafı ilə bağlı məsələlərin müzakirəsi (18-19 mart 2004).

Azərbaycan Prezidenti H.Əliyevin Polşaya rəsmi səfəri (26-27 avqust 1997) və səfər çərçivəsində iki ölkə arasında «Dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi haqqında» bəyannamə və başqa bir sıra sənədlərin imzalanması (27 avqust 1997); Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya rəsmi səfəri (mart 2005) və qarşılıqlı əlaqələrin inkişafı; Polşanın TRASEKA layihəsinə marağı.

Yüksək səviyyəli qarşılıqlı səfərlər və onların Mərkəzi və Şərqi Avropa dövlətləri ilə əməkdaşlığın inkişafına təsiri (1991-2005). Azərbaycan ilə Mərkəzi və Şərqi Avropa dövlətləri arasındakı münasibətlərin hazırkı durumu.

## 11-ci mövzu
## Azərbaycanın xarici siyasətində Asiya istiqaməti

Asiya qitəsi ölkələrinin ümumi xarakteristikası və müasir dünya siyasətində yeri; ərazi, əhali və geosiyasi vəziyyəti; Azərbaycanın xarici siyasətində Asiya ölkələrinin yeri və rolu;

Çinin dünya siyasətində yeri və rolu; Çin-Azərbaycan münasibətlərini şərtləndirən amillər; Çinin Azərbaycanın dövlət müstəqilliyini tanıması (27 dekabr 1991) və diplomatik münasibətlərin qurulması (2 mart 1992); Azərbaycanda tikinti, ticarət və xidmət sahəsində Çin şirkətlərinin fəaliyyəti; Çində Azərbaycan səfirliyinin açılması (1993-cü ilin sonu); Çin-Azərbaycan münasibətlərində yeni mərhələ; Azərbaycan Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfəri (6-10 mart 1994); Azərbaycan-Çin münasibətlərinin hüquqi-normativ bazasının yaradılması; Azərbaycanla i Çin arasında «Dostluq münasibətlərinin inkişafı haqqında» memorandumun və digər sənədlərin imzalanması; texniki-iqtisadi əməkdaşlığın inkişafı; Çin iqtisadi modeli; Çinin Azərbaycana kreditlər formasında yardımı; mədəni sahədə əməkdaşlıq; Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun Çinə səfəri (24-26 dekabr 1996); Çinin Ermənistana 8 ədəd "Tayfun" tipli raket satması və bunun Çin-Azərbaycan münasibətlərinə təsiri (1999-cu il); Ümumçin xalq nümayəndələri Məclisinin Daimi Komitəsinin sədri Li Penin Azərbaycana rəsmi səfəri (iyun 2000); beynəlxalq təşkilatlarda əməkdaşlıq; Çin-Azərbaycan münasibətlərinin hazırkı durumu.

Yaponiya dünyanın qüdrətli iqtisadi mərkəzlərindən biri kimi; Azərbaycanın Yaponiya ilə əlaqələrini zəruri edən amillər; Yaponiyanın Azərbaycandakı maraqları; Yaponiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (1992-ci ilin payızı); Azərbaycan-Yaponiya münasibətləri 1991-1993-cü illərdə; Azərbaycan-Yaponiya münasibətlərində yeni mərhələnin başlanması; Yaponiya ilə Azərbaycan arasında



texniki-iqtisadi əməkdaşlıq; Yaponiyanın Azərbaycandakı qaçqın və köçkünlərə humanitar yardımı; Yaponiya şirkətlərinin neft kontraktlarında iştirakı («İtoçu», «Mitsui» və s.); Azərbaycan Prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri (24-28 fevral 1998-ci il); «Yaponiya ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq haqqında Birgə bəyanat»ın və Azərbaycan Respublikası ilə Yaponiya arasında ticarət və iqtisadiyyat sahəsində əməkdaşlıq haqqında bəyanatın imzalanması; Yaponiyanın "Mitsui" şirkəti ilə ARDNŞ arasında yeni neft müqaviləsinin imzalanması (28 fevral 1998); Yaponiyanın Azərbaycanda səfirliyinin açılması (1999-cu il); Yaponiya-Azərbaycan müştərək komissiyasının fəaliyyəti; Yaponiya-Azərbaycan dostluğu parlament Assosiasiyasının fəaliyyəti; Yaponiya iş adamlarının Azərbaycana səfərləri; Yaponiya ilə Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı; «İpək yolu» layihəsinin reallaşmasında Yaponiya-Azərbaycan əməkdaşlığı; «İtoçu» şirkətinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin və «Azəri-Çıraq-Günəşli» layihəsinin həyata keçirilməsində fəal rolu; Yaponiya-Azərbaycan münasibətlərinin hazırkı durumu.

İndoneziya dünyada bloklara qoşulmayan ölkələr hərəkatının liderlərindən biri kimi; İndoneziyanın Azərbaycanla diplomatik əlaqələr qurması; İndoneziya-Azərbaycan münasibətlərində İslam faktoru; beynəlxalq təşkilatlarda İndoneziya-Azərbaycan əməkdaşlığı; beynəlxalq tədbirlərdə hər iki ölkə rəhbərlərinin çoxsaylı görüşləri.

Diplomatik münasibətlərin qurulması; Kopenhagendə BMT-nin keçirdiyi «Sosial inkişaf naminə» Ümumdünya konqresində Azərbaycan Prezidenti H.Əliyevin Malayziyanın baş naziri Mahatir Mahammad ilə görüşü (11 mart 1995); Azərbaycan-Malayziya münasibətlərində İslam faktoru; beynəlxalq təşkilatlarda Malayziya-Azərbaycan əməkdaşlığı.

Filippinlə diplomatik münasibətlərin qurulması; Kopenhagendə BMT-nin keçirdiyi «Sosial inkişaf naminə»

Ümumdünya konqresində Azərbaycan Prezidenti H.Əliyevin Filippin prezidenti Fidel Rames ilə görüşü (12 mart 1995).

Koreya respublikaları ilə diplomatik əlaqələrin qurulması; Cənubi Koreya şirkətlərinin Azərbaycanda fəaliyyəti; Azərbaycan Prezidenti H.Əliyevin Cənubi Koreyanın «DEU» korporasiyasının prezidenti Yu Ki Bumu qəbulu (10 avqust 1993); beynəlxalq təşkilatlarda Koreya respublikaları ilə Azərbaycanın əməkdaşlığı.

İki ölkə - Azərbaycan-Hindistan arasında diplomatik münasibətlərin qurulması; beynəlxalq təşkilatlarda əməkdaşlıq); Hindistanda Azərbaycan səfirliyinin fəaliyyətə başlaması (2004).

Pakistan-Azərbaycan münasibətlərini şərtləndirən amillər; Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi (12 dekabr 1992); Diplomatik münasibətlərin qurulması (9 iyun 1992); beynəlxalq və regional təşkilatlarda Pakistanın Azərbaycanı dəstəkləməsi; BMT-də Pakistanın sədrliyi ilə Azərbaycanla bağlı 822 saylı qətnamənin (Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı) qəbul edilməsi (30 aprel 1993); Pakistanla Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişafı; Pakistan prezidenti Əhməd şah Leqarinin Bakıya səfəri (oktyabr 1995); iki ölkə arasında «Dostluq və əməkdaşlıq haqqında saziş»in imzalanması; Azərbaycan Prezidenti Heydər Əliyevin Pakistana rəsmi səfəri (9-11 aprel 1996); iki ölkə arasındakı münasibətlərin hüquqi-siyasi bazasını yaradan sənədlərin imzalanması; Pakistanın Ermənistan-Azərbaycan münaqişəsində tutduğu prinsipial mövqeyi; Pakistanın Azərbaycana humanitar yardımı; Azərbaycanla Pakistan arasında hərbi sahədə əməkdaşlıq; Pakistan prezidenti Pərviz Müşərrəfin Azərbaycana səfəri və iki ölkə arasında «Birgə bəyannamə»nin imzalanması (8-10 iyul 2004); Azərbaycan-Pakistan münasibətlərinin hazırkı durumu.

Əfqanıstanla diplomatik əlaqələrin qurulması (16 noyabr 1994); Əfqanıstanda Azərbaycanın sülhməramlı qüvvələrinin iştirakı; beynəlxalq, regional və dini təşkilatlarda əməkdaşlıq.



## 12-ci mövzu
## Yaxın, Orta Şərq dövlətləri və Azərbaycan

Azərbaycanın xarici siyasətində İslam faktoru; dünya siyasətində İslam dövlətlərinin yeri və rolu; coğrafi-siyasi yaxınlıq; kommunikasiya, ticarət, enerji və xammal mənbələri üzrə mənafe yaxınlığı; Ərəb ölkələri ilə diplomatik münasibətlərin qurulması; Ərəb dünyası ilə iqtisadi, siyasi və mədəni münasibətlər; Ərəb dövlətlərinin Azərbaycana humanitar yardımı; Azərbaycanda İraq, Misir, Liviya və Səudiyyə Ərəbistanın səfirliklərinin fəaliyyəti; Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Misirdə səfirliklərinin fəaliyyətə başlaması; Azərbaycan Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanı (9-12 iyul 1994) və Misirə (BMT-nin demoqrafik inkişafa dair konfransında iştirak etmək üçün) (3-6 sentyabr 1994) səfərləri; Azərbaycanın xarici işlər nazirlərinin Səudiyyə Ərəbistanı, Misir, Suriya və Livana səfərləri; parlament nümayəndə heyətlərinin, nazirlik və təşkilatlarının qarşılıqlı səfər mübadilələri; Ərəb ölkələri ilə münasibətlərin hazırkı durumu,

İordaniyanın Azərbaycanın müstəqilliyini tanıması (28 dekabr 1991); İordaniya Haşimiyyə krallığının Baş Seremonomeyesteri Əmir Raad bin Zayedin başçılığı ilə nümayəndə heyətinin Azərbaycana səfəri (fevral 1993); səfər çərçivəsində Azərbaycanla İordaniya arasında diplomatik əlaqələrin qurulması haqqında protokol və digər sənədlərin imzalanması (13 fevral 1993); İslam Konfransı Təşkilatının Kasablanka Zirvə görüşündə iki dövlət başçısının görüşü (13 dekabr 1994); Davos Ümumdünya İqtisadi Forumunda Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin İordaniya Kralı II Abdullah arasında ikitərəfli görüş (28-30 yanvar 2000); Kral Hüseynin qardaşı, şahzadə Həsən bin Talalın başçılığı ilə İordaniya nümayəndə heyətinin Azərbaycana səfəri zamanı iki ölkə arasında iqtisadiyyat, mədəniyyət və elm sahəsində

əlaqələrin inkişafı perspektivlərinin müzakirəsi (6-7 iyun 2000); Azərbaycan-İordaniya münasibətlərinin hazırkı durumu.

Səudiyyə Ərəbistanı Ərəb dünyasının və regionun aparıcı dövlətlərindən biri kimi; İslam dünyasının müqəddəs yerləri sayılan Məkkə, Mədinə və Ciddə şəhərlərinin Səudiyyə Ərəbistanında yerləşməsi; Səudiyyə Ərəbistanının Azərbaycanın müstəqilliyini tanıması (30 dekabr 1991); Azərbaycanla Səudiyyə Ərəbistanı arasında diplomatik əlaqələrin qurulması (24 fevral 1992); Səudiyyə Ərəbistanında Azərbaycan səfirliyinin fəaliyyətə başlaması (aprel 1994); Azərbaycanın İslam dünyası ilə əlaqələrində Səudiyyə Ərəbistanının rolu; Azərbaycan respublikasının Prezidenti H.Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfəri (9 iyul 1994); Azərbaycan Prezidenti H.Əliyevlə Səudiyyə Ərəbistanı kralı Fəhd ibn Əbdüləziz əl-Səud ilə görüşü; iki ölkə arasında əməkdaşlıq məsələlərinin müzakirə; H.Əliyevin Səudiyyə Ərəbistanının iş adamları ilə görüşü; Səudiyyə Ərəbistanında yerləşən və İslam dünyasını təmsil edən İslam Konfransı Təşkilatının, İslam Birliyi Təşkilatının, Beynəlxalq İslam «Nicat» Təşkilatının, İslam İnkişaf Bankının, İslam Rabitə Təşkilatının rəhbərləri ilə keçirilən görüşlər; Azərbaycan və Səudiyyə Ərəbistanı arasında Baş Sazişin imzalanması; İslam Konfransı Təşkilatının Zirvə görüşlərində iki ölkə rəhbərliyi arasında keçirilən çoxsaylı görüşləri; Səudiyyə Ərəbistanının Azərbaycana göstərdiyi humanitar yardımları; Səudiyyə Ərəbistanının beynəlxalq və dini təşkilatlarda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı tutduğu ədalətli mövqe; Azərbaycanda Səudiyyə Ərəbistanının səfirliyinin fəaliyyətə başlaması (iyun 1999); iki ölkə arasında münasibətlərin hazırkı durumu.

Suriya Ərəb Respublikası ilə diplomatik əlaqələrin qurulması (28 mart 1992); Azərbaycanla Suriya arasında əməkdaşlığın BMT və İslam Konfransı Təşkilatı (İKT) çərçivəsində həyata keçirilməsi; Dəməşqdə Azərbaycan Respublikasının səfirliyinin təsis edilməsi (11 aprel 1997);



Azərbaycan Respublikası xarici işlər nazirinin Suriyaya rəsmi səfəri (noyabr 1997); İKT-nin Tehranda keçirilən VIII Zirvə toplantısında Suriya prezidenti Hafız əl-Əsəd ilə Azərbaycan Prezidenti Heydər Əliyevin görüşü (dekabr 1997); iki ölkə arasında münasibətlərin hazırkı durumu.

İraqın Azərbaycanın müstəqilliyini tanıması (2 yanvar 1992); iki ölkə arasında diplomatik əlaqələrin qurulması (30 mart 1992); Azərbaycanda İraq səfirliyinin fəaliyyətə başlaması (1992); İraqla Azərbaycan arasında elm, təhsil və mədəni əlaqələr; Azərbaycan və İraqın mədəniyyət və informasiya nazirlikləri arasında əməkdaşlıq haqqında sazişin imzalanması (21 oktyabr 1994); Azərbaycan və İraqın mədəniyyət və incəsənət xadimlərinin fəal əməkdaşlığı; Azərbaycan-İraq münasibətlərinin İraqa qarşı tətbiq olunan BMT sanksiyaları ilə məhdudlaşması; İraqın İKT çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləməsi; Azərbaycan hərbçilərinin İraqda sülhməramlı fəaliyyəti; Azərbaycan-İraq münasibətlərinin hazırkı durumu.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın müstəqilliyini tanıması və iki ölkə arasında diplomatik əlaqələrin qurulması (1 sentyabr 1993); Hökumət nümayəndələri arasında keçirilən görüşlər; Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin İKT-nin Kasablankada keçirilən Zirvə toplantısında Birləşmiş Ərəb Əmirliklərinin prezidenti Şeyx Zaid bin Sultanla görüşü (13-15 dekabr 1994); Beynəlxalq və dini təşkilatlar çərçivəsində əməkdaşlıq; Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan qaçqınlarına humanitar yardımı; «Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində səfirliyinin açılması haqqında» Azərbaycanın Milli Məclisinin qərarı (11 aprel 1997); Bakı-Dubay hava xəttinin açılışı (9-11 iyun 1997); Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında ticarət əlaqələrinin genişlənməsi; iki ölkə arasında münasibətlərin hazırkı durumu.

Livanın Azərbaycanın müstəqilliyini tanıması (30 dekabr 1991); iki ölkə arasında diplomatik əlaqələrin qurulması (18 sentyabr 1992); Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin İKT-nin Tehranda keçirilən Zirvə toplantısında Livanın prezidenti İlyas Hərəvi ilə görüşü (9-11 dekabr 1997); Livanın baş naziri Rafiq əl-Həririnin Bakıya rəsmi səfəri (1998); beynəlxalq və dini təşkilatlar çərçivəsində əməkdaşlıq; iki ölkə arasında münasibətlərin hazırkı durumu.

Qatarın Azərbaycanın müstəqilliyini tanıması; iki ölkə arasında diplomatik əlaqələrin qurulması (14 sentyabr 1994); beynəlxalq və dini təşkilatlar çərçivəsində əməkdaşlıq; Qatarın Azərbaycan qaçqınlarına humanitar yardımı; Azərbaycanın xarici işlər naziri V.Quliyevin İKT-nin Qatarda keçirilən IX Zirvə toplantısında iştirakı (12-13 noyabr 2000); iki ölkə arasında münasibətlərin hazırkı durumu.

Küveytin Azərbaycanın müstəqilliyini tanıması; iki ölkə arasında diplomatik əlaqələrin qurulması (7 oktyabr 1994); beynəlxalq və dini təşkilatlar çərçivəsində əməkdaşlıq; Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin İKT-nin Kasablankada keçirilən Zirvə toplantısında Küveyt əmiri Şeyx Cabir əl-Əhməd əl-Səbah ilə görüşü (13 dekabr 1994); Azərbaycan Prezidenti H.Əliyevin ABŞ-da keçirilən beynəlxalq tədbirdə Küveyt əmiri Cabir əl-Əhməd əl-Səbah ilə görüşü (22 oktyabr 1995); Küveyt Milli Məclisi ilə Azərbaycan Milli Məclisi arasında əməkdaşlıq; Azərbaycan-Küveyt parlamentlərarası dostluq qrupunun fəaliyyəti; Küveytin Azərbaycan qaçqınlarına humanitar yardımı; Küveytin Asiya Müsəlmanları Komitəsinin Azərbaycanda fəaliyyəti; Küveytin Ankaradakı səfirinin Azərbaycanda akkreditə olunması (27 yanvar 1998); Küveyt iş adamlarının Azərbaycana marağı; iki ölkə arasında münasibətlərin hazırkı durumu.

İsrailin Azərbaycanın müstəqilliyini tanıması; Azərbaycanda İsrail səfirliyinin fəaliyyətə başlaması; Azərbaycanın beynəlxalq yəhudi lobbisi ilə isti münasibətlərini



şərtləndirən amillər; İsraildə Azərbaycan səfirliyinin açılması istiqamətində danışıqlar; Azərbaycan Prezidenti H.Əliyevin ABŞ-da keçirilən beynəlxalq tədbirdə İsrailin baş naziri İshaq Rabin ilə görüşü (22 oktyabr 1995); Azərbaycan prezidenti H.Əliyevin Bakıda yolüstü səfərdə olan İsrail prezidenti Benyamin Netanyahu ilə görüşü (29 avqust 1997); beynəlxalq konfrans və tədbirlərdə yəhudi lobbisinin Azərbaycana təsirli dəstəyi; iki ölkə arasında münasibətlərin hazırkı durumu.

## 13-cü mövzu
## Azərbaycanın xarici siyasətində Afrika ölkələri

Afrika qitəsi ölkələrinin geosiyasi xarakteristikası və müasir dünya siyasətindəki rolu; Azərbaycanla Afrika ölkələri arasında diplomatik münasibətlərin qurulması; beynəlxalq təşkilatlar; çərçivəsində əməkdaşlıq; beynəlxalq konfrans və tədbirlərdə; Azərbaycan rəhbərliyi ilə Afrika ölkələrinin rəhbərləri arasında görüşlər.

Azərbaycan-Misir münasibətləri Misirin Azərbaycanın müstəqilliyini tanıması (26 dekabr 1991); Misirlə Azərbaycan arasında diplomatik əlaqələrin qurulması (27 may 1992); Misirin Bakıda (aprel 1993), Azərbaycanın isə Qahirədə (yanvar 1994) səfirliklərinin fəaliyyətə başlaması; iki ölkə arasında hökumət nümayəndələrinin qarşılıqlı səfərləri (1993-1994); Azərbaycan Prezidenti H.Əliyevin Misir-Azərbaycan dostluq cəmiyyətinin sədri görkəmli biznesmen Məhəmməd Əbülxeyri qəbul etməsi (18 sentyabr 1993); Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq konfransında iştirak etmək üçün Qahirəyə işgüzar səfəri zamanı Misir Ərəb Respublikasının prezidenti H.Mübarəklə və digər dövlət və hökumət nümayəndələri ilə görüşləri (sentyabr 1994); iki ölkə arasında əlaqələrin inkişafı və gücləndirilməsi məsələlərinin müzakirəsi; İKT-nin Kasablankada keçirilən Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər

Əliyevin Misir prezidenti H.Mübarəklə növbəti görüşü (14 dekabr 1994); Misirin beynəlxalq və dini təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləməsi; Misir-Azərbaycan əlaqələrinin genişlənməsi; iki ölkənin dövlət və hökumət nümayəndələrinin qarşılıqlı səfərlərinin davam etməsi; Azərbaycan-Misir əlaqələrinin hazırkı durumu.

Əlcəzairin Azərbaycanın müstəqilliyini tanıması (26 dekabr 1991); iki ölkə arasında diplomatik əlaqələrin qurulması (22 aprel 1992); Əlcəzairin Ankaradakı səfirinin Azərbaycanda akkreditə olunması (avqust 1993); beynəlxalq və dini təşkilatlar çərçivəsində əməkdaşlıq; iki ölkə arasında münasibətlərin hazırkı durumu.

Liviyanın Azərbaycanın müstəqilliyini tanıması (30 dekabr 1991) Liviyanın maliyyə naziri Məhəmməd əl-Buxarinin başçılığı ilə nümayəndə heyətinin Azərbaycana səfəri (mart 1992); səfər çərçivəsində iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasına dair iki ölkə arasında birgə komissiyanın yaradılması, elm və mədəniyyət sahəsində əməkdaşlıq, iki ölkənin hökumətləri arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinə dair müqavilə, mədəni əməkdaşlıq sahəsinə dair saziş, iki ölkə arasında hava yollarının açılmasına dair niyyət protokolunun imzalanması; Liviya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulması (16 mart 1992); Liviyanın Azərbaycanda səfirliyinin fəaliyyətə başlaması (aprel 1995); Liviyanın Beynəlxalq İslam Xalq Rəhbərliyi təşkilatı, «İslama çağırış» cəmiyyəti və başqa təşkilatlarının təşəbbüsü ilə Bakıda elmi konfransların, simpoziumların keçirilməsi; iki ölkə arasında tələbə mübadiləsi və Azərbaycan mütəxəssislərinin Liviyada işləmək üçün göndərilməsi haqqında müqavilənin imzalanması (1996); Liviyanın beynəlxalq, regional və dini təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləməsi; iki ölkə arasında münasibətlərin hazırkı durumu.



Mərakeşin Azərbaycanın müstəqilliyini tanıması (26 dekabr 1991); iki ölkə arasında diplomatik əlaqələrin qurulması (25 avqust 1992); Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin İKT-nin Kasablankada keçirilən Zirvə Toplantısında Mərakeş kralı II Həsənlə görüşü (13-15 dekabr 1994)$beynəlxalq və dini təşkilatlar çərçivəsində əməkdaşlıq; iki ölkə arasında münasibətlərin hazırkı durumu.

Azərbaycanın digər İslam ölkələri - Qəmər Adaları Birliyi, Sudan Respublikası, Seneqal Respublikası, Tunis, Mavritaniya İslam Respublikası, Burkina Faso və Cibuti Respublikaları ilə münasibətləri.

Afrika qitəsinin qeyri-müsəlman ölkələri ilə münasibətlər:
Cənubi Afrika Respublikası
Anqola Respublikası
Nigeriya Federativ Respublikası və başqaları.

## 14-cü mövzu
## Azərbaycanın MDB dövlətlərilə münasibətləri

MDB üzvü olan digər dövlətlərin və Baltikyanı ölkələrin dünya siyasəti və Azərbaycanla münasibətlər; MDB üzvü olan region dövlətlərinin və Baltikyanı ölkələrin dünya siyasətində və Avrasiyadakı yeri, rolu və mövqeləri haqqında; Azərbaycanın regional siyasətində bu ölkələrin yeri və rolu.

Azərbaycan-Ukrayna münasibətləri; Ukrayna-Azərbaycan münasibətlərini şərtləndirən amillər; hər iki respublikanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində üzləşdikləri oxşar problemlər (uzun müddət vahid siyasi, iqtisadi və ideoloji məkanda yerləşmələri; qərbməyilli siyasət yeritmələri və s.); iki ölkə arasında diplomatik əlaqələrin qurulması (6 fevral 1992).

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin rəhbərliyi altında nümayəndə heyətinin Ukraynaya rəsmi səfəri (9-10 dekabr 1992); «Azərbaycan və Ukrayna arasında

dostluq və əməkdaşlıq haqqında» müqavilənin və digər sənədlərin imzalanması.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra Azərbaycanla Ukrayna arasında siyasi, iqtisadi və mədəni əlaqələrin yeni səviyyəyə qalxması; Ukrayna və Azərbaycanda səfirliklərin fəaliyyətə başlaması; Ukraynanın Azərbaycan-Ermənistan münaqişəsində Azərbaycanın mövqeyini dəstəkləməsi; beynəlxalq və regional təşkilatlarda Ukrayna və Azərbaycanın eyni mövqedən çıxış etməsi; Ukrayna prezidenti L.Kuçmanın Azərbaycana rəsmi səfəri (27-28 iyul 1995) və səfər çərçivəsində Azərbaycan-Ukrayna münasibətlərini tənzimləyən daha 11 sənədin imzalanması.

Azərbaycan və Ukraynanın MDB, GUÖAM və QDİƏT kimi regional təşkilatlardakı birgə fəaliyyəti; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ukraynaya rəsmi səfəri (24-25 mart 1997); Ukrayna ilə Azərbaycan arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdırılması; Heydər Əliyevə Ukraynanın ali mükafatı olan «Yaroslavl Mudrıy» mükafatının verilməsi; «Ukrayna Respublikası ilə Azərbaycan Respublikası arasında tərəfdaşlıq münasibətlərinin dərinləşməsi haqqında» bəyannamənin və əlavə 17 sənədin imzalanması; mühüm transqafqaz nəqliyyat layihələrinin həyata keçirilməsində Ukrayna ilə Azərbaycanın birgə fəaliyyəti.

Ukrayna prezidenti Leonid Kuçmanm Azərbaycana ikinci səfəri (16-17 mart 2000); Ukrayna ilə Azərbaycan Respublikası arasında «dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında», «Azərbaycan və Ukrayna arasında 2000-2009-cu illər üzrə iqtisadi əməkdaşlıq haqqında» müqavilələrin imzalanması.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfərinin (3-4 iyun 2004) Azərbaycan-Ukrayna münasibətlərinin yüksələn xətt üzrə inkişafına müsbət təsiri.

Azərbaycan-Belarus münasibətləri: Azərbaycan-Belarus münasibətlərini şərtləndirən əsas amillər; Azərbaycanla Belarus arasında diplomatik münasibətlərin qurulması (11 iyun 1993)f



Azərbaycanın Belarus ilə münasibətlərinin zəif olmasının səbəbləri; Azərbaycanla Belarusun MDB çərçivəsində fəaliyyəti; beynəlxalq tədbirlərdə iki ölkə rəhbərlərinin görüşləri. Azərbaycan-Moldova münasibətləri: Azərbaycan-Moldova münasibətlərini şərtləndirən əsas amillər; Azərbaycanla Moldova arasında diplomatik münasibətlərin qurulması (18 may 1992).

Azərbaycan Prezidenti H.Əliyevin Moldova Respublikasının baş naziri Andrey Sangelinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi (8 sentyabr 1995); beynəlxalq və regional təşkilatlarda hər iki ölkə başçılarının çoxsaylı görüşləri.

Azərbaycan Prezidenti H.Əliyevin MDB dövlət başçılarının Kişinyov toplantısında iştirakı (22-23 oktyabr 1997); Moldova prezidenti P.Luçinskinin Azərbaycana rəsmi səfəri (26-28 noyabr 1997) və Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin və digər sənədlərin imzalanması; Azərbaycan və Moldovanın GUÖAM çərçivəsində birgə fəaliyyəti.

Moldova prezidenti Vladimir Voroninin Bakıya rəsmi səfəri (26-27 oktyabr 2004); bir sıra sənədlərin imzalanması; Azərbaycan şirkətlərinin Moldovadakı fəaliyyəti.

Azərbaycanın Cənubi Qafqaz dövlətləri ilə əlaqələri.

Azərbaycan-Gürcüstan münasibətlərini şərtləndirən əsas amillər: qonşuluq, uzun müddət eyni ideoloji-siyasi və iqtisadi sistemdə mövcudluq, müstəqillik əldə etdikdən sonra hər iki dövlətin üzləşdiyi oxşar problemlər, hər iki dövlətin qərbmeyilli xarici siyasəti, Gürcüstanın neft-qaz məhsullarına olan ehtiyacı, Gürcüstanın tranzit ölkəsi olması, Gürcüstanda 500 minədək azərbaycanlının yaşaması və s.

Gürcüstanla Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (18 noyabr 1992); E.Şevardnadzenin Azərbaycana səfəri (1993); Azərbaycanın Gürcüstana uzunmüddətli kredit və yanacaqla kömək etməsi (1993); Bakıda Gürcüstan səfirliyinin (fevral 1995) və Tbilisidə Azərbaycan səfirliyinin açılması (mart 1996); iki ölkə arasında münasibətlərin yüksələn

xətt üzrə inkişafı; Azərbaycanla Gürcüstan arasında texniki-iqtisadi əməkdaşlıq; Gürcüstanın Azərbaycanda çıxarılacaq ilkin neftin ixrac marşrutlarından biri kimi seçilməsi. Azərbaycan Prezidenti H.Əliyevin Gürcüstana səfəri (mart 1996); «Dostluq, əməkdaşlıq və *qarşılıqlı təhlükəsizliyin* gücləndirilməsi haqqında» müqavilə və «Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında» bəyannamənin imzalanması; «Qafqaz evi» ideyasının reallaşması istiqamətin-də Azərbaycanla Gürcüstanın birgə fəaliyyəti; E.Şevardnadzenin Bakıya növbəti səfəri (18-20 fevral 1997); iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdırılması; «Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlığın güclənməsi haqqında» bəyannamənin imzalanması (20 fevral 1997); iki ölkə arasında əməkdaşlıq üçün hüquqi-normativ baza kimi 2001-ci ilədək 70-dən çox sənədin imzalanması.

Hər iki ölkənin beynəlxalq və regional təşkilatlarda birgə əməkdaşlığı; Azərbaycan və Gürcüstan GUÖAM-ın yaradıcılarından biri kimi; Bakı-Supsa neft kəmərinin hər iki dövləti bir-birinə daha da yaxınlaşdırması; Azərbaycan və Gürcüstanın TRASEKA, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi super layihələrdə əsas iştirakçı kimi çıxış etmələri; Gürcüstan prezidenti E.Şevardnadzenin Bakıya növbəti səfəri (29 sentyabr 2001) çərçivəsində «Şahdəniz» qazının Gürcüstan ərazisi ilə tranziti və Gürcüstanın qaz istehlakçısına çevrilməsi ilə bağlı sazişlərin imzalanması; neft-qaz məhsullarının tranziti məsələsində Azərbaycanın Gürcüstana güzəştləri; Gürcüstan prezidenti M.Saakaşvilinin Azərbaycana (4-5 mart 2004) və Azərbaycan Prezidenti İ.Əliyevin Gürcüstana (14-15 iyun 2004) rəsmi səfərləri və əməkdaşlığın daha da genişlənməsi istiqamətindəki səylər; Azərbaycan-Gürcüstan münasibətlərinin hazırkı durumu.

Ermənistanın Cənubi Qafqazdakı etnik separatizm və millətçi siyasətinin tarixi kökləri, mahiyyəti və xarakterik xüsusiyyətləri; «Böyük Ermənistan» ideyası və onun havadarları;



Ermənistanın işğalçılıq siyasətinə Rusiya, Türkiyə, İran və Qərb ölkələrinin münasibəti; Ermənistan və Cənubi Qafqaz ölkələri; Ermənistan-Gürcüstan münasibətlərinin keçmişi, bu günü və perspektivləri; Ermənistanın antiazərbaycan siyasətinin tarixi kökləri, bu günü və perspektivləri; Ermənistanın etnik separatizm və işğalçı siyasətinə beynəlxalq aləmin bugünkü münasibəti və perspektivləri.

SSRİ-nin dağılması və Orta Asiya dövlətlərin öz müstəqilliklərini bərpa etməsi; Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın dünya birliyinə yeni türk dövlətləri kimi daxil olmaları; din və dil birliyi, tarixi və mədəni bağlılığın türkdilli dövlətlərin əməkdaşlığına təsiri; Türkiyə Respublikası türkdilli dövlətlərin bir araya gəlməsində birləşdirici amil kimi; Türkdilli dövlət başçılarının Zirvə görüşlərinin başlanması (İstanbul 1992); 1992-1993-cü illərdə Orta Asiyanın türkdilli dövlətləri ilə Azərbaycan arasında *əsassız gərginliyin* yaranması.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra Orta Asiyanın türkdilli dövlətləri ilə Azərbaycan arasında münasibətlərdə istiləşmə dövrünün başlanması; Orta Asiyanın türkdilli dövlət başçılarının Azərbaycana səfərləri; Azərbaycan Prezidenti Heydər Əliyevin Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistana səfərləri (1996-1998).

Türkdilli dövlət başçılarının zirvə görüşlərinin türkdilli xalqların mühüm tarixi, mədəni və siyasi hadisələri ilə eyni vaxta düşməsi; «Manas«» eposunun 1000 illiyinin, Füzulinin 500 illiyinin, Abayın 150 illiyinin, Əmir Teymurun 660 *illiyinin*, Astananın Qazaxıstanın paytaxtı kimi beynəlxalq aləmdə təqdimatının və «Dədə Qorqud» dastanının 1300 illiyinin qeyd edilməsinin türkdilli xalqların mədəni həyatında mühüm hadisəyə çevrilməsi; türkdilli dövlətlərin TÜRKSOY təşkilatının fəaliyyəti.

Türkdilli dövlətlərlə Azərbaycanın ikitərəfli və çoxtərəfli münasibətləri; türkdilli dövlətlərin regionda həyata keçirilən iri beynəlxalq layihələrin əsas iştirakçılarından olması (Avrasiya

nəqliyyat dəhlizi, Transxəzər enerji magistralının çəkilməsi, TRASEKA, «İpək yolu»nun bərpası və s.).

Azərbaycan-Qazaxıstan münasibətləri: Azərbaycanla Qazaxıstan arasında münasibətləri şərtləndirən amillər; Azərbaycanla Qazaxıstan arasında diplomatik münasibətlərin qurulması (30 avqust 1992); 1991-1993-cü illərdə Azərbaycanla Qazaxıstan arasında münasibətlərin ziddiyyətli məqamları; Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanın Qazaxıstanla əlaqələrinin normal səviyyəyə çatdırılması; iqtisadi-mədəni əlaqələrdə canlanma; Azərbaycan Prezidenti Heydər Əliyevin Abay Kunanbayevin anadan olmasının 150 illik yubileyi tədbirlərində iştirak etmək üçün Qazaxıstana səfəri (8-10 avqust 1995); Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Bakıya rəsmi səfəri (16-17 sentyabr 1996); iki ölkə arasında münasibətləri tənzimləyən hüquqi-normativ sənədlərin imzalanması; Xəzər dənizinin bölünməsinə dair Azərbaycan-Qazaxıstan birgə müqaviləsinin imzalanması.

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin yüksələn xətlə inkişafı; Azərbaycan Prezidenti H.Əliyevin Qazaxıstana rəsmi səfəri (10-11 iyun 1997); tarixi «İpək yolu» layihəsinin həyata keçirilməsində Qazaxıstan-Azərbaycan əməkdaşlığı; Qazaxıstan prezidenti N.Nazarbayevin Azərbaycana növbəti səfəri (7-9 aprel 2000) və Dədə Qorqudun 1300 illik yubiley tədbirlərində N.Nazarbayevin iştirakı; Qazaxıstanın Azərbaycanla regional və beynəlxalq təşkilatlarda sıx əməkdaşlığı.

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri və «Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında» bəyannamənin imzalanması (1-2 mart 2003); Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulması istiqamətindəki danışıqlar; Qazaxıstan-Azərbaycan münasibətlərinin hazırkı durumu.

Azərbaycanla Özbəkistan arasında münasibətləri şərtləndirən amillər; müstəqillik əldə etdikdən sonra hər iki respublikanın oxşar problemlərlə üzləşməsi; 1991-1993-cü illərdə Özbəkistanla münasibətlərdə əsassız gərginliyin yaradılması.



H.Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra Özbəkistanla münasibətlərin normallaşması; Özbəkistanla Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (2 oktyabr 1995); Azərbaycanda Özbəkistan səfirliyinin açılması (1996); Özbəkistan prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfəri (may 1996); iki ölkə arasında iqtisadi, siyasi və mədəni münasibətləri tənzimləyən 19 sənədin imzalanması; Azərbaycan prezidenti H. Əliyevin Daşkənddə Əmir Teymurun 660 illiyi ilə bağlı yubiley tədbirində iştirak etmək üçün Özbəkistana səfəri (oktyabr 1996).

Özbəkistanla Azərbaycan arasında münasibətlərin tərəfdaşlıq səviyyəsinə qaldırılması; Azərbaycan Prezidenti H. Əliyevin Özbəkistana ilk rəsmi səfəri (18-19 iyul 1997); Özbəkistanda Azərbaycan səfirliyinin açılması (iyul 1997); Özbəkistan-Azərbaycan münasibətlərinin yüksələn xətlə inkişafı; Özbəkistan və Azərbaycanın BMT, MDB, GUÖAM, İslam Konfransı Təşkilatı, Türkdilli dövlət birliklərinin zirvə görüşləri və başqa beynəlxalq və regional təşkilatlarda sıx əməkdaşlığı.

Azərbaycan Prezidenti İ.Əliyevin Özbəkistana ilk rəsmi səfəri və «Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında» bəyannamənin imzalanması (23-24 mart 2004) ikitərəfli əlaqələrin gücləndirilməsi istiqamətində mühüm faktor kimi; Özbəkistan-Azərbaycan münasibətlərinin hazırkı durumu.

Azərbaycanla Türkmənistan arasında münasibətləri şərtləndirən amillər; Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlərin qurulması (9 iyun 1992).

Türkmənistan prezidenti S.Niyazovun Azərbaycana rəsmi səfəri (18-19 mart 1996); Xəzər dənizinin hüququ statusunun müəyyənləşməsində Türkmənistanın tutduğu qərəzli mövqe.

Azərbaycan Prezidenti H.Əliyevin Xəzəryanı dövlət başçılarının Aşqabad toplantısında iştirakı; Azərbaycanla Türk-

mənistan arasında münasibətlərdəki soyuqluğun davam etməsi; Türkmənistan-Azərbaycan münasibətlərinin hazırkı durumu.

Azərbaycanla Qırğızıstan arasında münasibətləri şərtləndirən amilləri Azərbaycanla Qırğızıstan arasında diplomatik münasibətlərin qurulması (19 yanvar 1993).

Qırğızıstan Respublikasının prezidenti Ə.Akayevin Azərbaycana rəsmi səfəri (23 aprel 1997); dostluq və əməkdaşlıq haqqında sazişin və başqa ikitərəfli hökumətlərarası sənədlərin imzalanması (23 aprel 1991); Qırğızıstan-Azərbaycan münasibətlərinin hazırkı durumu.

Azərbaycanla Tacikistan arasında münasibətləri şərtləndirən amilləri Azərbaycanla Tacikistan arasında diplomatik münasibətlərin qurulması (29 may 1992); beynəlxalq və regional təşkilatlarda əməkdaşlıq; Tacikistan-Azərbaycan münasibətlərinin hazırkı durum.

Litva, Latviya və Estoniya ilə diplomatik münasibətlərin qurulması; Baltikyanı respublikalarla Azərbaycan arasında partnyorluq münasibətlərinin formalaşması; beynəlxalq konfrans və tədbirlərdə dövlət və hökumət rəhbərlərinin görüşlərinin ikitərəfli əlaqələrin inkişafına müsbət təsiri; beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq; texniki-iqtisadi əməkdaşlıq; Azərbaycanın Baltikyanı postsovet respublikaları ilə münasibətlərinin hazırkı durumu və perspektivləri.

## 15-ci mövzu
## Azərbaycanın dünya dövlətləri ilə əlaqələrində beynəlxalq təşkilatların rolu

Azərbaycanın xarici siyasətində beynəlxalq və regional təşkilatlarla işə verilən diqqət; Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar və onların müasir dünya siyasətində rolu; Azərbaycanın milli maraqları, beynəlxalq hüquq və beynəlxalq təşkilatlar; Azərbaycanın beynəlxalq



iqtisadi, siyasi, hüquq və təhlükəsizlik sistemine inteqrasiyasında beynəlxalq təşkilatların rolu.

BMT dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı kimi; AzərBaycanın BMT-yə üzv olması üçün atdığı addımlar; Azərbaycan prezidentinin BMT-yə qəbul olunmaq üçün verdiyi bəyanat (22 yanvar 1992); Azərbaycanın BMT-yə üzv qəbul olunması (2 mart 1992); Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəliyinin fəaliyyətə başlaması (aprel 1992); Azərbaycanın BMT-yə üzv olmasının əhəmiyyəti; BMT-nin Ermənistanın ölkəmizə təcavüzü ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələri (1993); Azərbaycan ilə BMT arasındakı əməkdaşlıqda yeni mərhələ (1993-cü ildən sonrakı dövr); BMT-nin baş katibi Butros Butros-Qalinin Azərbaycana səfəri; BMT xətti ilə keçirilən bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı; Azərbaycan Prezidenti Heydər Əliyevin BMT rəhbərliyi ilə keçirdiyi görüşləri (1993-2001-ci illər); Heydər Əliyevin BMT-nin 50 illiyi münasibətilə Nyu-Yorkda keçirilən tədbirlərdə iştirakı; Azərbaycanın BMT ilə siyasi, iqtisadi, elmi-texniki və mədəni sahələrdəki əməkdaşlığı; BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqə; BMT vasitəsilə Azərbaycan qaçqınlarına göstərilən humanitar yardım; Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğuna BMT-nin yardımı; Azərbaycandakı BMT nümayəndəliyinin fəaliyyəti.

ATƏM-in (ATƏT-in) yaranması və Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərində güclü təsiretmə qüvvəsinə malik bir təşkilata çevrilməsi; Azərbaycanın ATƏT-ə üzv olmasını şərtləndirən amillər; Azərbaycanın ATƏT-ə üzv olması (yanvar 1992); ATƏT-in Azərbaycandakı maraqları; Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində ATƏT-in rolu;) Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması üçün ATƏT-in Minsk qrupunun yaranması (mart 1992); 1992-1993-cü illərdə Azərbaycanla ATƏT arasındakı münasibətlərə lazımi diqqət göstərilməməsi.

Azərbaycanın xarici siyasətində ATƏT-lə əlaqələrdə yeni mərhələ (1993-cü ilin iyulundan sonrakı dövr); ATƏT sədri Marqaret af Uqlasın Bakıya səfəri (25 oktyabr 1993); ATƏT-in üzvləri tərəfindən Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ilə bağlı bəyanatın verilməsi (noyabr 1993); Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin ümumavropa təhlükəsizliyinin aktual məsələsinə çevrilməsi; ATƏT-in Budapeşt sammiti (dekabr 1994); Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr və xüsusi bir qətnamənin qəbul edilməsi; ATƏT-in Minsk qrupunun fəaliyyətində canlanma; Azərbaycan Respublikası tərəfindən ATƏT-in üzvü olan dövlətlərlə əlaqələrin intensivləşdirilməsi istiqamətində görülən işlər; ATƏT-in Lissabon sammiti ərəfəsində Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in üzvü olan dövlət başçılarına "Dağlıq Qarabağ probleminin həllinə Lissabonda ciddi yanaşmaq haqqında" məktubu; ATƏT-in Lissabon sammitində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Azərbaycanın mənafeyinə uyğun ATƏT sədrinin bəyanatı (3 dekabr 1996); ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransanın fəaliyyətində «Dağlıq Qarabağ problemi ilə bağlı ikili standart meyllərinin təzahürü (1997-ci ildən bu günə kimi); ATƏT-in sonrakı Zirvə görüşləri; ATƏT-in Minsk qrupunun fəaliyyətinin səmərəsizliyinin Azərbaycan dövlət və hökumət rəhbərləri tərəfindən vurğulanması.

Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda ATƏT-in yardımı.

Avropa Şurasının dünya proseslərində oynadığı rol; Azərbaycanın Avropa Şurasına üzv olması istiqamətində atdığı ilk addımlar; Azərbaycanın "xüsusi dəvət olunmuş qonaq statusu" almaq üçün Avropa Şurasına müraciəti (yanvar 1992); Ermənilərin səyi nəticəsində Avropa Şurasında Azərbaycanla bağlı yaranmış mənfi rəy; Avropa Şurasının Azərbaycanla bağlı mənfi mövqeyinin dəyişdirilməsi istiqamətində fəaliyyətin



başlanması; Avropa Şurası Nazirlər Komitəsinin erməni işğalçılarının Kəlbəcərdən çıxarılması haqqında bəyanatı (16 aprel 1993); Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanla Avropa Şurası arasında əlaqələrdə canlanma; Azərbaycan Respublikasının Konstitusiyasının və qanunvericilik aktlarının hazırlanmasında Avropa Şurası ekspertlərinin iştirakı; Avropa Şurası Parlament Assambleyasının nümayəndələrinin Azərbaycanda keçirilən parlament seçkisini və yeni Konstitusiyanın qəbulu ilə bağlı keçirilən referendumu müşahidə etməsi (noyabr 1995); Azərbaycan hökuməti ilə Avropa Şurasının Nazirlər Komitəsinin Strasburqda hökumətlərarası əməkdaşlıq proqramının hazırlanması (27-28 noyabr 1995); Azərbaycanın Avropa Şurasının bəzi hökumətlərarası komitələrinin işinə qoşulması və Avropa Şurasının keçirdiyi konfranslarda iştirak etmək hüququ əldə etməsi; Avropa Şurası ilə Azərbaycanın geniş əməkdaşlıq proqramının hazırlanması (5-6 iyun 1996); Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin «Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında» Sərəncamı (8 iyun 1996).

Avropa Şurası Parlament Assambleyasının bürosunda Azərbaycana «xüsusi dəvət olunmuş qonaq statusu»nun verilməsi haqqında qərarın qəbul olunması (28 iyun 1996);f Avropa Şurası Nazirlər Komitəsi sədrinin rəhbərliyi altında nümayəndə heyətinin Bakıya səfəri (12-14 iyul 1996).

Azərbaycanın Avropa Şurası ilə əməkdaşlıq münasibətlərində yeni mərhələ; Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul olunması və başqa dövlətlər kimi insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa konvensiyasına qoşulmaq haqqında məktubu (13 iyul 1996); Azərbaycan Prezidenti Heydər Əliyevin Strasburqda keçirilən Avropa Şurası üzv ölkələrin dövlət və hökumət başçılarının 2-ci Zirvə görüşündə iştirakı (10-11 oktyabr 1997).

Azərbaycan Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşməsi sahəsində tədbirlər haqqında" Sərəncamı (20 yanvar 1998); Avropa Şurası baş katibi Daniel Tarşisin başçılığı altın-da nümayəndə heyətinin Azərbaycana səfəri (avqust 1998); Avropa Şurasının nümayəndələrinin Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə etməsi (oktyabr 1998); Azərbaycanın hüquqi, demokratik dövlət quruculuğu istiqamətində həyata keçirdiyi tədbirlərin Avropa Şurası ekspertlərini qane etməsi; Azərbaycanın Avropa Şurasına üzv qəbul edilmə-si (2001-ci il); Azərbaycanın Avropa Şurasının tam hüquqlu üzvü kimi fəaliyyəti; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin iştirakı; Avropa Şurası baş katibi Valter Şvimmerin Azərbaycana səfəri (8 aprel 2004); Azərbaycan Prezidenti İ.Əliyevin AŞPA-nın yaz sessiyasındakı çıxışı (28-29 aprel 2004.

Avropa İttifaqının dünyada baş verən proseslərdə rolu; Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrini şərtləndirən amillər; Avropa İttifaqının Azərbaycandakı maraqları: 1993-cü ilə qədər Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərə lazımi diqqət verilməməsi; Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərin qurulması (27 fevral 1993); Avropa İttifaqı xətti ilə Azərbaycana humanitar yardımların edilməsi; Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin möhkəmlənməsi məqsədilə Prezident Heydər Əliyevin Belçikaya səfəri (17-18 aprel 1995); Səfər çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında «Əməkdaşlıq barəsində saziş»in imzalanması; Azərbaycanın ilkin mərhələdə bu birliyin cəlb olunan üzvü, daha sonra isə bərabərhüquqlu üzv olması istiqamətində danışıqlar (1995 aprel); Azərbaycanda ərzaq qıtlığının" aradan qaldırılmasında Avropa İttifaqının yardımı.

Azərbaycan Avropa İttifaqının «Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi» (TRASEKA) layihəsinin fəal iştirakçısı kimi: Avropa İttifaqı tərəfindən tarixi «İpək yolu»nun bərpası üzrə Bakıda keçirilən beynəlxalq konfrans ( 8-9 sentyabr 1998); Konfransda qəbul olunan sənədlər; Avropa İttifaqının TASİS proqramı çərçivəsində Azərbaycana texniki yardımların edilməsi; Avropa İttifaqının yardımı ilə Azərbaycanda yolların, körpülərin, limanların və s. inşası, rekonstruksiyası; Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişafı.

Azərbaycan Prezidenti İ.Əliyevin Avropa İttifaqının dəvəti ilə Brüsselə rəsmi səfəri və Azərbaycanla Avropa İttifaqı arasında «Partnyorluq və əməkdaşlıq haqqında» protokolun imzalanması (17-20 may 2004); «Yeni qonşuluq siyasəti» layihəsinin müzakirəsi.

NATO-nun yaranması və keçdiyi yol; Azərbaycan-NATO münasibətlərini şərtləndirən amillər; Azərbaycanın NATO ilə münasibətlərinin ilk təzahürləri (1992-1993).

Azərbaycanın NATO ilə münasibətlərində yeni mərhələ (1994-cü ildən sonrakı dövr); Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına üzv olması (4 may 1994) Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında fəal surətdə iştirakı; NATO-nun nümayəndə heyətlərinin Bakıya səfərlərinin intensivləşməsi; Azərbaycan Prezidenti Heydər Əliyevin Brüsseldə NATO-nun baş katibi Xavyer Salana ilə görüşü (23 aprel 1996); NATO-nun baş katibi Xavyer Salananın Bakıya səfəri (13 fevral 1997); Azərbaycan Prezidenti Heydər Əliyevin Avropa-Atlantika Əməkdaşlıq Şurasına üzv dövlətlərin sammitində iştirakı (iyul 1997); Bakıda NATO mütəxəssislərinin Azərbaycanın DİN, MTN və ARDNŞ nümayəndələri ilə boru kəmərlərinin təhlükəsizliyi məsələsi ilə bağlı seminarın keçirilməsi (1998-ci ilin yazı); Azərbaycan-NATO əlaqələrinin genişlənməsi ictimai təşkilatların xətti ilə; Azərbaycan-NATO münasibətlərində Türkiyənin rolu; Azərbaycan-NATO münasibətlərinin intensivləşməsi-nin Rusiya və İran üçün narahatlıq yaratması; Azərbaycan tağımı Bosniyada NATO qüvvələri tərkibində.

Azərbaycan Prezidenti İ.Əliyevin NATO-nun baş katibi Yaap de hoop Şxeffer ilə Brüsseldə görüşü (19 may 2004); Azərbaycanın «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planına» qoşulması.

Azərbaycan Prezidenti İ.Əliyevin NATO-nun İstanbulda keçirilən Zirvə görüşündə iştirakı (29 iyun 2004); Azərbaycan-NATO münasibətlərinin hazırkı durumu.

İslam Konfransı Təşkilatı. İslam Konfransı Təşkilatı müsəlman dövlətlərinin ən nüfuzlu təşkilatı kimi; Azərbaycanın İslam Konfransı Təşkilatına üzv olması (8 dekabr 1991)! İslam Konfransı Təşkilatı ilə əlaqələrin getdikcə intensivləşməsi; İslam Konfransı Təşkilatı baş katibi Həmid ol-Qabidinin Bakıya səfəri (25 noyabr 1992); İslam Konfransı Təşkilatı tərəfindən birmənalı şəkildə Ermənistanın təcavüzkar dövlət kimi tanınması; İKT-nin Kasablankada keçirilən 7-ci Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamə (13-17 dekabr 1994); Azərbaycan Prezidenti Heydər Əliyevin İKT liderləri ilə keçirdiyi görüşlər; İndoneziyanın paytaxtı Cakartada İKT-nin üzv dövlətlərinin xarici işlər nazirlərinin XXI konfransında Azərbaycanla bağlı 3 mühüm sənədin imzalanması (dekabr 1996); İKT-nin Tehranda keçirilən 8-ci Zirvə görüşü (9-11 dekabr 1997-ci il).

İKT-nin Azərbaycana iqtisadi və humanitar yardımları; İslam İnkişaf Bankının Azərbaycandakı fəaliyyəti; İKT-nin növbəti konfransında bu təşkilata üzv dövlətlərin təcavüzkar Ermənistana silah və hərbi sursat verməkdən qəti imtina edilməsi, onların ərazisindən bu məqsədlə tranzit kimi istifadə olunmaması tələbinin irəli sürülməsi; Azərbaycanın İslam Konfransı Təşkilatının fəal üzvünə çevrilməsi.

Beynəlxalq iqtisadi təşkilatların (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Ümumdünya Ticarət Təşkilatı və s.) beynəlxalq münasibətlərin formalaşmasına təsiri və rolu; Beynəlxalq iqtisadi qurumlarla əməkdaşlığın Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil etməsi; Azərbaycanın beynəlxalq iqtisadi qurumlara daxil olması; beynəlxalq iqtisadi qurumların postsovet məkanında yaranan yeni, müstəqil respublikalara qarşı güzəştli kredit siyasəti; Azərbaycanda bazar iqtisadiyyatına əsaslanan iqtisadiyyatın formalaşmasında beynəlxalq iqtisadi qurumların rolu; idarəetmədə struktur islahatların keçirilməsində beynəlxalq iqtisadi qurumların rolu; beynəlxalq iqtisadi qurumlarla əməkdaşlığın Azərbaycanda demokratik dövlət quruculuğuna xidmət etməsi; Azərbaycan və Dünya Bankı; Azərbaycan və Beynəlxalq Valyuta Fondu; Azərbaycan və Avropa İnkişaf və Rekonstruksiya Bankı; Azərbaycan və Ümumdünya Ticarət Təşkilatı.



## 16-cı mövzu
## Azərbaycan regional münasibətlər sistemində: ikitərəfli əlaqələr

Avrasiya ölkələrinin geosiyasi xarakteristikası və müasir beynəlxalq münasibətlər sistemində yeri; Avrasiyanın transmilli faktora çevrilməsini şərtləndirən əsas amillər; Avrasiyada dövlətlərarası və beynəlxalq münasibətlərin xarakterik xüsusiyyətləri, milli və transmilli maraqlar sistemi və onların təzahür formaları; SSRİ-nin dağılmasından sonra Avrasiyada yaranan regional və beynəlxalq münasibətlər.

2. Mərkəzi Asiya, Xəzər-Qara dəniz hövzəsi ölkələri müasir dünya siyasətində. Mərkəzi Asiyanın geosiyasi xarakteristikası və müasir beynəlxalq münasibətlərdə yeri; Mərkəzi Asiyanın əsas dövlətləri, onların daxili və xarici siyasəti. Avrasiyadakı rolu və müasir dünya siyasətindəki yeri; Mərkəzi Asiyada təsir dairəsi uğrunda regionun böyük dövlətlərinin, Avropa İttifaqı ölkələrinin və ABŞ-ın səyləri; Mərkəzi Asiya dövlətlərinin Rusiya, Çin, ABŞ, İran və Türkiyə ilə münasibətləri və bunun regional əlaqələrə təsiri;

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi xarakteristikası və müasir beynəlxalq münasibətlər sistemində yeri; hövzənin enerji ehtiyatları, nəqliyyat-kommunikasiya dəhlizləri uğrunda regional və beynəlxalq dairələrin mübarizəsi; milli, regional və transmilli maraqların müasir beynəlxalq münasibətlərə təsiri; regionun təhlükəsizlik məsələləri və dövlətlərarası münasibətlər, dünya dövlətlərinin demokratik transformasiya, qloballaşma və regional inteqrasiya siyasəti, regionun böyük və kiçik dövlətləri; ABŞ və Avropa İttifaqı ölkələrinin bölgədə Rusiya, Çin və İranla kəsişən maraqları və bunun regional münasibətlərə təsiri.

Rusiyanın Avrasiya siyasəti və Azərbaycan. SSRİ-nin dağılmasından sonra Rusiyanın Avrasiya regionunda yürütdüyü siyasət və onun regional münasibətlərə təsiri; Rusiyanın postsovet respublikalarının Qərblə əlaqələrinə münasibəti və bu istiqamətdə həyata keçirdiyi siyasət; Rusiyanın postsovet respublikalarının daxili və xarici siyasətinə, strateji seçimləri-nə təsiri, bu istiqamətdə istifadə etdiyi mexanizmlər və vasitələr; Rusiya və MDB-nin idarə edilməsi meylləri; Rusiyanın Cənubi Qafqazda yürütdüyü siyasət və Azərbaycanın bu sahədə yeri və rolu.

Rusiyanın postsovet məkanı və Qafqazdakı rolu, Azərbaycandakı maraqları; Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (4 aprel 1992); Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində tutduğu mövqe; Rusiya-Azərbaycan münasibətlərinin ilk mərhələsi (1991-1992-ci ilin mayı); AXC-Müsavat hakimiyyəti dövründə Rusiya ilə münasibətlər (may 1992 – iyun 1993); Rusiya ilə Azərbaycan arasında əsassız gərginliyin yaradılması; Heydər Əliyevin Azərbaycanda hakimiyyətə yenidən gəlişindən sonra Rusiya ilə münasibətlərin normallaşması istiqamətindəki fəaliyyəti (1993-cü ilin iyunundan sonrakı dövr); Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətindəki erməniyönlü fəaliyyəti; erməni lobbisinin Rusiyadakı fəaliyyəti və Rusiyanın Azərbaycanı nəqliyyat blokadasına alması (1994-1995); Rusiyanın Ermənistana 1 milyard dollar dəyərində silah verməsi; Rusiya-Azərbaycan münasibətlərində Qəbələ RLS və Xəzər problemi.

Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiyaya ilk rəsmi səfəri (2-4 iyul 1997) və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında «Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında» müqavilənin imzalanması; Azərbaycanın Rusiya ilə iqtisadi əməkdaşlığı; Rusiyanın LUKoyl şirkətinin Azərbaycandakı fəaliyyəti; Bakı-Novorossiysk neft kəmərinin istifadəyə verilməsi; Rusiyada Azərbaycan diasporasının təşkilatlanması; mədəni sahədə əməkdaşlıq; Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi öz fəaliyyətini gücləndirməsi.

Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ; Rusiya Federasiyasının prezidenti V.V.Putinin Azərbaycana rəsmi səfəri (9-10 yanvar 2001); Bakı Bəyannaməsi (9 yanvar 2001-ci il). Azərbaycan Prezidenti H.Əliyevin Rusiyaya növbəti rəsmi səfəri (24-26 yanvar 2002-ci il); Qəbələ RLS-in Rusiyaya icarəyə verilməsi haqqında sazişin imzalanması; Rusiya-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq istiqamətində inkişafını tənzimləyən çoxsaylı saziş və müqavilələrin imzalanması.

Azərbaycan Prezidenti İ.Əliyevin Rusiyaya rəsmi səfəri və Moskva bəyannaməsi (6 fevral 2004); «2005-ci ildə Rusiya Federasiyasında Azərbaycan ilinin, 2006-cı ildə Azərbaycanda Rusiya Federasiyası ilinin keçirilməsi haqqında» Azərbaycan Prezidenti İ.Əliyevin Sərəncamı (11 avqust 2004); iqtisadi-mədəni sahədə canlanma; Rusiya-Azərbaycan münasibətlərinin hazırkı durumu.

Türkiyənin Avrasiya siyasətinin mahiyyəti və xarakterik xüsusiyyətləri; Türkiyənin Mərkəzi Asiya və Cənubi Qafqazdakı fəaliyyətinə Qərb dövlətləri, Rusiya və İranın münasibətləri; Türkiyənin Avrasiya siyasəti və regionun türkdilli dövlətləri; Türkiyə və Xəzər-Qara dəniz hövzəsi ölkələrinin enerji siyasəti, təhlükəsizlik məsələləri; Avrasiyada Türkiyənin Rusiya və İranla

rəqabəti və onun spesifik xüsusiyyətləri; Türkiyənin Avrasiya siyasətində Azərbaycanın yeri və rolu.

Türkiyə - Azərbaycan münasibətlərində dil, din və etnik birlik amili, tarixi bağlılıq; Türkiyə Respublikasının Azərbaycanla bağlı beynəlxalq aləmdə və regionda nümayiş etdirdiyi mövqe; Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması (9 noyabr 1991); Türkiyə ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulması (14 yanvar 1992).

Türkiyə-Azərbaycan münasibətlərinin ilkin mərhələsi (oktyabr 1991 – may 1992); Türkiyə prezidenti Turqut Özalın Azərbaycana səfəri; Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin Türkiyəyə səfəri; AXC-Müsavat hakimiyyəti dövründə Türkiyə ilə münasibətlər (may 1992 – iyun 1993); Türkiyənin Azərbaycana iqtisadi, siyasi və humanitar yardımı; Türkiyənin iş adamlarının Azərbaycanda genişmiqyaslı biznes fəaliyyətinin başlanması; Türkiyənin blokada şəraitində olan Naxçıvana yardımı; beynəlxalq təşkilatlar çərçivəsində Türkiyə ilə Azərbaycanın birgə fəaliyyəti; Ermənistan-Azərbaycan münaqişəsində Türkiyənin birmənalı mövqeyi; Türkiyə ilə Ermənistan arasında münasibətlərin kəsilməsi və bunun əsas səciyyəvi xüsusiyyətləri.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələnin başlanması (iyun 1993 – 2003); Azərbaycanın qarşılaşdığı problemlərin həllində Türkiyənin yardımı; Heydər Əliyev-Süleyman Dəmirəl dostluğu və bunun dövlətlərarası münasibətlərə təsiri; Türkiyə ilə Azərbaycan arasında iqtisadi, siyasi, mədəni və hərbi sahədə münasibətləri tənzimləyən hüquqi-normativ bazanın yaradılması; Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri (8-10 fevral 1994); Türkiyə-Azərbaycan münasibətlərinin yüksələn xətlə inkişaf etməsi; Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsinin 3 dəfə artması (1994-1997); Heydər Əliyevin Türkiyəyə növbəti rəsmi səfəri (5-8 may 1997) zamanı «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası



arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında» bəyannamənin imzalanması; Azərbaycanın neft-qaz kəmərlərinin Türkiyəyə doğru istiqamətlənməsi.

Türkiyə prezidenti Əhməd Necdət Sezərin Azərbaycana rəsmi səfəri; Azərbaycanın xarici şirkətlərlə bağladığı neft-qaz müqavilələrində Türkiyənin iştirakı; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfəri və «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat»ın imzalanması (13-15 aprel 2004); Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı durumu.

İranın Avrasiya siyasəti və Azərbaycan. İranın dünyada və Avrasiya subregionunda mövqeyi və yürütdüyü siyasət; bölgənin böyük və kiçik dövlətləri ilə münasibətləri və bu münasibətlərin xarakterik xüsusiyyətləri; İranın Qərb dövlətləri və ABŞ-la münasibətləri və bunun dünya və region ölkələrinə təsiri; İranın Mərkəzi Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələri ilə əlaqələri və onun xarakterik xüsusiyyətləri; İranın dünya siyasətində və regionda mövqeyi; İran-Azərbaycan münasibətlərini şərtləndirən amillər; Azərbaycanın dövlət müstəqilliyinə İranın münasibəti; İranın Azərbaycanın dövlət müstəqilliyini tanıması (25 dekabr 1991) və diplomatik əlaqələrin qurulması (12 mart 1992); İranla münasibət məsələsində Azərbaycanın xarici siyasətində yekdil fikrin olmaması, fərqli yanaşmalar; AXC-Müsavat dövründə İranla münasibətlərdə soyuqluq.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin hakimiyyətə gəlişindən sonra İran-Azərbaycan münasibətlərində canlanma; İran prezidenti Haşimi Rəfsəncaninin Bakıya səfəri (26-28 oktyabr 1993); İranla Azərbaycan arasında ticarət-iqtisadi əlaqələrin inkişafında Azərbaycan-İran qarşılıqlı iqtisadi komissiyasının fəaliyyəti; İranın "Əsrin kontraktında iştirakı. İran İslam Respublikasının neft naziri Q.Ağazadənin Azərbaycana səfəri (15 noyabr 1994); İranın blokada şəraitində olan Naxçıvana köməyi.

Azərbaycan Prezidenti Heydər Əliyevin İrana rəsmi səfəri (29 iyun - 2 iyul 1994); iki ölkə arasında münasibətləri tənzimləyən hüquqi-normativ sənədlərin imzalanması.

İranın Ermənistan-Azərbaycan münaqişəsində tutduğu mövqeyi; Xəzərin statusu ilə bağlı İranın destruktiv mövqeyi; İranın Ermənistanla sıx əməkdaşlıq əlaqələrinin Azərbaycan-İran münasibətlərinə mənfi təsiri; İranın «Əsrin kontraktı»nı tanımamaq haqqında bəyanatı (aprel 1995); Naxçıvanda İranın baş konsulluğunun açılması; Təbrizdə Azərbaycan konsulluğunun açılması istiqamətində İranın ziddiyyətli mövqeyi; İranın Azərbaycana ABŞ və İsraillə əlaqələri kəsmək çağırışları; Azərbaycan-NATO münasibətlərinə İranın mövqeyi; Xəzər dənizinin Azərbaycana aid sektorundakı neft yataqlarının işlənməsinə İranın mənfi münasibəti.

Azərbaycan Prezidenti Heydər Əliyevin İrana rəsmi səfəri və iki ölkə arasındakı münasibətlərin yeni mərhələyə qalxması (18-20 may 2002-ci il); səfər çərçivəsində «Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında» müqavilə və bir sıra yeni sazişlərin imzalanması.

İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəminin Azərbaycana (5-7 avqust 2004) və Azərbaycan Prezidenti İlham Əliyevin İrana rəsmi səfərləri (24-26 yanvar 2005) və bağlanan çoxsaylı ikitərəfli müqavilələrin iki ölkə arasındakı münasibətləri yeni müstəviyə keçirməsi.

## 17-ci mövzu
## Avrasiya subregional inteqrasiyası və Azərbaycanın çoxtərəfli regional əlaqələri

Avrasiya subregionu dünya siyasətində; regionun ərazi, əhali və geosiyasi xarakteristikası; regionun böyük və kiçik dövlətləri, onların xarici siyasət oriyentasiyaları, beynəlxalq münasibətlərdə yeri və rolu; Avrasiya subregional inteqrasiyası,



onun xarakterik xüsusiyyətləri və əsas təşkilatları; Azərbaycanın Avrasiya subregional inteqrasiyasında iştirakı, problemlər və perspektiv imkanlar.

SSRİ-nin dağılması; 1991-ci il avqust putçu; müttəfiq respublikaların SSRİ-nin tərkibindən çıxması; Rusiya, Ukrayna və Belarus respublikaları tərəfindən Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması (8 dekabr 1991); MDB-nin təsis sənədləri; MDB-nin əsas orqanları; MDB qərarlarının qəbul qaydaları.

1991-1993-cü illərdə Azərbaycan Respublikasının MDB ilə münasibətləri; Azərbaycanın MDB-yə daxil olması (24 sentyabr 1993); MDB-nin güclü bir beynəlxalq və regional qurum kimi formalaşmasının çətinlikləri; MDB-də daxili problemlər; MDB dövlət başçılarının Moldovada keçirilən zirvə görüşündə MDB-nin fəaliyyətinin qeyri-səmərəliliyinin müzakirə edilməsi (22-23 oktyabr 1997); Azərbaycanın MDB dövlətləri ilə ticarət dövriyyəsinin azalması; MDB daxili birliklər (Rusiya-Belarus ittifaqı, KTM, Beşlər İttifaqı, GUÖAM və s.); MDB daxili iqtisadi əməkdaşlıq; MDB daxili hərbi əməkdaşlıq; Kollektiv Təhlükəsizlik sistemi; Azərbaycanın MDB-nin səmərəli beynəlxalq quruma çevrilməsi istiqamətindəki fəaliyyəti; MDB dövlət başçılarının Zirvə görüşləri; Azərbaycan Prezidenti İlham Əliyevin MDB ölkələrinin dövlət başçılarının Astana Zirvə toplantısında iştirakı və MDB-də islahatlar aparılması zərurəti ilə bağlı genişmiqyaslı proqram (15-16 sentyabr 2004).

Azərbaycan QDİƏT-in təsisçilərindən biri kimi (25 iyun 1992); QDİƏT-in güclü regional iqtisadi təşkilat kimi formalaşması; QDİƏT zirvə görüşlərinin keçirilməsi; Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin yaradılması (16-17 iyun 1993); Salonikdə Qara dəniz Ticarət və İnkişaf Bankının təsis olunması (1998-ci ilin əvvəli); QDİƏT-in Yaltada keçirilən Zirvə görüşündə QDİƏT-nin əsasnaməsinin qəbulu və Yalta bəyannaməsi( 5 iyun 1998); QDİƏT-in

fəaliyyətinin genişlənməsi; QDİƏT-in yaranmasının 10 illiyi münasibətilə İstanbulda keçirilən Zirvə toplantısı (24-25 iyun 2002).

Kollektiv Təhlükəsizlik Müqaviləsi (KTM)-in yaranması, tərkibi və fəaliyyətinin xarakterik xüsusiyyətləri; KTM-in MBD-nin digər dövlətləri ilə münasibətləri; KTM və Avrasiyada ümumi təhlükəsizlik məsələləri; Rusiya və digər KTM üzvlərinin xarici təhlükəsizlik qurumları ilə əlaqələri.

Rusiya-Belarusiya İttifaqı – yaranması, fəaliyyəti və əsas xarakterik xüsusiyyətləri; «Beşlər İttifaqı» - *yaranması, üzvləri* və fəaliyyətinin xarakterik xüsusiyyətləri, «Avr. As. İb» - yaranması, üzvləri və fəaliyyətinin xarakterik xüsusiyyətləri. «Şanxay Əməkdaşlıq Təşkilatı» (ŞƏT) - yaranması, üzvləri və fəaliyyətinin xarakterik xüsusiyyətləri; ŞƏT və müasir dünya siyasəti; ŞƏT-in beynəlxalq münasibətlərdə mövqeyi və ABŞ-Qərb siyasətinə münasibəti; «Avrasiya İqtisadi Birliyi» - yaranması, üzvləri və *fəaliyyətinin xarakterik xüsusiyyətləri*; «Mərkəzi Asiya İqtisadi Birliyi» (MAİB) - yaranması, üzvləri və fəaliyyətinin xarakterik xüsusiyyətləri; MDB tərkibində subregional inteqrasiyanın xarakterik xüsusiyyətləri və perspektiv imkanları.

GUAM-ın yaranmasını şərtləndirən amillər və fəaliyyətinin xarakterik xüsusiyyətləri; GUAM-ın əsas üzvləri və onların xarici siyasət *oriyentasiyası*; GUAM və *Rusiya*; GUAM-və ABŞ; GUAM və regionun digər böyük dövlətləri; GUAM-ın regional təhlükəsizlik və transmilli enerji layihələrinə baxışı və bunun beynəlxalq münasibətlərə təsiri; GUAM-ın mövcud fəaliyyəti və perspektiv imkanları; GUAM və Azərbaycan.

GUÖAM-ın yaranma zərurəti; Strasburqda GUAM-ın əsasının *qoyulması (1997-ci il)*; GUAM-ın transqafqaz magistralı istiqamətində iqtisadi fəaliyyəti; GUAM ölkələri arasında iqtisadi, siyasi və mədəni əlaqələrin daha da inkişafı; Özbəkistanın GUAM-a daxil olması (ABŞ,1999) və GUAM-ın GUÖAM-a çevrilməsi; GUÖAM katibliyinin yaradılması; GUÖAM-ın ciddi regional iqtisadi qurum kimi fəaliyyəti istiqamətindəki səylər; GUÖAM-ın Nyu-York sammiti (2000); Rusiyanın GUÖAM-a qarşı qısqanclığı, ABŞ-ın Avrasiyada yürütdüyü yeni siyasət və Özbəkistanın GUÖAM-ı tərk etməsi.

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) – yaranması, üzvləri və fəaliyyətinin spesifik xüsusiyyətləri; ECO və Avrasiyanın müsəlman dövlətlərinin inteqrasiya meylləri; Azərbaycanın ECO-ya üzv qəbul olunması (fevral 1992) və bölgənin müsəlman ölkələri ilə inteqrasiya cəhdləri; ECO-nun əsas sammitləri və Azərbaycanın iştirakı; ECO-nun Azərbaycandakı iqtisadi və sosial islahatlarda iştirakı.

Türkdilli Dövlətlər Birliyi (TDB)-nin yaranması, üzvləri və fəaliyyətinin spesifik xüsusiyyətləri; TDB və Avrasiyanın türkdilli dövlətlərinin inteqrasiya meylləri; Azərbaycanın TDB-yə üzv qəbul olunması (1992) və bölgənin türkdilli dövlətləri ilə inteqrasiya cəhdləri; TDB-nin əsas sammitləri və fəaliyyət istiqamətləri; TDB və Türkiyə; TDB və Rusiya münasibətləri; TDB-nin Avrasiya siyasəti və beynəlxalq münasibətlərdə siyasi faktora çevrilmək cəhdləri; TDB-nin perspektivləri və müasir dünya siyasətinə təsir imkanları; TDB və mədəni birlik amilləri; TÜRKSOY-un yaranması, üzvləri və türkdilli dövlətlərin mədəni inteqrasiyasında iştirakı.

## 18-ci mövzu
## Dünya ölkələrinin enerji siyasəti və Azərbaycanın yeni neft strategiyası

Dünyanın «üçüncü enerji anbarı» sayılan Azərbaycanın neft-qaz ehtiyatları.

Azərbaycan nefti uğrunda beynəlxalq mübarizənin yeni mərhələsinin başlanması: SSRİ-nin süqutu şəraitində Bakı neftinin xarici şirkətlərə konsessiyaya verilməsi planları. Azərbaycan neftinə nüfuz edən ilk xarici şirkət - «Remko»

(V.1989). Qorbin iri transmilli neft şirkətləri arasında tender (VI.1991). «AMO KO»nun uğuru və neft konsorsiumunun yaranması. Azərbaycan hökuməti ilə xarici neft şirkətləri arasında danışıqların (1991-ci ilin payızı – 1992-ci ilin əvvəli) nəticələri. Beynəlxalq neft müqavilələri və xarici orientasiya məsələləri. ARDNŞ ilə Konsorsiumun V və VI Memorandumları (9.XI.1992; 6.V.1993) və Bəyannaməsi (10.VI.1993). Əsas neft müqaviləsinin iyun variantı və onun aqibəti. H.Əliyevin danışıqların dondurulması haqqında qərarı (25.VI.1993) və konsorsiumun narazılığı.

Azərbaycan neftini Dağlıq Qarabağ probleminin həlli ilə bağlamaq planları və cəhdləri. Neft müqaviləsinə dair London (1993, noyabr) variantı, Bakı və İstanbul danışıqları (1994).

Azərbaycan neftinə dair ilk beynəlxalq müqavilə (20.IX.1994). «Əsrin müqaviləsi»nin əsas iqtisadi-texniki göstəriciləri. Müqavilənin əhəmiyyəti. Müqaviləyə dair ölkədaxili rəylər («Neft diplomatiyası»nın ilk böyük uğuru; Azərbaycanın maraqları baxımından geriləmə) və beynəlxalq mövqelər (Rusiyanın ziddiyyətli münasibəti; Türkiyənin incikliyi; İranın onu tanımaması).

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) yaradılması. Beynəlxalq ikinci («Qarabağ») neft müqaviləsi (10.XI.1995). Üçüncü («Şahdəniz») müqaviləsində (4.VI.1996) AR-in diplomatik maraqları. Dördüncü («Şimali Abşeron» və ya «Dan ulduzu/əşrəfi») müqavilə (14.XII.1996) - Yaponiya sərmayəsinə yol. Beşinci («Lənkəran-dəniz/Talış-dəniz») kontrakt (13.I.1997) və AR-in Fransa ilə bağlı siyasi maraqları.

İngiltərə ilə münasibətlər. Dövlətlərarası əlaqələrin tarixi təcrübəsi və müasirlik. Tərəflərin əməkdaşlığını şərtləndirən amillər.



## 19-cu mövzu
## Azərbaycanın beynəlxalq mövqeyinin gücləndirilməsində enerji siyasətinin rolu

Dünyanın müasir sənaye sivilizasiyasının enerji tələbatı və dünyanın enerji resursları uğrunda mübarizənin kəskinləşməsi; dünyanın mövcud enerji ehtiyatları, tələbatı, istehsalı və istehlakının vəziyyəti; Azərbaycanın dünyanın müasir enerji siyasətində yeri və rolu; Xəzər regionunun müasir dünyanın geosiyasətindəki rolu və yeri; enerji mənbələri, satış bazarları və təhlükəsiz enerji dəhlizləri məsələsi müasir dünya siyasətində; Rusiya və Avrasiya bölgəsinin enerji mənbələri, dəhlizləri və satış bazarları uğrunda mübarizə; Qərb dövlətlərinin Avrasiyanın enerji siyasətinə təsiri; Azərbaycanın enerji siyasəti, Qərb dövlətləri və regionun böyük ölkələri.

«Əsrin müqaviləsi», Xəzərin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və Azərbaycanın beynəlxalq əhəmiyyətinin artması; Azərbaycanın öz təbii sərvətlərinə sahiblik və ondan sərbəst istifadə edilməsi uğrunda mübarizəsi; Qərb ölkələrinin Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsinə cəlb edilməsi və regionun böyük dövlətlərinin buna münasibəti; Azərbaycanın yeni neft strategiyasının mahiyyəti, əsas şərtləri və məqsədləri; yeni neft strategiyasının reallaşması, beynəlxalq və regional reaksiya, problemlər və nəticələr; yeni neft strategiyasının Azərbaycanın Rusiya və İranla münasibətlərinə təsiri.

Xəzərin təbii ehtiyatları və müasir dünyanın enerji ehtiyatlarına artan tələbatı; transmilli, regional və milli maraqların təmin edilməsində Xəzər neftinin və təbii qazının rolu; Qərb ölkələrinin Xəzərin təbii ehtiyatlarının mənimsənilməsinə yönəlmiş transmilli layihələri; Rusiya və İranın Xəzərin təbii ehtiyatlarının transmilli istifadəsinə münasibəti; Xəzər nefti və region ölkələrinin milli maraqlarının təmin olunması; Xəzərin hüquqi statusu: əsas yanaşmalar: və

onları şərtləndirən amillər; Xəzərin hüquqi statusu, transmilli, regional və milli maraqların kəsişməsi; Xəzərin hüquqi statusu və Avrasiya regionunda təsir dairəsi uğrunda mübarizə; Xəzər neftinin Azərbaycanın Rusiya, İran, Qərb dövlətləri və regionun digər ölkələri ilə münasibətlərinə təsiri; Xəzərin hüquqi statusu Azərbaycanın milli maraqları və xarici siyasətinin əsas məsələsi kimi.

Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məsələsi: əsas mövqelər, onları şərtləndirən amillər; Rusiyanın, İranın, Qərb və regionun ölkələrinin əsas ixrac boru kəməri: ətrafında kəsişən maraqları və mövqe mübarizələri; iqtisadi, siyasi, kommersiya maraqları və onların uzlaşdırılmasına göstərilən cəhdlər; Azərbaycanın ixrac siyasəti və əsas neftin nəqlinə yanaşması; Azərbaycanın Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəmərlərinin inşası sahəsində həyata keçirdiyi tədbirlər və bunun beynəlxalq, regional münasibətlərə təsiri; Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ-ın birgə mövqeyi və onun reallaşdırılması siyasəti; Mərkəzi Asiya dövlətləri, Çin, Avropa ölkələri və regionun digər dövlətlərinin Xəzər neftinin və qazının ixrac marşrutlarına münasibəti və onu şərtləndirən əsas amillər; Azərbaycanın neft strategiyasının reallaşmasında Heydər Əliyev diplomatiyasının rolu.

Azərbaycanın enerji siyasətinin mahiyyəti, onu şərtləndirən amillər və həyata keçirilməsinin milli, regional və transmilli əhəmiyyəti; enerji siyasətinin Azərbaycanın beynəlxalq mövqeyinə təsiri; enerji siyasətinin Azərbaycanın regional mövqeyinə təsiri; Azərbaycan-Gürcüstan, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında enerji siyasətinin rolu; Azərbaycanın enerji siyasətinin Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həllinə təsiri; enerji siyasəti və Azərbaycan-ABŞ münasibətləri.



## 20-ci mövzu
## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın təhlükəsizlik problemləri

Azərbaycanın təhlükəsizlik problemləri, onun həlli istiqamətində həyata keçirilən milli siyasət; milli təhlükəsizlik, suveren dövlət hüquqları və ərazi bütövlüyü məsələləri.

Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tarixi kökləri, mahiyyəti və həyata keçirilməsinin xarakterik xüsusiyyətləri; ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, bunu təşkil edən dövlətlər və onların məqsədləri (1804-1813; 1826-1828 müharibələrinin gedişində, XIX əsrin sonu - XX əsrin əvvəllərində); erməni millətçilərinin böyük Ermənistan xülyaları və onun reallaşdırılması məqsədilə həyata keçirdikləri tədbirlər; Rusiyada bolşevik inqilabının qələbəsindən sonra Cənubi Qafqaz və Anadoluda yaranmış vəziyyət və erməni millətçilərinin işğalçılıq fəaliyyəti; Sovet hakimiyyətinin ilk illərində və sonrakı dövrdə erməni millətçilərinin fəaliyyəti; SSRİ rəhbərliyinin antiazərbaycan siyasəti və erməni millətçilərinə dəstəyi (1924; 1947-1948; 1953-cü il qərarları və s.)

80-ci illərdə SSRİ-də həyata keçirilən yenidənqurma siyasəti və erməni separatizminin başlanması; SSRİ rəhbərliyinin loyal siyasəti və Dağlıq Qarabağda separatçı hərəkatın genişlənməsi; Ermənistan-Azərbaycan münaqişəsinin başlanması və SSRİ rəhbərliyinin ermənipərəst siyasəti; Azərbaycan torpaqlarının işğalının başlanması və əhalinin deportasiyası; SSRİ-nin dağılması və Ermənistan-Rus qoşunlarının Azərbaycanın 20% torpaqlarını işğal etməsi; Xocalı soyqırımı və etnik təmizləmə siyasəti; Azərbaycanın xarici siyasətinin əsas problemi.

Azərbaycanın xarici siyasət fəaliyyəti; Azərbaycan torpaqlarının işğalı və onun nəticələri; Azərbaycan rəhbərliyinin Ermənistanın işğalçılıq siyasətinə qarşı beynəlxalq mübarizəsi; məsələnin BMT səviyyəsinə çıxarılması; BMT Təhlükəsizlik

Şurasının 7 bəyanatı və 4 qətnaməsinin qəbul olunması (822, 853, 874, 884 iyul-noyabr 1993).

Ermənistanın işğalçılıq siyasətinin ATƏT səviyyəsinə çıxarılması üçün Azərbaycan rəhbərliyinin fəaliyyəti; ATƏT-in Helsinki sammiti (iyul 1992) və Azərbaycanın sammitdəki fəaliyyəti; ATƏT-in Nazirlər Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair (Minsk Konfransının çağırılması haqqında) qərarı (24 mart 1992) və Sülhməramlı Qüvvələrin tərkibi ilə bağlı fikir ayrılıqları; ATƏT-in Budapeşt sammiti (1994) və Azərbaycan rəhbərliyinin Sülhməramlı Qüvvələrlə bağlı iradəsi; ATƏT-in Lissabon sammiti (1996) və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı əsas prinsiplərin müəyyən olunması; Ermənistan-Azərbaycan münaqişə bölgəsində atəşkəsə nail olması (1994) və Minsk qrupunun fəaliyyəti; həmsədrlik institutunun yaradılması, fəaliyyəti və münaqişənin həlli ilə bağlı təkliflərin hazırlanması.

İslam Konfransı Təşkilatı və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi; Avropa Şurasının münaqişə ilə bağlı mövqeyi və Azərbaycan nümayəndə heyətinin fəaliyyəti; Avropa İttifaqının münaqişəyə yanaşması və onun həlli istiqamətində göstərdiyi fəaliyyət; Avropa Parlamenti və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi; digər beynəlxalq və regional təşkilatların münaqişənin həlli ilə bağlı mövqeləri və fəaliyyətləri haqqında.

## 21-ci mövzu
## Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığına son qoymaq uğrunda diplomatik mübarizə

Münaqişənin həllində beynəlxalq təşkilatların iştirakına münasibət məsələsinə dair mövqelər (baxışlar). Problemin BMT, yoxsa ATƏT çərçivəsində çözülməsi ətrafında müzakirələr.

BMT-nin münaqişənin tənzimlənməsi sahəsində fəaliyyəti: Ermənistanın təcavüzünə məruz qalan Azərbaycanın BMT-yə müraciətləri. BMT Baş Katibinin təmsilçisi S.Vensin Bakıya səfəri (III.1992). BMT Təhlükəsizlik Şurasında (TŞ) "Dağlıq Qarabağda vəziyyətə dair" müzakirələr və onun sədrinin bəyanatları (12.V, 26.VIII, 27.X.1992; 29.I, 6.IV, 18.VIII.1993). BMT Baş Katibinin məruzəsi (14.IV.1993).

BMT TŞ-nin qətnamələri: 822 saylı (30.IV.1993), 853 saylı (29. VII. 1993), 874 saylı (14.X.1993), 884 saylı (11.XI.1993). Qətnamələrin müsbət cəhətləri və qüsurlu məqamları.

BMT Baş Katibi B.Qalinin Bakıya səfərində Dağlıq Qarabağla bağlı müzakirələr. Baş Katib BMT qətnamələrinin prinsipləri və problemin həlli sahəsindəki vəzifələr barədə. Qalinin tövsiyələri. BMT TŞ-də "Dağlıq Qarabağda vəziyyətə dair" növbəti müzakirə (26.IV.1995).

Münaqişənin ATƏT vasitəsi ilə həllinə dair səylər: ATƏM-in Bakıya xüsusi missiyası (II.1992). Problemin ATƏM strukturlarında (YVŞK, XİNŞ) müzakirəsi (II-V.1992). Dağlıq Qarabağa dair Minsk Konfransı (MK) məsələsi. Minsk Qrupunun (MQ) fəaliyyəti: Roma danışıqları (VI-VII.1992; II.1993). Alma-ata Bəyannaməsi (27.VIII.1992) və İcevan protokolu (3.IX.1992). MQ-nin mandatı (I.III.1993). YVŞK-nın Praqa müşavirəsi (IV.1993). Roma görüşü (VI.1993) və «Doqquzlar»ın «Təxirəsalınmaz tədbirlər cədvəli». Minsk Qrupunun Roma (9.VIII.1993) və Paris (28.IX.1993) məsləhətləşmələrində «Cədvəl»in müzakirəsi. «Paris cədvəli». ATƏM-in sədri M.Uqlasın münaqişə bölgəsinə səfəri (25.X.1993). Minsk Qrupunun Vyana Bəyanatı və «Vyana Cədvəli»nin (XI.1993) müsbət cəhətləri və qüsurlu məqamları. ATƏM-Rusiya ixtilafları. MQ-nin Praqa görüşü (11-15.IV.1994) və «Etimadı möhkəmləndirmək tədbirləri». MQ-nin Vyana görüşləri (7-8.VII və 17.X.1994). Bölgəyə beynəlxalq sülhməramlı qüvvələr göndərilməsi qərarı və onun Ermənistan tərəfindən əngəllənməsi.

ATƏM (ATƏT)-in Budapeşt sammiti (5-6.XII.1994) və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi»sənədi (5.XII.1994). MQ-nin Stokholm (6-7.IV.1995), Helsinki və Baden (VI-VII.1995), Moskva (3-9.IX.1995, 9-14.I.1996) görüşləri. ATƏT-in sədri F.Kottinin regiona səfərinin (II.1996) nəticələri. MQ-nin Moskva (15-18.VI.1996), Stokholm (1-5.VII.1996), Helsinki (XI.1996) məsləhətləşmələri.

ATƏT-in Lissabon sammitində (2-3.XII.1996). Ermənistan-Azərbaycan diplomatik qarşıdurması. Zirvə toplantısının yekun sənədinin 20-ci maddəsi. F.Kottinin bəyanatı – 3 prinsipi. Sammitin Azərbaycan üçün nəticələrinə dair mövqelər.

MQ-də həmsədrik uğrunda mübarizə. MQ-nin Moskva görüşü (1-5.IV.1997). MK və MQ həmsədrlərinin münaqişə bölgəsinə səfərlərinin (VI-VIII.1997) nəticələri. Münaqişənin həllinə dair MQ-nin təklifləri: «Paket həll modeli» (18.VII.1997), "Mərhələli plan» (2.XII.1997), «Ümumi dövlət» (7.XI.1998). Azərbaycan parlamentində Dağlıq Qarabağ probleminə dair müzakirələr (23-24.11.2001).

ATƏT XİNŞ-in Kopenhagen görüşündə (17-18.XII.1997) "Konsensus minus 1" prinsipi və Azərbaycan. Ermənistanın tələbləri. ATƏT-in İstanbul Deklarasiyası (19.XII.1999) və Azərbaycan. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Paris (111.2001) və Ki-Uest (IV.2001) danışıqları.

Münaqişənin ATƏT vasitəsi ilə tənzimlənməsinin nəticəsizliyi və onu şərtləndirən amillər.

NATO və Dağlıq Qarabağ münaqişəsi: NATO qərargahında AR təmsilçiləri ilə Qarabağ məsələsinin müzakirəsi (19.II.1992). NATO Şurası Brüssel Bəyannaməsinin (I.1994) Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyünü tanıması. AR-in SNT Proqramına qoşulmasında «Qarabağ amili»nin rolu. «NATO-nun Şərqə doğru genişlənməsi Azərbaycanın ərazi bütövlüyünün təminatının şərtidir» tezisinə dair mövqelər.



Avropa Şurası (AŞ) strukturlarının Dağlıq Qarabağa dair bəyanatları (5.II.1992; 12.III, 16.IV.1993) və məsləhətləşmələri (24-28.I; 4-11.VII.1994). AŞ Parlament Assambleyasının «Dağlıq Qarabağda münaqişəyə dair» (10.XI.1994, 1047 saylı) və «Güney Qafqazda münaqişələrə dair» (22.IV.1997, 1119 saylı) qətnamələri. Onların Azərbaycanın mənafeyinə zidd xarakteri. AŞ-nin Cənubi Qafqazda münaqişələrlə əlaqədar seminarı (Strasburq, 26.I.1996). AŞ-nin DQ üzrə məruzəçisi T.Devisin regiona səfəri (IV.2003).

Avropa Birliyinin (AB) Dağlıq Qarabağ məsələsi ilə bağlı bəyanatları (7.IV, 3.IX, 9.XI.1993) və onların qüsurlu cəhətləri. Avropa Parlamentində münaqişəyə dair məsləhətləşmələr. AB və AŞ-nin Qafqaza dair regional iqtisadi inkişaf planları və siyasi maraqları.

İslam Konfransı Təşkilatı (İKT) və Ermənistan-Azərbaycan münaqişəsi (müharibəsi): Ermənistanın Azərbaycana təcavüzünün İKT strukturları və toplantıları tərəfindən pislənməsi (VI.1992; IV.1993). İKT XİN-ləri XXI konfransının (Kəraçi, IV.1993) və İKT fövqəladə sessiyasının (İslamabad, IX.1994] Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamələri. İKT Baş Katibi Həmid əl-Qabidin Bakı görüşlərində Dağlıq Qarabağla bağlı müzakirələr. VII (Kasablanka, 13-14.XII.1994) Zirvə konfransının Ermənistan-Azərbaycan münaqişəsi üzrə qətnaməsinin başlıca məqamları. İKT XİN-ləri XXIV konfransı (Cakarta, 9-13.XII.1996) və İKT VIII (Tehran, 8-11.XII.1997) sammitinin Ermənistan Respublikasının AR-ə qarşı təcavüzü haqqında qətnamələri. Tehran Bəyannaməsinin 8-ci maddəsi. İKT Doxa sammitinin (XI.2000) AR-ə dair qətnamələri.

# Mühazirələrin təxmini planları

**1-ci mövzu**
**Azərbaycan Xalq Cümhuriyyəti (AXC) diplomatiyasının ilk addımları**

1. AXC-nin xarici siyasətinin əsas vəzifələri, istiqamətləri və prinsipləri
2. Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq (Batumi) müqaviləsi.
3. İstanbul konfransı məsələsi və Azərbaycan. Ə.Topçubaşının İstanbula diplomatik missiyası

**2-ci mövzu**
**Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda diplomatik mübarizə**

1. Ermənilərin Azərbaycana qarşı əsassız ərazi iddiaları və türk-müsəlman soyqırımı siyasəti.
2. Azərbaycan diplomatiyasının ermənilərin əsassız ərazi iddiaları və hərbi təcavüzünün dəf olunması sahəsindəki səyləri.
3. Erməni-azərbaycanlı münaqişəsi və Qərb dövlətlərinin ikili mövqeyi.

**3-cü mövzu**
**Azərbaycan Paris (Versal) Sülh konfransında**

1. Azərbaycan diplomatiyasının konfransdakı məqsədləri və ona hazırlıq tədbirləri.
2. Azərbaycan istiqlalının tanınması uğrunda mübarizə: çətinliklər və uğurlar.
3. Azərbaycanın ərazi bütövlüyü məsələsi ətrafında diplomatik çəkişmələr.



**4-cü mövzu**
**Azərbaycan-Rusiya münasibətləri və Aprel işğalı**

1. AXC-nin süqutunu şərtləndirən xarici amillər.
2. Azərbaycanın Rusiya tərəfindən yenidən işğalını dəf etmək sahəsindəki diplomatik səylər.
3. Böyük və qonşu dövlətlərin AXC-nin süqutuna münasibəti.

**5-ci mövzu**
**Formal müstəqillik dövründə Azərbaycanın beynəlxalq durumu**
*(aprel 1920 – dekabr 1922-ci illər)*

1. Beynəlxalq konfranslarda Azərbaycan nefti uğrunda çəkişmələr.
2. Rusiya ilə münasibətlərin xarakteri.
3. Qonşu dövlətlərlə münasibətlərdəki başlıca problemlər

**6-cı mövzu**
**Azərbaycan diasporası və siyasi mühacirətinin dövlətçiliyimizin bərpası uğrunda mübarizəsi**
*(20-80-ci illər)*

1. Ümumqafqaz və rus mühacirəti ilə əməkdaşlıq: məqsədlər, ixtilaflar, nəticələr (20-30-cu illər).
2. Azərbaycanın müstəqilliyinin faşist Almaniyası tərəfindən tanınması istiqamətindəki cəhdlər.
3. Sovet cəmiyyətindəki «mülayimləşmə» və «yenidənqurma»dan bəhrələnmək səyləri.

**7-ci mövzu**
**Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması**

1. Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması

2. Azərbaycanın müstəqilliyinin bərpa olunması.

3. Azərbaycanın qlobal iqtisadi, siyasi, təhlükəsizlik problemləri.

**8-ci mövzu**
**Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması və inkişafı**

1. Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri
2. Azərbaycanın xarici siyasət prioritetləri
3. Azərbaycanın xarici siyasət resursları və mexanizmləri.

**9-cu mövzu**
**Azərbaycan və Şimali, Mərkəzi və Cənubi Amerika ölkələri**

1. Azərbaycan-ABŞ münasibətləri
2. Azərbaycan-Kanada münasibətləri
3. Azərbaycanın Mərkəzi və Cənubi Amerika ölkələrit ilə münasibətləri.

**10-cu mövzu**
**Azərbaycan və Avropa ölkələri**

1. Azərbaycan-Fransa münasibətləri
2. Azərbaycan-Böyük Britaniya münasibətləri
3. Azərbaycan-Almaniya münasibətləri və s.

**11-ci mövzu**
**Azərbaycanın xarici siyasətində Asiya istiqaməti**

1. Azərbaycanın xarici siyasəti və Asiya ölkələri
2. Şərqi və Cənub-Şərqi Asiya, Sakit okean hövzəsi ölkələri və Azərbaycan
3. Azərbaycanın Cənubi Asiya dövlətləri ilə beynəlxalq əlaqələri.



**12-ci mövzu**
**Yaxın və Orta Şərq dövlətləri və Azərbaycan**

1. Azərbaycanın xarici siyasətində Yaxın və Orta Şərq dövlətləri
2. Azərbaycan-İordaniya, Səudiyyə Ərəbistanı, Suriya, İraq əlaqələri və münansibətləri
3. Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Livan, Qatar, Küveyt, İsrail əlaqələri və münasibətləri.

**13-cü mövzu**
**Azərbaycanın xarici siyasətində Afrika ölkələri**

1. Azərbaycanın xarici siyasəti və Afrika ölkələri
2. Afrikanın müsəlman ölkələri ilə Azərbaycanın münasibətləri
3. Afrika qitəsinin qeyri-müsəlman ölkələri ilə münasibətlər.

**14-cü mövzu**
**Azərbaycanın MDB dövlətlərilə münasibətləri**

1. MDB üzvü olan digər dövlətlərin və Baltikyanı ölkələrin Avrasiya siyasəti və Azərbaycanla münasibətləri
2. Azərbaycanın Cənubi Qafqaz dövlətləri ilə əlaqələri
3. Azərbaycanın xarici siyasətində Orta Asiya dövlətləri.

**15-ci mövzu**
**Azərbaycanın dünya dövlətləri ilə əlaqələrində beynəlxalq təşkilatların rolu**

1. Azərbaycan-BMT əlaqələri.
2. Azərbaycan-ATƏT əlaqələri.
3. Azərbaycan-Avropa Şurası, Azərbaycan-Avropa İttifaqı, Azərbaycan-NATO əlaqələri.

## 16-cı mövzu
## Azərbaycanın regional münasibətlər sistemində ikitərəfli əlaqələr

1. Region ölkələri və Azərbaycan.
2. Rusiyanın Avrasiya siyasəti və Azərbaycan.
3. Türkiyənin Avrasiya siyasəti, İranın Avrasiya siyasəti və Azərbaycan.

## 17-ci mövzu
## Avrasiya subregional inteqrasaiyası və Azərbaycanın çoxtərəfli regional əlaqələri

1. Müstəqil Dövlətlər Birliyi və Azərbaycan.
2. Azərbaycan və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı.
3. GUAM-Avrasiya subregional inteqrasiyanın yeni modeli kimi.

## 18-ci mövzu
## Dünya ölkələrinin enerji siyasəti və Azərbaycanın yeni neft strategiyası

1. «Əsrin müqaviləsi» və digər neft sazişləri uğrunda mübarizə.
2. Xəzərin statusu və neftin nəqli ətrafında diplomatik çəkişmələr.
3. «Neft diplomatiyası»nın ilkin nəticələri

## 19-cu mövzu
## Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsində enerji siyasətinin rolu

1. Enerji resursları dünyanın müasir geosiyasətində.
2. Azərbaycanın enerji siyasəti, Qərb dövlətləri və regionun böyük ölkələri.



3. Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsində enerji siyasətinin rolu.

## 20-ci mövzu
## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın təhlükəsizlik problemləri

1. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri haqqında.
2. ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti.
3. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və münaqişənin BMT Təhlükəsizlik Şurasında müzakirəsi.

## 21-ci mövzu
## Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığına son qoymaq uğrunda diplomatik mübarizə

1. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair qətnamələri.
2. Münaqişənin həlli sahəsində ATƏT-in fəaliyyəti: Minsk qrupu, Budapeşt və Lissabon sammitləri.
3. Digər beynəlxalq və regional təşkilatların səyləri.

## Məşğələlərdə müzakirə və öyrənilmək üçün tövsiyə olunan məsələlər (suallar), onlara dair qaynaqlar və ədəbiyyat

Fənnə dair məşğələlərin aparılmasına əvvəlki (standart) yanaşmadan – ümumi məsələlərdən (suallardan) ibarət planlar əsasında keçirilən seminarlardan fərqli üsulla üstünlük verilmişdir. Belə ki, mövzuya dair çoxlu konkret suallar (məsələlər) müzakirə-diskussiya üçün tövsiyə edilir. Müzakirə üçün məsləhət bilinən məsələlərin arasından konkret hansıların seçilməsində-müəyyənləşdirilməsində mövqelərinin (təkliflərinin) nəzərə alınması faydalı və məqsədəmüvafiqdir.

Seçinarlara ayrılan saatların azlığı üzündən bəzi mövzuların birləşdirilməsi lazım gəlir.

Mövzulara dair minimum konkret qaynaqlar və ədəbiyyat da tövsiyə olunur. Bu zaman bilavasitə mənbələrin öyrənilməsi və müzakirəsinə üstünlük verilməsi məsləhət görülür.

### 1-ci mövzu
### Azərbaycan Xalq Cümhuriyyəti (AXC) diplomatiyasının ilk addımları

- Birinci dünya müharibəsi dövründə böyük dövlət qruplaşmalarının Azərbaycandakı strateji maraqları.
- XX yüzilliyin əvvəlində Osmanlı dövlətinin Qafqaz siyasətində Azərbaycan amili.
- Ərzincan barışığı, Trabzon, Batum konfransları və Azərbaycan.
- «İstiqlal Bəyannaməsi» və AXC-nin xarici siyasətinin əsas vəzifələri, istiqamətləri, prinsipləri.
- Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq (Batumi) müqaviləsi və ona əlavə sazişlər.
- Azərbaycan-Osmanlı yaxınlaşması və Almaniyanın mövqeyi.



- Dördlər İttifaqı ilə Qafqaz dövlətlərinin İstanbul konfransı məsələsi.
- Ə.Topçubaşının İstanbula diplomatik missiyası.
- Ə.Topçubaşının Antanta ölkələrinin İstanbuldakı fəxri nümayəndələrinə Memorandumu.
- Mudros müqaviləsinin Azərbaycan üçün nəticələri.

* * *


- Türk-Alman ittifaqı, 2.VIII.1914. – K.Kurat. Türkiye ve Rusiya. Ankara, 1990, s.631-632.
- Azerbaycan ilə Devleti-Aliyye arasındakı müahede, 4.VI.1918. Azerbaycan ile muahede (ilave). Azerbaycanın Türkiyeden askeri mudahale istemesi. – Baxın: İ.Musayev. Azerbaycan-Türkiye ilişkileri (1917-1922). Bakı, 1998, s.57-66.
- Erzincan Mütarekesi, 5/18.XII.1917. – Barxk: İ.Musayev, Azerbaycan-Türkiye ilişkileri (1917-1922). Bakı, 1998, s.72.
- А.М.Топчибашев. Меморандум... (XI.1918 г.). Баку, 1993.
- Rusiyada birinci müslüman konqresi tutanakları. Ankara, 1990.
- А.М.Топчибашев. Дипломатические беседы в Стамбуле (1918-1919 гг.). Баку, 1994.
- K.Kurat. Türkiye ve Rusya. Ankara, 1990, VII-XIII bölümlər.
- E.Şahin. Trabzon ve Batum konferansları ve Anlaşmaları (1917-1918). Ankara, 2002.
- C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı, 1993, I və II fəsillər.
- Azərbaycan Xalq Cümhuriyyəti, 1918-1920. Bakı, 1998, I və II fəsillər.
- N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, I və II fəsillər.
- İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, I fəsil.

- А.Балаев. Азербайджанское национально-демократическое движение, 1917-1920. Баку, 1990.
- Ə.Şahverdiyev. Brest-Litovsk sülhünün Zaqafqaziya-Osmanlı münasibətlərinə təsiri. – AXC-80. Bakı, 1998, s.107-113.
- K.Məmmədov. Mudros barışığı və Azərbaycan məsələsi. AXC-80. Bakı, 1998, s.114-118.
- А.Сафарова. О предъявленной А.М.Топчибашевым ноты протеста против 2-х пунктов Мудросского перемирия. – «Tarix və onun problemləri», 1999, №3.

## 2-ci mövzu
## Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü uğrunda diplomatik mübarizə

- Rusiyanın Qafqazdakı ermənipərəst siyasəti: Paskeviçdən Sazonova qədər.
- Ermənilərin Azərbaycana qarşı əsassız ərazi iddiaları və türk-müsəlman soyqırımı siyasəti.
- İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsinə dair.
- Azərbaycana Osmanlı hərbi yardımının nəticələri.
- Araz-Türk Respublikasının yaradılması – AXC-nin ərazi bütövlüyünün təminatı kimi.
- İngilislərin Cənub-Qərbi Azərbaycana (Qarabağ-Zəngəzur-Naxçıvan mahallarına) dair mövqeyindəki ziddiyyətlər.
- AXC Qarabağ general-qubernatorluğunun yaradılması ilə bağlı Ermənistanla «diplomatiya müharibəsi».
- Azərbaycanın İrəvandakı diplomatik nümayəndəliyinin fəaliyyəti.
- Məmməd Xan Təkinski görkəmli diplomat kimi.
- Haskelin layihələri və Naxçıvan bölgəsində Amerika general-qubernatorluğu məsələsi.
- Azərbaycan-Ermənistan sazişi və azərbaycanlı-erməni konfransı.



* * *

- Paris Sülh konfransına Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin tələbləri. – ADR: tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. Bakı, 1992, s.162-190.
- А.М.Топчубашев. Меморандум... Баку, 1993.
- А.Щепотьев. Доклад о спорных Кавказских территориях, на которые имеет права самоопределившиеся Азербайджанские тюрки. – Azərbaycan EA Xəbərləri. «Tarix, fəlsəfə və hüquq» seriyası, 1990, №2, n.42-61.
- «Azərbaycan arxivi» jurnalı, 1988, №1-2.
- Arşiv belgelerine görə Kafkazlarda ve Anadoluda ermeni mezalimi, 1-4 ciltler. Ankara, 1995-1999.
- V.Quliyev. Azərbaycanda erməni zülmü. Bakı, 1999.
- Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995.
- N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996.
- İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, 1998, I-III fəsillər; Ərazi-sərhəd məsələlərinə dair Azərbaycan-Ermənistan danışıqları və onların nəticələri (1919-cu il). - AXC-80. Bakı, 1998, s.68-78.
- İ.Musayev. «Erməni genosidi», yoxsa türk-müsəlman soyqırımı, I kitab. Bakı, 2001.
- İ.Musayev. Böyük dövlətlər və «erməni məsələsi», I hissə. Bakı, 2002.
- C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.
- П.Дарабади. Англичане в Азербайджане. – «Азербайджан» qəzeti, 25-30 iyun, 1992-ci il.
- A.İsgəndərov. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, 1997.
- Pasdermadjian H.Historie de Larmenie. Paris, 1971.

## 3-cü mövzu
## Azərbaycan Paris (Versal) Sülh konfransında

- Konfransa hazırlıq tədbirləri və Azərbaycan Sülh nümayəndəliyinin tərkibi.
- «Parisdəki Sülh Konfransına Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin tələbləri» sənədi.
- «Vahid, bölünməz Rusiya» təhlükəsi və Azərbaycanın mövqeyi.
- «Böyük Ermənistan» iddialarına qarşı mübarizə.
- İranın Şimali Azərbaycana dair ərazi iddialarının dəf olunması.
- Ə.Topçubaşının «Paris məktubları».
- Transqafqaz problemlərinin həlli sahəsindəki diplomatik əməkdaşlıq.
- Qərb mandatlığı və Azərbaycanın mövqeyi.
- Azərbaycan istiqlalının Sülh konfransı tərəfindən tanınması prosesi.
- Sülh konfransı Ali Şurasının London, San-Remo konfransları və Azərbaycan.
- Azərbaycan Sülh nümayəndəliyinin taleyi.
- Ə.Topçubaşı görkəmli diplomat kimi.

* * *


- Ə.Topçubaşı. Paris məktubları (AXC Sülh Nümayəndə heyəti sədrinin Azərbaycan hökumətinə məlumatları (mart-noyarbr 1919)). Bakı, 1998.
- ADR: Azərbaycan hökuməti, 1918-1920. Bakı, 1990.
- V.Quliyev. ADR xarici mənbələrdə. - ADR: tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. Bakı, 1992, s.47-62.
- M.B.Məmmədzadə. Ermənilər və İran. Bakı, 1993.
- С.Агамалиева, Р.Худиев. АР: страницы политической истории. 1918-1920 гг. Баку, 1994.
- Л.Джорджж. Правда о мирных договорах. Т.2. Москва, 1957.
- Ф.Нитти. Вырождение Европы. Москва-Петербург, 1923.
- C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində, 1918-1920. Bakı, 1993, III-VI fəsillər.
- N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, s.203-229.
- İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, s.185-192.
- Kazem-zadeh F. The Struggle for Transcaucasia (1917-1921). New-York, 1951.
- Pasdermadjian H. Histoire de L Armenie. Paris, 1971.


## 4-cü mövzu
## Azərbaycan-Rusiya münasibətləri və Aprel işğalı

- AXC-nin süqutunu şərtləndirən xarici amillər.
- Rusiyanın Azərbaycandakı geostrateji maraqları.
- AXC hökumətinin Denikin təhlükəsini dəf etmək sahəsindəki diplomatik tədbirləri.
- Azərbaycan diplomatiyasının Sovet Rusiyası ilə bərabərhüquqlu münasibətlər qurmaq səyləri.
- Çiçerinlə Xoyski arasındakı «notalar savaşı».
- Azərbaycanın Rusiya tərəfindən yenidən işğalının ilkin siyasi nəticələri.
- Böyük və qonşu dövlətlərin Azərbaycan dövlətçiliyinin yenidən itirilməsi təhlükəsi və süqutuna münasibəti.
- AXC xarici siyasətinin uğurları və dərsləri.
- AXC-nin görkəmli diplomatları[*].

* * *


- «Azərbaycan arxivi» jurnalı, 1988, №1-2, s.163-196.


---

[*] Onlardan bəziləri əvvəlki mövzularda ayrıca tövsiyə olunmuşdur. Digərləri barədə xüsusi məruzələri (referatları) da müzakirə etmək məsləhətdir.

- Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы: 1920-1921 гг. Баку, 1989, с.17-42.
- Azərbaycan hökuməti və onun devrilməsinin səbəbləri. - «Elm» qəzeti, 1991, №21-22.
- M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
- H.Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992.
- Н.Нариманов. Избранные поризведения в 3-х томах, т.2. Баку, 1989, с.25, 202-210, 225-231, 244-247, 269-275.
- M.B.Məmmədzadə. Azərbaycan Milli hərəkatı. Bakı, 1992.
- N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, s.230-251.
- C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində, 1918-1920. Bakı, 1993, s.330-362.
- İ.Musayev. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyəti (1917-1920-ci illər). Bakı, 1993.
- T.Svyataxovski, Rusiya Azərbaycanı, 1905-1920-ci illər. «Xazar» jurnalı, 1990, №1-2 (rusca).
- А.Аскеров-Кенгерлинский. Трагедия Азербайджана. – «Хазар» jurnalı, 1990, №3.

**5-ci mövzu**
**Formal müstəqillik dövründə Azərbaycanın beynəlxalq durumu**
*(aprel 1920 - dekabr 1922-ci illər)*

- Beynəlxalq konfranslarda Azərbaycan nefti uğrunda çəkişmələr.
- Azərbaycan SSR-in RSFSR ilə münasibətlərin xarakteri.
- Azərbaycan-Türkiyəı münasibətlərindəki yeni məqamlar.
- Azərbaycan-İran münasibətləri.
- Ş.M.Xiyabaninin başçılıq etdiyi «Azadıstan» Milli hökumətinin beynəlxalq əks-sədası.



- Azərbaycanla Ermənistan arasında diplomatik qarşıdurma (30.IV-30.XI.1920).
- Zəngəzurun bir hissəsinin itirilməsi – Ermənistana verilməsi prosesi.
- 20-ci illərin əvvəllərindəki beynəlxalq konfrans və müqavilələrdə (Gümrü-Moskva-Qars) Naxçıvan məsələsi.
- Azərbaycan-Gürcüstan əlaqələri.

* * *

- К истории образования НКАО Азербайджанской ССР. 1918-1925: Документы и материалы. Баку, 1989.
- Международная политика новейшего времени в договорах, нотах и декларациях, ч.1-3, Москва, 1925-1926, 1928.
- Материалы Гэнуезской конференции. Полн. стен. Отчет. Москва, 1922.
- Soysal İ. Tarihçeleri ve açıqlamaları ile birlikde Türkiyenin siyasi andlaşmaları, I cilt (1920-1925). Ankara, 1989.
- S.R.Sonyel. Türk Kurtuluş Savaşı ve Dış Politika, Cilt I ve II, Ankara, 1991, 1995.
- Документы внешней политики СССР, т.2-6. Москва, 1958-1962.
- Советско-турецкие отношения. Сборник документов 1917-1926 гг. Москва, 1997.
- M.Mehdizadə. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994.
- M.Ə.Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti. Bakı, 1994.
- N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı, 1992.
- Ş.Tağıyeva, N.Nəsibzadə. 1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri və «Azadıstan» məsələsi. ADR:... Bakı, 1992.
- A.Hüseynov. Nərimanovun Genuya səfəri. - «Kommunist» qəzeti, 8 iyul 1989-cu il.

- M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, III, X-XIV, XVI bölümlər.
- M.Sofiyev. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000.
- M.Gönlübol və b. Atatürk və Türkiyenin dış politikası. 1919-1938. İstanbul, 1963.
- İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, IV fəsil; Azərbaycan-Türkiye ilişkileri (1917-1922). Bakı, 1998, II fəsil.
- Bakü konqresi. Ankara, 1994.
- A.Azeri. Azadistan devleti ve Şeyh Muhammed Niyabani (1918-1920). Ankara.

## 6-cı mövzu
## Azərbaycan diasporası və siyasi mühacirətinin dövlətçiliyimizin bərpası uğrunda mübarizəsi
*(20-80-ci illər)*

- XX yüzillikdə Azərbaycan diasporası və siyasi mühacirətinin formalaşması mərhələləri.
- 20-30-cu illərdə Azərbaycan dövlətçiliyinin bərpası uğrunda siyasi-diplomatik mübarizə.
- Ə.Topçubaşının mühacirətdəki diplomatik fəaliyyəti.
- Azərbaycanın istiqlalının itirilməsinin səbəblərinə dair mühacirətdaxili ixtilaflar.
- Azərbaycanın istiqlalının Almaniya tərəfindən tanınması uğrunda mübarizə.
- Visbaden konfransı məsələsi və Azərbaycan mühacirətinin mövqeyi.
- Ermənilərin Azərbaycan və Türkiyə əleyhinə ideoloji-siyasi təbliğatına («erməni soyqırımı» və s. qarşı mübarizə).



* * *

- СССР и Турция, 1917-1979 г. Москва, 1981.
- Azərbaycan mühacirəti siyasi missiyasının Qafqaz millətlərinə müraciəti. – «Azadlıq» qəzeti, 31 may 1991-ci il.
- X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996.
- M.B.Məmmədzadə. Milliğ Azərbaycan hərəkatı. Bakı, 1992.
- M.Ə.Rəsulzadə... Çağdaş Azərbaycan tarixi. Bakı, 1991; Stalinlə ixtilaf xatirələri. Bakı, 1991.
- A.Həşimova. XX əsrin I yarısında Azərbaycan mühacirəti. Bakı, 1992.
- Y.Çəmənzəminli. Xarici siyasətimiz. Bakı, 1993.
- А.Гусейнбейли. Эмигранты. Баку, 1994.
- А.Аскеров-Кенгерлинский. Трагедия Азербайджана. – «Хазар», 1990, №3.
- Elçin. Azərbaycan mühacirəti haqqında. – «Odlar yurdu» qəzeti, 10 noyabr 1991-ci il.
- N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. Bakı, 1994.

## 7-ci mövzu
## Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması

- Azərbaycanın müstəqilliyinin bərpa olunması (1991, 18 oktyabr) və dünya dövlətləri tərəfindən tanınması;
- BMT üzvlüyünə qəbul olunması (2 mart 1992) və beynəlxalq münasibətlərin subyektinə çevrilməsi;
- Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması və müstəqil xarici siyasət yürütməsini çətinləşdirən daxili və xarici faktorlar;
- Azərbaycanın geosiyasi, geoiqtisadi və geostrateji mövqeləri və bunların onun beynəlxalq aləmlə əlaqələrinə təsiri;
- Azərbaycanın Şərq-Qərb əlaqələrindəki əlverişli mövqeyi və bundan istifadə cəhdləri;

- Azərbaycanın qlobal iqtisadi, siyasi, təhlükəsizlik problemləri və beynəlxalq təşkilatlarla bu istiqamətdə həyata keçirdiyi siyasət.

* * *


- Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı. Bakı, 1991.
- Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı, 2000.
- Azərbaycan beynəlxalq aləmdə. I-V cildlər. Bakı, 1996-1999.
- Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001.
- Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-XIII kitablar. Bakı, 1996-2005.
- Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994.
- Həsənov Ə.M. Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti (əsas istiqamətlər, prinsip və xüsusiyyətlər). Heydər Əliyev siyasi məktəbini öyrənirik. Bakı, 1997, s.126-142.
- Həsənov Ə.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. «Qafqaz Universiteti» jurnalı, 2003, №1, s.47-61.
- Həsənov Ə.M. Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri (1991-1997-ci illər). Tarix və onun problemləri. Bakı. 1998, №2, s.49-69.
- Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000.
- Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). Bakı, 1998.
- Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı, 2005, s.571-582.
- Hüseynova H. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, 1998.





- Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.
- Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.
- Quluzadə V. Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı, 1999.
- Аббасбейли А., Аббасбейли Е. Гейдар Алиев и мировая политика. Баку, 1997.
- Чернявский С.И. Азербайджан: выбор курса. Москва, 2004.
- Чернявский С.И. Внешняя политика Азербайджанской Республики (1998-2003). Баку, 2003.
- Devlet Nadir. Doğuştan günümüze Büyük İslam tarihi Türk dünyası. İstanbul, 1993.
- İrfan Ülkü, Ali Hasanov. Süleyman Demirel ve Türk dünyası. İstanbul, 2002.
- Kafesoğlu İbrahim. Türk milliyetçiliğinin meseleleri. İstanbul, 1995.
- Kafkasya ve Azerbeycanın dünü-bugünü-yarını. İstanbul, 1995.


## 8-ci mövzu

## Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması və inkişafı

- Azərbaycanın xarici siyasətinin əsas vəzifələri və onun reallaşdırılması yolları;
- Xarici siyasətin əsas xüsusiyyətləri və onun xarakteristikası; xarici siyasətin mahiyyəti və prinsipləri;
- Azərbaycanın xarici siyasətinin əsas mərhələləri və onu səciyyələndirən cəhətləri;
- Azərbaycanın xarici siyasəti, BMT Nizamnaməsi, ATƏT-in əsas prinsipləri digər beynəlxalq hüquq normaları;
- Azərbaycanın xarici siyasətinin Heydər Əliyev konsepsiyası və onun həyata keçirilməsi.

- Azərbaycanın xarici siyasət istiqamətlərini şərtləndirən amillər;
- Xarici siyasətin əsas istiqamətləri və onların həyata keçirilməsi (Rusiya və MDB ölkələri; Cənubi Qafqazın qonşu dövlətləri; Türkiyə, İran və digər İslam ölkələri;
- Qərbin aparıcı dövlətləri və ABŞ; Cənub-Şərqi Asiya ölkələri; beynəlxalq və regional təşkilatlar; xüsusi istiqamət kimi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli;
- Azərbaycanın enerji siyasəti və yeni neft strategiyasının reallaşdırılması; terrorizmə qarşı beynəlxalq mübarizədə iştirak və s.
- Xarici siyasət prioritetlərinin müəyyən edilməsi yolları və vasitələri;
- Azərbaycanın müasir xarici siyasət prioritetləri; daxili və xarici resursların ölkənin ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının və təhlükəsizliyinin təmin edilməsinə yönəldilməsi;
- Xarici siyasətin daxili və xarici resursları;
- Xarici siyasət mexanizmlərinin müəyyən edilməsi və həyata keçirilməsi;
- Rəsmi strukturlar Prezident, Parlament, Xarici İşlər Nazirliyi, digər rəsmi strukturların xarici siyasət fəaliyyətində iştirakı və ümumi koordinasiyası.

* * *


- Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı. Bakı, 1991.
- Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı, 2000.
- Azərbaycan beynəlxalq aləmdə. I-V cildlər. Bakı. 1996-1999.
- Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001.
- Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996.





- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-XIII kitablar. Bakı, 1996-2005.
- Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994.
- Həsənov Ə.M. Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti (əsas istiqamətlər, prinsip və xüsusiyyətlər). Heydər Əliyev siyasi məktəbini öyrənirik. Bakı, 1997, s.126-142.
- Həsənov Ə.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. «Qafqaz Universiteti» jurnalı, 2003, №1, s.47-61.
- Həsənov Ə.M. Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri (1991-1997-ci illər). Tarix və onun problemləri. Bakı. 1998, №2, s.49-69.
- Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000.
- Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). Bakı, 1998.
- Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı, 2005, s.571-582.
- Hüseynova H. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, 1998.
- Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.
- Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.
- Quluzadə V. Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı, 1999.
- Аббасбейли А., Аббасбейли Е. Гейдар Алиев и мировая политика. Баку, 1997.
- Чернявский С.И. Азербайджан: выбор курса. Москва, 2004.
- Чернявский С.И. Внешняя политика Азербайджанской Республики (1998-2003). Баку, 2003.

- Devlet Nadir. Doğuştan günümüze Büyük İslam tarihi Türk dünyası. İstanbul, 1993.
- İrfan Ülkü, Ali Hasanov. Süleyman Demirel ve Türk dünyası. İstanbul, 2002.
- Kafesoğlu İbrahim. Türk milliyetçiliğinin meseleleri. İstanbul, 1995.
- Kafkasya ve Azerbeycanın dünü-bugünü-yarını. İstanbul, 1995.

## 9-cu mövzu
## Azərbaycan və Şimali, Mərkəzi və Cənubi Amerika ölkələri

- Şimali, Mərkəzi və Cənubi Amerika ölkələri dünya siyasətində;
- Azərbaycanın ABŞ-la sıx əməkdaşlığını zəruri edən amillər;
- ABŞ-ın Qafqazda, o cümlədən Azərbaycandakı maraqları və onun reallaşdırılması yolları;
- ABŞ-da erməni lobbisinin antiazərbaycan fəaliyyəti və ABŞ Konqresi tərəfindən Azərbaycanın əleyhinə yönəlmiş "Azadlığı müdafiə aktı"na "907-ci düzəliş"in qəbul edilməsi (dekabr 1992);
- ABŞ və Rusiya prezidentlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeləri, ATƏM-in Minsk Konfransının çağırılmasına verilən dəstək (yanvar 1993).
- ABŞ-ın təşəbbüsü ilə Budapeştdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü (1994-cü ilin sonu);
- ATƏM-in Budapeşt sammitində Azərbaycanın mənafeyinə uyğun qərarın qəbul edilməsində ABŞ-ın rolu;
- ABŞ-Azərbaycan münasibətlərində həlledici dönüş (1996-cı il); yüksək səviyyəli görüşlərin davam etdirilməsi;
- ABŞ Konqresinin Nümayəndələr Palatası tərəfindən Azərbaycana qarşı «Porter əlavəsi» adlı sənəd layihəsinin qəbul edilməsi;



- ATƏT-in Lissabon sammitində Azərbaycanın mənafeyinə uyğun qərarların qəbul edilməsində ABŞ-ın rolu (dekabr 1996).
- Amerika-Azərbaycan Ticarət Palatasının yaradılması;
- Ki-Vest danışıqları (2001-ci il);
- Kanadanın Azərbaycanın müstəqilliyini tanıması və iki ölkə arasında diplomatik əlaqələrin qurulması;
- Mərkəzi və Cənubi Amerika ölkələrinin Azərbaycanla əməkdaşlığa meyl göstərməsi və bu istiqamətdə göstərdiyi cəhdləri.

***

- Abutalıbov R. Azərbaycan-Fransa əməkdaşlığı yolları Azərbaycanın beynəlxalq çoxtərəfli əlaqələrində Bakının rolu. Bakı, 1997.
- Azərbaycan 1993: Anarxiyadan sabitliyə. Bakı, 2000.
- Azərbaycan 1994: Milli dövlətçilik sınaq qarşısında. I-II hissə. Bakı, 2002.
- Azərbaycan 1995: Qarşıdurmadan milli həmrəyliyə. I-III hissə. Bakı, 2005.
- Azərbaycan BMT ailəsində. Bakı, 2000.
- Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001.
- Azərbaycan-Almaniya: Respublikamız Avropa ölkələri ailəsində öz mövqeyini möhkəmləndirir. Bakı, 1996.
- Azərbaycan-Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Bakı, 2001.
- Azərbaycan-Çin: diplomatik əlaqələrin qurulmasının 10 ili. Bakı, 2002.
- Azərbaycan-Çin: dostluq sərhədləri aşır. Bakı, 2000.
- Azərbaycan-Fransa: əməkdaşlığın genişlənməsinə mühüm töhfə. Bakı, 1997.

- Azərbaycanın Avropa dövlətləri ilə münasibətlərinə dair sənədlərin siyahısı. Bax: Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). Bakı, 1998.
- Аббасбейли А., Аббасбейли Э. Гейдар Алиев и мировая политика. Баку, 1997.
- Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций. Баку, 1999.
- Актуальные проблемы Европы: экономика, политика, идеология. Вып.1. Москва, 1991.
- Бжезинский З. Великая шахматная доска. Москва, 1999.
- Гаджиев К.С. Геополитика. Москва, 1997.
- Гренвил Дж. История XX века. Люди, события, факты. Пер. с англ. Москва, 1999.
- Гусейнова У. Азербайджан - США. Перспективы сотрудничества (90-е годы). Баку, 2000, 176 с.
- Дергачев В. Геополитика. Киев, 2000.
- Ali Faik Demir. Türk dış politikası perspektifinden Güney Kafkasya. Bağlam yayıncılıq, 2003.
- Çeçen Anıl. Atatürk ve Avrasya, İstanbul, Cumhuriyet Yayınları, 1999.
- Çiloğlu Fahrettin. Rusiya Federasyonunda ve Transkafkasyasda etnik çatışmalar. Sinatle yayınları, İstanbul, 1998.
- Dış Basın ve Türkiye Bülteni, 6-7 mayıs 1997.
- Kafkasya ve Azerbeycanın dünü – bugünü və yarını. İstanbul, Harp Akademileri Basımevi, 1995.
- Kocabaş Süleyman. Kuzeyden gelen tehdit. Türk-Rus mücadelesi. İstanbul, Vatan yayınları, 1990.
- Kumkale Tahir Tamer. Tarihten günümüze türk-rus ilişkileri. İstanbul, İrfan yayınevi, 1997.
- «Washington Times". 15.07. 2004.
- Goltz N. Azerbaijan Diary: A Rogue Reportes Adventures in an Oil-rich, War-torn, Post-Soviet Republic. N.-Y., 1998.



## 10-cu mövzu
## Azərbaycan və Avropa ölkələri

- Avropa qitəsi müasir dünya siyasətində; ərazisi, əhalisi və digər geosiyasi xarakteristikası;
- Qərbi və Şərqi Avropa ölkələri və Azərbaycanın xarici siyasəti;
- Azərbaycanın xarici siyasətində Qərbi Avropa dövlətləri ilə münasibətlərin əhəmiyyəti və əsas xarakterik xüsusiyyətləri.
- Azərbaycan-Fransa münasibətlərini şərtləndirən əsas amillər;
- Azərbaycan-Fransa münasibətlərinə erməni lobbisinin mənfi təsiri
- Azərbaycan Prezidentinin Fransaya rəsmi səfəri (21-23 dekabr 1993), «Dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşma haqqında» müqavilənin imzalanması;
- Azərbaycan «Paris Xartiyası»nın üzvü kimi;
- Paris beynəlxalq konfransı (dekabr 1995);
- Fransanın ATƏT-in həmsədrlərindən biri kimi Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasındakı fəaliyyəti;
- Böyük Britaniyanın dünya siyasətinin formalaşmasındakı rolu;
- Böyük Britaniyanın Azərbaycanın müstəqilliyini tanıması (31 dekabr 1991) və diplomatik münasibətlərin qurulması (11 mart 1992); 1992-1993-cü illərdə Böyük Britaniyanın bir sıra hökumət və iş adamlarının Azərbaycana səfərləri; Böyük Britaniyanın baş naziri Marqaret Tetçerin Bakıya səfəri (7-8 sentyabr 1992);
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Böyük Britaniyanın mövqeyi;
- Almaniya-Azərbaycan münasibətləri yeni müstəvidə (1993-cü ilin ikinci yarısından sonrakı dövr;

- birgə Azərbaycan-Almaniya müəssisələrinin yaranması və fəaliyyəti;
- Ermənistan-Azərbaycan münaqişəsinə Almaniyanın ədalətli mövqeyi;
- İtaliya-Azərbaycan münasibətlərini şərtləndirən amillər: İtaliya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulması;
- İtaliyada Azərbaycan səfirliyinin açılması (2003); İtaliya-Azərbaycan münasibətlərinin hazırkı durumu.
- Yunanıstanın Azərbaycanın müstəqilliyini tanıması və iki ölkə arasında diplomatik münasibətlərin qurulması;
- Belçika ilə Azərbaycan arasında diplomatik münasibətlərin yaradılması (19 fevral 1992); Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra iki ölkə arasındakı münasibətlərdə canlanma;
- Azərbaycanın Avropaya inteqrasiya prosesində Avstriyanın rolu;
